# 7 FEVRAL PREZİDENT SEÇKİLƏRİ GÜNÜDÜR!

Xalqın qəzeti!

# Xalq qəzeti

№ 26 (30430) 7 fevral 2024-cü il, çərşənbə

Gündəlik ictimai-siyasi nəşr

1919-cu ildən çıxır | Təsisçi: Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi və qəzetin redaksiya heyəti | xalqqazeti.az

# Xalqımız müstəqil Azərbaycanın suverenliyinin təntənəsinə səs verir

**Azərbaycanda bu gün gerçəkləşən və öz üzərinə təkcə bölgənin deyil, bütün dünyanın diqqətini cəlb edən növbədənkənar prezident seçkiləri keçirilir. Bölgədə özünün dəyişdiyi reallığın bəhrəsi sayılan yeni hüquqi, hərbi-siyasi situasiyanın ərsəyə gətirdiyi bu seçkilərin ən önəmli cəhəti bütöv Azərbaycanın tamhüquqlu vətəndaşının qürurlu seçimidir.**



Bu gün ölkə ərazisindəki 125 seçki dairəsinin 6 min 537 seçki məntəqəsinin qapalı-pərdəli kabinələrinə daxil olacaq 6 milyon 478 min 623 Azərbaycan seçicisinin dünyaya sülh, demokratiya və əməkdaşlıq mesajını verəcəyi birmənalıdır. Çünki onun nə bölgədəki qonşularından, nə də dünyadan başqa umacağı yoxdur. Dünyada onun bu xoşməramlı səsinə səs verənlərinin sayının bundan sonra daha da artacağına heç kəsin şübhəsi olmasın.

Bu gün ölkə daxilində və onun sərhədlərindən kənarda ucalacaq səslərin coğrafiyası Koreyadan Qərbi Virciniyaya qədər geniş ərazini əhatə edir. Paytaxt Bakının elektoratının səsinə dünyanın 37 ölkəsindəki səfirlik və konsulluqlarımızda yaradılmış 49 seçki məntəqəsində 23 mindən çox soydaşımızın səs verəcəyi gözlənilir.

Azərbaycan ərazisində ən ucadan eşidiləcək seçici sədası isə dəniz səviyyəsindən 2 min 350 metr yüksəklikdəki Xınalıq seçki məntəqəsindən gələcək.

Bəli, bundan sonra Azərbaycanın səsi daim uca nöqtələrdən, zirvələrdən gələcək. Bu seçim haqqını bizə heç kəs peşkəş etməyib, özümüz qazanmışıq. Azərbaycan vətəndaşı bu gün nümayiş etdirəcəyi seçki mədəniyyəti ilə dünyanın öndə gedən ölkələrinə, hətta demokratiyanın beşiyi sayılan supergücünə də bir nümunə göstərmiş olacaq. Sabah, yeni azad seçimimizi edəndən bir gün sonra sivil dünyadan Azərbaycan vətəndaşının seçiminə hörmətlə yanaşmasını və onu olduğu kimi qəbul etməsini gözləyəcəyik. Biz şəffaf, azad və demokratik şəkildə öz seçimimizi etdik. İndi növbə onu müşahidə edənlərindir.

*XQ*

## Qarabağım səs verir



*30 ildi Şuşada yoxuydu Vətən səsi,*
*Yoxuydu Xankəndinin hayqırıb ötən səsi,*
*Qayıdır Kəlbəcərin, Laçının itən səsi,*
*İstiqlalım həkk olur bir ilahi dastana,*
*Qarabağım səs verir qalib Azərbaycana!*

*Araz pəjmürdə idi, Xudafərin pərişan,*
*Nə bir həyanı vardı, nə halını soruşan,*
*Öz halal məcrasına qovuşur Suqovuşan,*
*Təbriz, Culfa, Naxçıvan – o tay, bu tay can-cana,*
*Qarabağım səs verir qalib Azərbaycana!*

*Güllənir hər ürəkdə "Xarı bülbül" butası,*
*"Uvertüra" ləngəri, Xan şikəstə sədası,*
*Hər dildə, hər dodaqda "Azərbaycan" nidası,*
*Qiyamətə qalmayan qisasım var, – "Qan qana!"*
*Qarabağım səs verir qalib Azərbaycana!*

*Hər qazi dağ qartalı, hər qartal saymaz sarı,*
*Şəhid ruhundan keçir mələklərin güzarı,*
*Sayrışır nur içində hər şəhidin məzarı,*
*Muştuluğa tələsir əlində gül bir ana,*
*Qarabağım səs verir qalib Azərbaycana!*

*Canımdan can calanan canım Azərbaycanım,*
*Damarımda çağlayan qanım Azərbaycanım,*
*Şərəfim Azərbaycanım, şanım Azərbaycanım,*
*Car çəkirəm Göyçəyə, Zəngəzura, Zəncana,*
*Qarabağım səs verir qalib Azərbaycana!*

*Hardasınız, hay verin, hayın havadarları,*
*Viran çölün, çəmənin, çayın havadarları,*
*Ey toyun qənimləri,vayın havadarları,*
*Gör nə gözəl yaraşır Zəfər Azərbaycana!*
*Qarabağım səs verir qalib Azərbaycana!*

*Mən savaşa çarpılan qurğuşun "Yox" kimiyəm,*
*Mən düşmənin bağrına saplanan ox kimiyəm,*
*Polad sipər kimiyəm, dəmir yumruq kimiyəm,*
*Bayrağım – hürr qartalım, qıy çəkir bu meydana,*
*Qarabağım səs verir qalib Azərbaycana!*

**Ramiz QUSARÇAYLI**

## Mətbuat Şurasında seçkilərlə bağlı "qaynar xətt" fəaliyyət göstərir

Səhifə ⇨ 5

## Qərbin "sehrli çubuğu" artıq öz təsir gücünü itirib



Səhifə ⇨ 4

## Kahramanmaraşda "Azərbaycan" yaşayış məhəlləsi



**Ötən il fevralın 6-da Türkiyədə baş vermiş və on minlərlə insanın həyatına son qoymuş dəhşətli zəlzələ Azərbaycanı da dərindən sarsıtdı. Zəlzələ xəbərinin ilk dəqiqələrindən Azərbaycan xalqı və dövləti heç bir yardım çağırışını gözləmədən qardaşlıq borcunu yerinə yetirmək üçün bütün imkanlarını səfərbər etdi.**

Azərbaycan hazırda Kahramanmaraş vilayətində humanitar fəaliyyətini davam etdirərək burada aparılan yenidənqurma və bərpa işlərində, sosial obyektlərin inşasında yaxından iştirak edir.

*(ardı 5-ci səhifədə)*

## Erməni milli və siyasi kimliyi üçün "gilyotin"

### *Paşinyanın konstitusiya islahatları təşəbbüsünə reaksiyalar*

**Ermənistanda konstitusiya islahatları fonunda gedən diskussiyalar hər gün güclənməkdə, daha doğrusu, sərt xarakter almaqdadır. Mövcud müstəvidə ölkə iqtidarına qarşı təzyiqlər də artmaqdadır. Yazımızda Ermənistandakı son proseslərə münasibətdəki iki baxışı təqdim edəcəyik.**



Bəri başdan deyək ki, baxışlardan birincisi ənənəvidir – erməni iqtidarı, necə deyərlər, ağına-bozuna baxmadan tənqid olunur, ölkədəki durumdan heç bir çıxış yolu göstərilmir. Bir sözlə, psixoz yaşantısı baş verir. Hesab edirik ki, ikinci baxış Ermənistan dövlətinin və erməni cəmiyyətinin faciə mənzərəsini vurğulamaq baxımından dolğundur, həmçinin ibrətamizdir, düşünməyə vadar edir. Bəs kim və ya kimlər düşünəcək?..

Başlayaq ondan ki, Ermənistan parlamentinin "Ermənistan" müxalif fraksiyasının katibi Artsvik Minasyan hakim "Vətəndaş sazişi" partiyasını keçmiş sovet təhlükəsizlik orqanlarının, dəqiq desək, SSRİ Dövlət Təhlükəsizliyi Komitəsinin ("KQB") üsullarını təkrarlamaqda günahlandırıb: "Sizin "KQB"dən heç bir fərqiniz yoxdur. Yanaşmalarınız bolşeviklərdən fərqlənmir. Siz milli olan hər şeyə hücum çəkirsiniz. Milli kimliklə bağlı hər şeyi məhv etmək ideyasını təbliğ edirsiniz".

*(ardı 3-cü səhifədə)*

## İnvestisiya təşviqi – sahibkarlığa "yaşıl işıq"



Səhifə ⇨ 7

# Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatının Baş katibi MSK-da

**Mərkəzi Seçki Komissiyasının sədri Məzahir Pənahov fevralın 6-da Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatının Parlament Məclisinin Baş katibi Asəf Hacıyevin rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.**



Qonaqlara 7 namizədin mübarizə apardığı seçki prosesi barədə məlumat verən M.Pənahov ölkədə medianın müstəqil olduğunu və prosesi izləmək üçün mətbuat nümayəndələrinə lazımi şəraitin yaradıldığını bildirib.

Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatının Parlament Məclisinin Baş katibi Asəf Hacıyev seçkilərin şəffaf, qanunvericiliyin tələblərinə uyğun qaydada keçiriləcəyinə əminliyini ifadə edib.

# Moldova Azərbaycanın təcrübəsini öyrənir



**Növbədənkənar prezident seçkilərini izləmək üçün Azərbaycana gələn Moldova Mərkəzi Seçki Komissiyasının sədri Anjelika Karamanın rəhbərlik etdiyi nümayəndə heyəti fevralın 6-da Mərkəzi Seçki Komissiyasında olub.**

Mərkəzi Seçki Komissiyasının sədri Məzahir Pənahovla görüşdə qonaqlara ölkəmizdə seçkilərə hazırlıq prosesi, seçicilər və müşahidəçilər üçün yaradılan şərait barədə məlumat verilib.

Ölkəsi ilə bağlı fikirlərini bölüşən A.Karaman deyib: "Azərbaycanın təcrübəsi bizim üçün çox vacibdir. Moldova da nə vaxtsa bütün ərazisində seçkiləri keçirmək arzusundadır. Biz bunu çox istəyirik".

*XQ*

# "Seçki Müşahidə və Təhlil Qrupu" Koalisiyasının nümayəndələri YAP-da

**Fevralın 6-da Yeni Azərbaycan Partiyası (YAP) sədrinin müavini-Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov fevralın 7-nə təyin edilmiş Azərbaycan Respublikası Prezidenti seçkilərinin monitorinqinin həyata keçirilməsi məqsədilə yaradılmış "Seçki Müşahidə və Təhlil Qrupu" Koalisiyasının nümayəndələri ilə görüşüb.**



Partiyadan bildiriblər ki, görüşdə koalisiyanın nümayəndələri - "Vətəndaş Cəmiyyəti Uğrunda Mərkəz" İctimai Birliyinin sədri Rafiq İsmayılov, "Neftçilərin Hüquqlarının Müdafiə Təşkilatı" İctimai Birliyinin sədri Mirvari Qəhrəmanlı və "Multimedia İnformasiya Sistemləri və Texnologiyaları Mərkəzi" İctimai Birliyinin nümayəndəsi Taleh Mansurov "Seçki Müşahidə və Təhlil Qrupu" Koalisiyasının fəaliyyəti haqqında məlumat veriblər. Koalisiyanın seçki prosesi ilə əlaqədar aralıq hesabatının yayıldığı vurğulanıb və yekun hesabat tərtib olunana qədər nəzərdə tutulan tədbirlər haqqında məlumat diqqətə çatdırılıb.

Tahir Budaqov Azərbaycanda azad, şəffaf və demokratik seçkilərin keçirilməsi üçün bütün imkanların yaradıldığını diqqətə çatdırıb. Seçki kampaniyasının Azərbaycan Respublikasının Seçki Məcəlləsinin tələblərinə uyğun olaraq yüksək səviyyədə həyata keçirildiyini bildirən Tahir Budaqov prezident seçkilərinin Azərbaycanın demokratik inkişafının növbəti nümunəsi olacağına əminliyini ifadə edərək, vətəndaş cəmiyyətinin bu prosesdə fəal iştirakının önəmini diqqətə çatdırıb.

Sonra koalisiya nümayəndələrini maraqlandıran suallar cavablandırılıb.

*XQ*

# Rumıniya Senatının prezidenti ölkəmizin səfirini qəbul edib

**Rumıniya Senatının Prezidenti Nikolay Çuka Azərbaycanın bu ölkədəki səfiri Qüdsi Osmanov ilə görüşüb.**



Görüş zamanı qarşıdakı illərdə Azərbaycan və Rumıniya arasında enerji və nəqliyyat sahəsində sıx əməkdaşlığın davam etdirilməsinə ümid ifadə olunub, iki ölkə arasında əlaqələrin möhkəmləndirilməsinə üstünlük verilməsi müzakirə olunub.

*XQ*

# Səudiyyə Ərəbistanı ilə gömrük əlaqələri gücləndirilir



**Azərbaycan və Səudiyyə Ərəbistanı arasında ticarət dövriyyəsinin artırılması, iqtisadi münasibətlərin daha da genişləndirilməsi imkanları müzakirə olunub.**

Bu barədə müzakirələr dünən DGK sədri Şahin Bağırovun Səudiyyə Ərəbistanı Krallığının ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri İssam bin Saleh əl Cuteyli ilə keçirilən görüşdə aparılıb.

Görüşdə Azərbaycan ilə Səudiyyə Ərəbistanı arasında səmərəli əməkdaşlıq və dostluq münasibətlərinin formalaşdığı vurğulanıb, iki ölkənin gömrük orqanlarının da qarşılıqlı əlaqələrin gücləndirilməsinə, ticarət dövriyyəsinin genişləndirilməsinə mühüm töhfə verdiyi diqqətə çatdırılıb.

*XQ*

# Xarici İşlər Nazirliyi: qəbullar, müzakirələr

**Fevralın 6-da xarici işlər naziri Ceyhun Bayramov növbədənkənar prezident seçkilərinin müşahidəsi ilə bağlı ölkəmizdə səfərdə olan Türk Dövlətləri Təşkilatının Baş katibi Kubanıçbek Ömüralıyev ilə görüşüb.**



Ölkəmizin TDT çərçivəsində müxtəlif, o cümlədən siyasi, iqtisadi, ticarət, bağlantılar, mədəni, humanitar və s. sahələr üzrə əməkdaşlığın genişləndirilməsi, təşkilatın gücləndirilməsi istiqamətində aktiv fəaliyyət göstərdiyi diqqətə çatdırılıb.

Bu il təşkilatın ölkəmiz daxil olmaqla, üzv dövlətlərdə keçiriləcək yüksək səviyyəli tədbirlərinin TDT-nin daha da möhkəmlənməsinə töhfə verəcəyinə əminlik ifadə olunub.

Ceyhun Bayramov müstəqillik tariximizdə ilk dəfə olaraq ərazi bütövlüyümüz və suverenliyimizin tam bərpa olunduğu dövrə təsadüf edən növbədənkənar prezident seçkilərinin ölkəmiz üçün rəmzi əhəmiyyət daşıdığını vurğulayıb.

Baş katib Kubanıçbek Ömüralıyev ölkəmizə növbəti səfərinin tarixi növbədənkənar prezident seçkiləri dövrünə təsadüf etməsindən məmnunluq duyduğunu, keçiriləcək seçkilərin nəticələrinin Azərbaycanın inkişaf və rifahına xidmət edəcəyinə əmin olduğunu bildirib.

Görüş zamanı, həmçinin qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

***

**Həmin gün xarici işlər naziri Ceyhun Bayramov Türk Dövlətləri Parlament Assambleyasının Müşahidə Missiyasının rəhbəri Osman Mesteni və nümayəndə heyətinin digər üzvlərini qəbul edib.**

Görüşdə TÜRKPA çərçivəsində əməkdaşlıq məsələləri, habelə cari ilin 7 fevral tarixində keçiriləcək növbədənkənar Prezident seçkiləri ilə bağlı hazırlıq işləri ətrafında fikir mübadiləsi aparılıb.

Növbədənkənar Prezident seçkiləri ilə əlaqədar hazırlıq işləri, o cümlədən XİN tərəfindən görülən tədbirlər barədə qarşı tərəfi ətraflı məlumatlandıran nazir Ceyhun Bayramov, ilk dəfə bütün ərazilərimizdə suverenliyimizin bərpasından sonra keçirilən bu seçki prosesinin tarixi əhəmiyyət kəsb etdiyini bildirib.

Missiya rəhbəri Osman Mesten qardaş Azərbaycanın 44 günlük Vətən müharibəsi nəticəsində əldə etdiyi zəfərdən, habelə tam suverenliyinin bərpasından sonra ilk dəfə keçirilən prezident seçkilərini müşahidə etməkdən məmnunluq duyduğunu qeyd edib. Keçiriləcək seçkilərin nəticələrinin Azərbaycanın bundan sonrakı inkişafında mühüm rola malik olacağına dair əminlik ifadə olunub.

***

**Dünən xarici işlər naziri Ceyhun Bayramov Müstəqil Dövlətlər Birliyinin Baş katibi Sergey Lebedev ilə də görüşüb.**

Görüşdə MDB çərçivəsində gündəlikdə duran aktual məsələlər, əməkdaşlıq perspektivləri, habelə növbədənkənar prezident seçkilərinin müşahidəsindən irəli gələn məsələlər müzakirə olunub.

Ceyhun Bayramov Azərbaycanın MDB ölkələri ilə ikitərəfli, o cümlədən təşkilat çərçivəsində çoxtərəfli əməkdaşlığı uğurla davam etdirdiyini bildirərək, birliyə üzvlüyümüzün sosial, mədəni, humanitar sahələrdə münasibətlərin daha da inkişafına töhfə verdiyini diqqətə çatdırıb.

Ceyhun Bayramov, həmçinin ölkə xaricində yaşayan, habelə uzunmüddətli xarici ezamiyyətdə olan vətəndaşlarımızın seçki hüquqlarını həyata keçirməsi məqsədilə Xarici İşlər Nazirliyi tərəfindən aidiyyəti işlərin görüldüyünü, 37 ölkədə 49 seçki məntəqəsinin yaradıldığını bildirib.

Sergey Lebedev Azərbaycanda keçiriləcək seçkilərin müşahidəsində iştirakla bağlı dəvətə görə təşəkkürünü bildirib, hazırlıq işlərinin peşəkarlıqla aparılmasının təqdirəlayiq olduğunu deyib.

***

**Xarici işlər naziri Ceyhun Bayramov Şanxay Əməkdaşlıq Təşkilatının baş katibi Can Min ilə də görüşüb.**

C.Bayramov Azərbaycanın ŞƏT üzvləri ilə mövcud əməkdaşlığının Təşkilat çərçivəsində ölkəmizin aktivliyini şərtləndirdiyini, habelə qarşılıqlı dialoqa töhfə verdiyini bildirib. Ölkəmizin ŞƏT-in dialoq üzrə tərəfdaşı kimi regional təhlükəsizlik məsələləri, o cümlədən Şərq-Qərb və Şimal-Cənub nəqliyyat dəhlizləri kimi kommunikasiya layihələrinin irəlilədilməsi üzrə təşkilatla faydalı əməkdaşlıq etdiyi bildirilib.

Bununla yanaşı, ölkəmizdə 2024-cü ilin "Yaşıl dünya naminə həmrəylik ili" elan edilməsini, eləcə də BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası (COP29) kimi mötəbər bir tədbirin Azərbaycanda keçiriləcəyini nəzərə alaraq ekologiya sahəsində geniş əməkdaşlıq imkanlarının olduğu vurğulanıb.

Baş katib C.Min növbədənkənar prezident seçkilərinin müşahidəsi ilə əlaqədar dəvətə görə təşəkkür edərək seçkilərin təşkilində ölkəmizə uğurlar arzulayıb.

*XQ*

# Mərakeşli jurnalistlərlə görüş

**Fevralın 6-da Medianın İnkişafı Agentliyinin və Audiovizual Şurasının nümayəndələrinin ölkəmizdə səfərdə olan Mərakeşin nüfuzlu media orqanlarının nümayəndələri ilə görüşü keçirilib.**



Medianın İnkişafı Agentliyinin İcraçı direktoru Əhməd İsmayılov ölkəmizdə media sahəsində həyata keçirilən islahatların mahiyyəti, media subyektlərinin iqtisadi müstəqilliyinin gücləndirilməsi, jurnalistlərin peşəkarlığının artırılması istiqamətində görülən tədbirlərdən danışıb. Audiovizual Şuranın sədri İsmət Səttarov Azərbaycanda fəaliyyət göstərən audiovizual media subyektləri haqqında, televiziyada reklamın yayımlanması, reytinq ölçülməsi sisteminin fəaliyyəti barədə məlumatları qonaqların diqqətinə çatdırıb.

Görüşdə qarşılıqlı maraq kəsb edən mövzularla bağlı fikir mübadiləsi aparılıb.

*XQ*

# Daşnaksütyun partiyası Paşinyanın səhvlərini “düzəltmək” istəyir

## Terrorçu təşkilatın Azərbaycanın ərazi bütövlüyünü təhdid edən bəyanatına sözardı

**Azərbaycanla Ermənistan arasında sülhün əldə edilməsinə maneələr getdikcə artmaqdadır. İlk baxışdan, düşünmək olar ki, hansısa xarici baxışın rəsmi İrəvanın götürdüyü kursa aidiyyatı yoxdur. Ancaq bu, heç də belə deyil. Əksinə, kənardan gələn və faktiki olaraq sülhün “boykot” olunmasını nəzərdə tutan “təşəbbüslər” fonunda Ermənistan hakimiyyətində susqunluq var. Susqunluq isə razılıq əlamətidir. Deməli, baş nazir Nikol Paşinyan administrasiyası terrorçu Daşnaksütyun partiyasının bəyanatı ilə hesablaşır. Hər halda, erməni iqtidarının sülhün hazırkı prinsipləri ilə tamamilə zidd olduğu aşkar görünən sənədə münasibətdə heç bir müqaviməti yoxdur.**



Digər tərəfdən, hazırda sülhü “boykot” etmək yönümlü bəyanat verənlər vaxtilə Ermənistanın hazırkı iqtidarının qəzəbinə tuş gəlmişdilər. Paşinyanın komandası onlara geriliyin əlaməti kimi yanaşırdı. İndi isə bu qüvvələr, sanki, əl-ayaq açmaqdadırlar. Məsələn, vaxtilə Paşinyan belələrinin ölkəyə girişinə qadağa qoyurdusa, hazırda, bu, aradan qaldırılır. Söhbət erməni lobbi və diaspor təşkilatlarının təmsilçilərinin üzləşdikləri yasaqlardan gedir. Yəqin, razılaşarsınız ki, xaricdəki erməniliyin ən öndə gedən qüvvəsi daşnaklardır. Deməli, onların yaydıqları bəyanat da adi bir sənəd kimi qarşılana bilməz.

Beləliklə, Ermənistan hakimiyyətinin susqunluğu fonunda Daşnaksütyun partiyası Azərbaycanla sülh gündəmi ilə bağlı bəyanat yayıb. Sənədi destruktivlik baxımından səciyyələndirən bir neçə cəhət var. Birincisi, daşnaklar Ermənistan hakimiyyətinin aylar, hətta, illər əvvəl irəli sürdüyü məsələləri yenidən gündəmə gətirirlər. Təəssürat yaranır ki, sanki, Qarabağda separatçı rejim fəaliyyətdədir, rəsmi İrəvan Qarabağ erməniləri üçün beynəlxalq təminat tələb edir.

Ümumən, “Daşnaksütyun”un bəyanatı erməni məkrinin növbəti təsdiqi, erməni avantürizminin təzahür formasıdır. Heç şübhəsiz, mərkəzi qərargahı Parisdə yerləşən qurumun bu sayaq açıq tekstə üstünlük verməsi səbəbsiz deyil. Fransanın tutduğu mövqe öz rolunu oynamaqdadır. Nəzərə alaq ki, terrorçu partiyanın təmsilçilərinin ölkənin rəsmiləri ilə sıx əlaqədə olduqları yalnız indinin reallığı deyil.

***

Əlqərəz, “Daşnaksütyun” partiyasının bəyanatındakı ilk cəfəng məqam budur: Qarabağa aralıq status verilməlidir. Deyəsən, daşnaklar, birbaşa, Paşinyandan əvvəlki dövrə gedib çıxırlar. O dövrə ki, Ermənistan hakimiyyəti Qarabağ danışıqları müstəvisində heç nəyə razı deyildi və ən müxtəlif vasitələrlə status-kvonu, yəni işğalı saxlamağa üstünlük verirdi. İndi isə terrorçu təşkilat bildirir ki, yaydığı bəyanat Azərbaycan və Ermənistan arasında gedən hazırkı danışıqlar prosesindən sonra hər iki ölkənin yüksək rütbəli rəsmilərinin açıqlamalarının təhlilinə əsasən hazırlanıb. Partiya, öz aləmində, ən optimal çıxış yolu tapır. Bəs daşnaklar daha nə istəyirlər?

Sən demə, Qarabağ məsələsinin yekun siyasi həllinə və “Artsax xalqının” fundamental hüquqlarının tam həyata keçirilməsinə qədər, bölgə ermənilərinin kollektiv, maneəsiz və təhlükəsiz öz vətənlərinə qayıtmaları təmin edilməlidir. Daşnakların fikrincə, haqqında söz açdığımız aralıq statusu geri qayıdışın faktoru rolunu oynamalıdır. Təminat isə beynəlxalq standartlara söykənməli, hələ Qarabağa sülhməramlı qüvvələr də yerləşdirilməlidir ki, “Artsax xalqı” effektiv təhlükəsizlik mühitinə sahiblənsin. Görəsən, daşnaklar başqa heç nə istəmirlər ki?...

Bəyanatda daha sonra bildirilir ki, Bakı və İrəvan arasında müzakirə olunan hazırkı sülh sazişi layihəsinin razılaşdırılması prosesində Azərbaycan Ermənistandan digər güzəştlər əldə etmək imkanını saxlamaqla, Qarabağın və Ermənistanın bəzi ərazilərinin güc tətbiqi və güc tətbiqi hədəsi ilə reallaşdırdığı işğalını de-yure möhkəmləndirməyə çalışır. Göründüyü kimi, daşnaklar Qarabağın işğalı məntiqini qabardırlar ki, əslində, bu, Ermənistan ərazilərinə qəsd ritorikası ilə paralel şəkildə dövriyyəyə buraxılır. Rəsmi İrəvan hazırda Qarabağ deyil, ikinci amil üzərində dayanır. Hərçənd, Paşinyan iqtidarının da Qarabağ ritorikasının olduğu məlumdur. Əlbəttə, bir qədər fərqli. Məsələn, Qarabağ ermənilərinin bölgəyə təhlükəsiz şəraitdə geri dönüşü. Təhlükəsizlik dedikdə nəzərdə tutulan isə erməni əhali üçün ayrıca beynəlxalq təminatlardır. Yəni, faktiki olaraq, indi daşnakların irəli sürdüyünü, aylar əvvəl, daha doğrusu, lokal xarakterli antiterror tədbirlərinədək, rəsmi İrəvanı da gündəmə gətirirdi. Bütün bunlar isə heç bir halda Azərbaycan tərəfindən məqbul qiymətləndirilə bilməz. Çünki məsələ ölkəmizin konstitusyon təminatlarının heçə sayılmasıdır.

***

Bəli, “Daşnaksütyun” hesab edir ki, Azərbaycan Qarabağ məsələsini bağlamağa çalışır və bu, Ermənistana qarşı təhdidləri artırır, onun təhlükəsizliyini, ərazi bütövlüyünü, suverenliyini şübhə altına alır və nəqliyyat yollarını təcrid duruma salır. Belə çıxır ki, daşnaklar sipər kimi Qarabağ amilinin üzərində dayanırlar. Deməli, bölgə Ermənistanın nəzarətində olmalıdır ki, digər ssenarilər reallaşmasın (?).

Ancaq daşnaklar şikayətlənirlər də. Bildirirlər ki, Bakının “növbəti düşmən hərəkətlərinin, o cümlədən, hərbi təcavüzün qarşısının alınması üçün effektiv mexanizmlər yaradılmır”. Ona görə də qurum mövcud reallıqların nəzərə alınmasını, “milli dövlət maraqlarının müdafiəsinə əsaslanan münasibətlərin tənzimlənməsi naminə “prinsiplər” irəli sürür.

İlk prinsip budur ki, guya, etimad mühitinin yaradılması üçün Azərbaycan qoşunları Ermənistan Respublikasının suveren ərazisindən çıxarılmalı, eləcə də bütün hərbi əsirlər, məhbuslar geri qaytarılmalı, mövcud humanitar problemlər həllini tapmalıdır. Yəqin, fikirlər tanış gəlir. Ermənistan hakimiyyəti də eyni məsələləri qabardır. Ancaq daşnaklar bir qədər də “irəli” gedirlər. Daha doğrusu, geri qayıdırlar. Onların bəyanatlarında “Ermənistan – Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi” fikri vurğulanır. Yəni, bu, o deməkdir ki, terrorçu partiya Azərbaycana qarşı ərazi iddiasından əl çəkmir.

Bəyanatdakı növbəti destruktiv məqama keçid alaq. Məlum olduğu kimi, Ermənistan hakimiyyəti sərhədlərin delimitasiyası və demarkasiyası prosesində SSRİ Baş Qərargahının 1974-cü ildən sonrakı xəritələrinin əsas götürülməsi üzərində dayanır. Eyni zamanda, 1991-ci ilin Alma-Ata Bəyannaməsini rəhbər tutur. O bəyannaməni ki, keçmiş müttəfiq respublikaların SSRİ-dən çıxdıqları zaman malik olduqları ərazilərin bir-biri tərəfindən tanınmasına əsaslanırdı. Əlbəttə, bu yanaşmanın özü də düzgün deyil. Ən əsası ona görə ki, əvvəla, Azərbaycan torpaqlarının otuz ilə yaxın müddətdə işğalda saxlamış Ermənistan ölkəmizin ərazi bütövlüyünə hörmət bəsləməyib. Yəni, Alma-Ata prinsiplərinə tam etinasız yanaşıb. İkincisi isə bir halda ki, Alma-Ata Bəyannaməsi SSRİ-dən çıxarkən mövcud olmuş ərazilər amilini əsas götürürsə, o zaman nə üçün Sovetlər Birliyinə qoşulma kənara qoyulmalıdır? Hansı səbəbdən Azərbaycan İttifaqa böyük ərazi ilə daxil olub, oradan kiçik ərazi ilə ayrılmalıdır? Yaxud, nəyə görə Ermənistanın Sovetlər Birliyindən ayrılması ona əlavə ərazi qazancı verməlidir?

Bütün bunların fonunda daşnaklar öz aləmlərində daha tədbirli davranırlar. Guya ki, diplomatikdirlər. Onlar bildirirlər ki, demarkasiya və delimitasiya üçün əsas Azərbaycanın MDB-yə üzv olduğu dövrdə qüvvədə olan faktiki sərhədləri olmalıdır. Yəni, 24 sentyabr 1993-cü ilə qədərki sərhədlər. Burada “faktiki sərhədlər” ifadəsinə diqqət yetirək. Belə çıxır ki, terrorçu partiya ölkəmizin MDB-yə qoşulmasınadək işğal olunmuş Xankəndini, Xocalını, Şuşanı, Laçını, Xocavəndi, Kəlbəcəri, Ağdərəni, Ağdamı, Cəbrayılı və Füzulini Azərbaycan kimi görmür. Deməli, “Daşnaksütyun” partiyası Paşinyanın səhvini belə “düzəldir”.

Nəhayət, sonda daşnaklar bildirirlər ki, yuxarıda sadalanan prinsiplərə əməl edilmədən imzalanacaq hansısa sənəd regionda sülhün və sabitliyin bərqərar olmasına töhfə verməyəcək, əksinə, problemlərin güc yolu ilə və ya güc təhdidi ilə həlli presedentini təsdiqləyəcək. Bu, nə deməkdir? O deməkdir ki, terrorçu partiya, əvvəla, sülhün real şərtlərinə münasibətdə təhdid yolu tutur. Əlbəttə, bu, həm Azərbaycanı hədələməkdir, həm də Ermənistan hakimiyyətini. Belə çıxır ki, “Daşnaksütyun”un istəklərinə zidd hansısa sülh sazişi imzalansa, dünya erməniliyi durumu qəbul etməyəcək. Qəbul etməyib nə edəcək? Bunu bilmək üçün çox da düşünməyə ehtiyac yoxdur. Çünki “Daşnaksütyun” vurğuladığımız kimi, terrorçu qurumdur.

Onu da bildiririk ki, “Daşnaksütyun” partiyası dünyanın anti-Azərbaycan, anti-türk mövqe tutan, Cənubi Qafqazda əlahiddə maraq və mənafelər gerçəkləşdirmək istəyən qüvvələrin əli ilə hərəkətə gətirilən terrorçu təşkilatdır. Qurumun hazırda Cənubi Qafqazda sülhün formalaşma şərtlərinə müdaxilə yönümlü sənəd yayması həm də həmin dairələrin “sifarişi”, daha doğrusu, “mesajıdır”. Mesajın birbaşa ünvanı isə Ermənistan iqtidarıdır. Deməli, baş nazir N.Paşinyan administrasiyasına təzyiqlər var və heç şübhəsiz, qarşıdakı müddətdə bu təzyiqlər bir qədər də güclənəcək. Vəziyyət belə davam etdikcə isə sülh yalnız üfüqdə közərəcək...

***Ə.CAHANGİROĞLU***
***XQ***

# Erməni milli və siyasi kimliyi üçün “gilyotin”

**(əvvəli 1-ci səhifədə)**

Minasyan onu da bildirib ki, hakim qüvvə dövlətçiliyin əsaslarını qorumaq adı altında həmin əsasları çürüdür. Habelə, iqtidarın irəli sürdüyü ideyalar onun seçki proqramında əksini tapmış müddəalarla ziddir: “Seçki proqramınızda bunun tam əksini dediniz. Qarabağın işğaldan azad edilməsi, onun mühafizəsinin gücləndirilməsi və “erməni soyqırımı”nın beynəlxalq aləmdə tanınmasının təşviqi məsələlərinə toxunurdunuz. Amma indi siz bütün bunlardan imtinaya əsaslanmış gündəmi təbliğ edirsiniz. Eyni zamanda, bunu Ərdoğanın (Türkiyə Prezidenti – red.) və Əliyevin (Azərbaycan Prezidenti – red.) tələblərini yerinə yetirməklə reallaşdırırsınız”.



Minasyan hesab edir ki, bütün yuxarıda deyilənlər fonunda, Paşinyan iqtidarı Ermənistanın milli qüvvələrini baş verənlərdə günahkar kimi göstərməyə çalışır və bu, ölkə hakimiyyətinin tam siyasi deqradasiyasından xəbər verir: “Yalan tezislər irəli sürməklə, dövlətçiliyimizi öldürürsən, Qarabağı düşmənə verirsən, sonra durub yalan danışırsan, hamını və hər şeyi günahlandırırsan. Cəmiyyətə hörmət etmirsənsə, heç olmasa, özünə hörmət et. Yalan yaymağı dayandırın! Nə vaxtadək belə davam edəcəksiniz?! Ölkəni məhv edənə qədər?!”.

Əlbəttə, A.Minasyanın söylədikləri reallıqdır. Paşinyan hakimiyyəti, həqiqətən də özünün deqredasiya dövrünü yaşayır. Ancaq söhbət yalnız ölkənin hazırkı hakimiyyətinin böhranındanmı gedir? Əlbəttə yox! Bu, ümumən müasir Ermənistan dövlətçiliyinin üzləşdiyi məntiqi qanunauyğunluqdur, acınacaqlı sonluqdur. Minasyanın söylədikləri isə heç də vəziyyətdən çıxış yolu deyil, əksinə, durumun bir qədər də mürəkkəbləşdirilməsinə çağırışdır. Çünki partiya funksioneri olan müxalifətçi deputat konstitusiya islahatları müstəvisində Paşinyan iqtidarının reallığı dəyişmək cəhdini xəyanət kimi qiymətləndirir.

Əslində, Minasyan tipik erməni xislətinin ümumiləşdirilmiş obrazıdır. Yəni, onun kimi düşünənlər Ermənistan cəmiyyətində kifayət qədərdir. Bu qəbildən olanların işi-gücü ittihamdır. Onlar özlərinin ucuz populizmlərini işə salaraq, obrazlı desək, ölkəni gözləyən fəlakət üçün qapıları taybatay açırlar. Elə isə Ermənistanın hazırkı vəziyyətinə nəzər salmaq baxımından növbəti düşüncə məhsulunu diqqətə çatdıraq. Yəni, yazımızın ikinci hissəsinə keçid alaq.

*

Əslində, Rusiya Xarici İşlər Nazirliyinin Beynəlxalq Tədqiqatlar İnstitutunun Avro-Atlantik Təhlükəsizlik Mərkəzinin aparıcı elmi işçisi, politoloq Sergey Markedonovun “Bunin&Co” teleqram kanalı üçün yazdıqları erməni deputat A.Minasyanın bildirdiklərinin fundamental ifadəsidir. Ən əsası isə ikincidən fərqli olaraq birinci, Ermənistanla bağlı hadisə və proseslərə, o cümlədən, erməni iqtidarının konstitusiya islahatı gündəminə ayıq başla yanaşır, habelə, ortaya xeyli dərəcədə həssas sayılacaq münasibət qoyaraq, acı reallıqları sadalayır, vəziyyətin çıxılmazlığını əsaslandırır.

Beləliklə, S.Markedonov bildirir ki, Ermənistanda konstitusiya islahatı ilə bağlı müzakirə, faktiki olaraq, erməni milli və xarici siyasət kimliyi ilə bağlı mübahisəyə çevrilir. “Baş nazir Nikol Paşinyan Ermənistanın İctimai Radiosunun “Təhlükəsiz mühit” proqramına müsahibəsində deyib ki, postsovet Ermənistanı dövlətçiliyinin əsasını qoyan 23 avqust 1990-cı il Müstəqillik Bəyannaməsi ölkə və onun vətəndaşları üçün sülh təminatı deyil. O, Ermənistanın “Miatsum” (Ermənistan SSR və Dağlıq Qarabağın birləşdirilməsi) ideyasına əsaslanan öz müqəddəratını təyinetmə prinsipini gələcək üçün risklər yaradan layihə kimi qiymətləndirir”, - deyən politoloq durumu özünəxas şəkildə təsvir etməsi ilə diqqət çəkir.

Markedonov bildirir ki, Paşinyan 1990-cı il Bəyannaməsi və ölkə konstitusiyası ilə təsbit olunmuş erməni siyasi kimliyini “öküzləri” qıcıqlandıran “qırmızı paltar”la müqayisə edib və təhdidləri aradan qaldırmaq üçün həmin paltarları çıxartmağın vacibliyi üzərində dayanıb. Siyasi müşahidəçinin sözlərinə görə, erməni baş nazirin fikirləri “qırmızı paltarları” tikən “sevimli nənə”nin artıq həyatda olmaması deməkdir. “Beləliklə, baş nazir Ermənistan dövlətçiliyinə əsaslı şəkildə yenidən baxılmasını, yəni Qarabağdan və “Böyük Ermənistan” ideyasından, tamamilə, imtinanı təklif etdi”, - deyən rusiyalı politoloq vurğulayır ki, Paşinyan “üçüncü respublika”nın postsovet dövlətçiliyinin əsaslandığı prinsiplərdən uzaq dayanmasının vacibliyini önə çəkir.

S.Markedonovun diqqət çəkdiyi daha bir xüsus var. O deyir ki, hazırda Ermənistan daxilindəki vəziyyətin gərginlik paradiqması ölkədə konstitusiya islahatlarına dair məsələnin Azərbaycan rəhbərliyi tərəfindən də irəli sürülməsi ilə bağlıdır. Politoloq bunda təəccüblü heç nə görmədiyini bildirir. Onun sözlərinə görə, rəsmi Bakı uzun illərdir belə mövqe nümayiş etdirib. Rusiyalı siyasi icmalçının fikrincə, Ermənistanda konstitusiya islahatlarının təşviqi məsələsinə boz rəng çalarları qatan ölkənin iki hərbi məğlubiyyəti və Qarabağın ermənisizləşməsidir. Buna görə də Paşinyanın açıqlamaları və metaforaları ziddiyyətli qiymətləndirmələrə səbəb olub. Markedonov bu mənada İctimai Radionun icraçı direktoru Qaregin Xumaryanın baş nazirlə müsahibəyə görə üzr istəməsinə diqqət çəkib. Qeyd edək ki, Q.Xumaryan Nikolla müsahibə sonrası bunları bildirib: “Bizə dedilər: türklər güclüdür, ermənilər zəifdir, türklər erməniləri qırır. Və bundan belə nəticə çıxarmaq olar: “Gəlin özümüzü gücləndirək”. Amma əvəzində deyildi ki, gəlin erməni olmağı dayandıraq”.

Bu da hadisə və proseslərə ayıq başla baxmalı olan erməni ziyalısının mövqeyi! Göründüyü kimi, fəlakəti yaxınlaşdıran elə Ermənistanın intellektual kəsimidir. Yəni, düşünməli olan təbəqə sərsəmləyirsə, başqalarından nə gözləyəsən? Əlbəttə, heç nə! Elə Markedonov da mövcud məqamın üzərinə gəlir. Ancaq bir qədər fərqli formada. O bildirir ki, media adamının, yəni Xumaryanın özəl qiymətləndirməsi Ermənistandakı ictimai narazılığı qeydə almaq üçün yetərli göstərici sayılmaya bilər. Yəni, prinsipcə, partiyaların və siyasi müxalifət nümayəndələrinin təşəbbüsləri daha önəmlidir. Siyasi təhlilçi bu mənada “Ayakve” (Erməni səsi) Hərəkatının koordinatoru Avetik Çələbyanın bildirdiklərinə toxunur və vurğulayır ki, Çələbyan siyasətdə yeni sima deyil, müxtəlif fondlar və qurumlar yaradıb: “2022-ci ildə hətta həbs edilib. Bu gün Çələbyan Paşinyan və komandasının hərəkətlərini konstitusiya çevrilişinə cəhd kimi qiymətləndirir. Onun sözlərinə görə, “erməni xalqından müharibə ilə şərəfsizlik arasında seçim etmək istənilir”.

Bəli, Markedonov, bəlkə özü də fərqinə varmadan, erməni cəmiyyətindəki bəlaları sadalayır. Nəhayət, o, belə qənaətə gəlir ki, Paşinyanın təkliflərini nikbin adlandırmaq olmaz. Çünki baş nazirin irəli sürdükləri millətin ən ağır travmalarının dindirilməsidir. Ancaq politoloqun gəldiyi yekun nəticə də var: “Ermənistan ordusunun, dövlətinin və cəmiyyətinin Paşinyanın qarşısını almaq, məğlubiyyətin və yeni itkilər riski olmadan mənfi tendensiyaları aradan qaldırmaq üçün real imkanları varmı? Və bəlkə də ən vacibi: Yenidən Qarabağlaşma və ya “Miatsum” üçün kənardan qarant, daxildən isə hərəkətverici qüvvə kim ola bilər?”

*

Göründüyü kimi, Markedonov Minasyanın haqqında söz açdığı faciəvi durumu incəliklərinədək təsvir edir. Bu təsvir, heç şübhəsiz, mesajdır. Politoloq, əslində, demək istəyir ki, hazırda Ermənistanın fəlakətli durumdan heç bir çıxış yolu yoxdur. Eyni zamanda, onun söylədikləri ölkənin üzləşdiyi indiki acınacaqlı situasiyanın nə üçün yaşandığı barədə düşünməyə sövq edir. Bəli, istər-istəməz, belə qənaət formalaşır ki, Ermənistanın bəlalarının kökü onun 2018-ci ildən Rusiyadan uzaqlaşması və Qərb xətti götürməsi ilə əlaqədardır. Axı, “Miatsum” ideyasına əsaslanmış müasir Ermənistan dövlətçiliyi məhz Moskvanın patronajlığı altında idi. Yəni, onun bütün ideya bazası, avantürist mahiyyəti gücünü şimaldan alırdı.

Məsəl var, deyirlər ki, it arabanın kölgəsində yatır, elə bilir öz kölgəsidir. Eyni durumu Ermənistan üzərinə gətirsək, hazırda Rusiyanın kölgəsinin Ermənistan üzərindən getdiyini demək mümkündür. Kölgə yoxdursa, deməli, erməni dövləti layihəsi də bitib, tam iflas növbəsi çatıb. Ölkədə mövcud reallığı dərk edənlərin və qorxunc aqibətdən uzaqlaşmaq istəyənlərin sayı isə çox azdır, yaxud yalançı vətənpərvərlərin, ucuz populistlərin yanında onların səsi eşidilmir.

***Ə.RÜSTƏMOV***
***XQ***

# Qərbin “sehrli çubuğu” artıq öz təsir gücünü itirib

## Ermənipərəst dairələr və dövlətlər köhnə siyasi texnologiyalardan əl çəkməlidirlər

**Azərbaycanın 2020-ci ildə 44 günlük Vətən müharibəsi apararaq işğal altındakı torpaqlarının böyük hissəsini azad etməsi, 2023-cü ilin sentyabrında isə cəmi bir sutka ərzində həyata keçirilən lokal xarakterli antiterror tədbirləri nəticəsində separatçı xunta rejiminin nəzarətində qalan ərazilərdə də dövlət suverenliyimizin bərqərar olması Qərbdəki ermənipərəst dairələrin, necə deyərlər, yuxularının ərşə çəkilməsinə səbəb olub. Onlar illərlə himayə etdikləri separatçı rejimin təslimolma aktına imza atmasını, ağ bayraq qaldırmasını, daha sonra onun buraxılmasını, yaraqlılarının tərk-silah edilməsini, “qlavar”larının həbs olunaraq Bakıya gətirilməsini... heç cür qəbul edə bilmirlər.**



Qərbdəki ermənipərəst dairələr, onların təmsil və idarə etdiyi dövlətlər Azərbaycan torpaqlarında separatizmin çiçəklənməsinə, geniş intişar tapmasına uzun illər ərzində böyük investisiya, el dilində desək, sanballı maya qoymuşdular. Onlar bizi uzun illər ərzində mövcud vəziyyətlə – torpaqlarımızın itirilməsi, status-kvo ilə barışmağa çağırırdılar. Bir çox hallarda təzyiqlər göstərirdilər. Ermənistanı silah-sursatla təchiz edirdilər. İndi həmin mayanın batmasını heç cür özlərinə və bizə bağışlaya bilmirlər. Bu gün bölgədə mövcud olan durum onların qorxulu yuxusu idi. İndi həmin yuxu gerçək olub. Buna görə də bəzi Qərb ölkələrinin hökumətlərində çoxluq təşkil edən ermənipərəstlər intiqam hissi ilə alışıb-yanırlar.

Əlbəttə, heç bir fransız, holland, flamand, alman, kanadalı, yaxud amerikalı ermənilərin əvəzinə gəlib bizimlə döyüşəsi deyil. Bu, bir reallıqdır. Heç Ermənistan ordusunun hərbçiləri belə Vətən müharibəsi dövründə bizimlə döyüşməyi bacarmadılar. Erməni mənbələrinin öz məlumatlarına görə, işğalçı ölkənin ordusunda 11 mindən çox fərari olmuşdur. Ermənistan rəhbərliyi həm Vətən müharibəsindəki məğlubiyyətdən, həm də 2021-2023-cü illərdə baş verən hərbi toqquşmalardakı uğursuzluqdan ibrət götürdü, Azərbaycanın qarşısında gücsüz olduğunu tam mənası ilə dərk etdi və nəhayət, 2022-ci il oktyabrın 6-da Praqada keçirilən Avropa Siyasi Birliyinin I sammitində ölkəmizin ərazi bütövlüyünü tanıdı. Baş nazir Nikol Paşinyan bu mövqeyini 2023-cü ilin mayında İrəvanda keçirdiyi mətbuat konfransında da təsdiqlədi. Beləliklə, 2019-cu ilin sentyabrında Xankəndi şəhər mərkəzi stadionunda çıxış edərkən “Qarabağ Ermənistandır və nöqtə” deyən Paşinyan “dəmir yumruğ”un gücünü gördükdən sonra “Azərbaycanın ərazi bütövlüyünə Qarabağ da daxildir”, başqa sözlə “Qarabağ Azərbaycandır!” dedi.

Ermənistan dövləti və onun rəhbərliyi hazırda aqressiv ritorikadan əl çəkmiş kimi görünür. Onlar Azərbaycanla sülh müqaviləsinin imzalanmasından, regionda nəqliyyat kommunikasiyalarının açılmasından, bunun Ermənistana verəcəyi iqtisadi faydalardan, “Sülhün kəsişməsi” layihəsindən, sərhədlərin delimitasiya və demarkasiyasından bəhs edirlər. Hətta, ölkənin baş naziri əsas qanundan və digər qanunvericilik aktlarından Azərbaycanla sülhə mane olan müddəaların çıxarılmasına çalışır. Ermənistan vətəndaşlarının sülhə əsas əngəl olan müstəqillik bəyannaməsi ilə münasibətlərini tənzimləməli olduqlarını bildirir. Başqa sözlə desək, Paşinyan bugünkü inkişafı tormozlayan, keçmişin qalığı olan müstəqillik bəyannaməsindən hayların canını qurtarmağa çalışır. Hay toplumunu mübtəla olduğu “miatsum” xəstəliyindən şəfalandırmaq istəyir.

Eyni zamanda, praktika göstərir ki, Ermənistanla Azərbaycan arasında birbaşa ünsiyyət daha səmərəli nəticələr doğurur. Azərbaycan Prezidentinin köməkçisi – Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyevin bir müddət öncə Almaniyanın “Berliner Zeitung” qəzetinə müsahibəsində dediyi kimi, son vaxtlar hər iki ölkə müsbət gündəmi ilə dünyanı təəccübləndirməyi bacarıb. H.Hacıyev bunu deyərkən Azərbaycan Prezidenti Administrasiyası və Ermənistan baş naziri aparatının 2023-cü il dekabrın 7-də yaydığı mühüm birgə açıqlamaya istinad etdiyini vurğulayıb. Məlum olduğu kimi, bunun nəticəsində mübadilə sazişi çərçivəsində 34 hərbçi qarşılıqlı şəkildə azad edildi. Bundan başqa, Azərbaycan Ermənistanın Şərqi Avropa Qrupundan COP-un Büro üzvlüyünə namizədliyini, Ermənistan isə Azərbaycanın COP29-a evsahibliyi etmək üçün namizədliyini dəstəklədi. H.Hacıyevin qeyd etdiyi kimi, bu, Azərbaycanın və Ermənistanın vasitəçi olmadan birbaşa ikitərəfli danışıqlar aparmağa qadir olduğunu göstərdi.

Azərbaycan və Ermənistanın birbaşa danışıqlar yolu ilə münasibət qurmasının daha səmərəli yol olduğunu “Atlas” Araşdırmalar Mərkəzinin bugünlərdə keçirdiyi sorğu da bir daha təsdiq edib. Qeyd edək ki, sorğu Milli Məclisin deputatları, siyasi ekspertlər və xarici siyasət, o cümlədən təhlükəsizlik mövzularında ixtisaslaşan jurnalistlər arasında keçirilib. Sorğuda 100 respondent iştirak edib. “Azərbaycan və Ermənistan arasında danışıqlar hansı formatda davam etdirilməlidir?” sualına respondentlərin 91,6 faizi “Birbaşa danışıqlara üstünlük verilməlidir!” cavabı üzərində dayanıb.

Bütün bunlara baxmayaraq, Qərbdəki bəzi dövlətlər və dairələr Ermənistanı şirnikləndirərək, təxribata çəkərək İrəvanın sülhə gəlməsinə mane olurlar. Bu prosesdə, necə deyərlər, birinci skripkanı məhz Fransa “ifa” edir.

2020-ci ilin Vətən müharibəsi günlərində və ondan sonra Azərbaycanı hansısa sanksiyaların tətbiq olunacağı ilə təhdid edən, məsələni BMT Təhlükəsizlik Şurasında müzakirəyə çıxaran ölkələrdən biri olan Fransa TŞ-nin sədri kimi rüsvayçılıqla üzləşməsinə baxmayaraq, sonrakı illərdə də öz əməllərindən əl çəkmədi. Lokal xarakterli antiterror tədbirlərindən sonra isə bu istiqamətdə çağırışların sayı daha da artıb. Demək olar ki, hər həftə Qərbdəki hansısa deputatın, konqresmenin, senatorun Azərbaycana sanksiya tətbiq olunmasına dair fikirlərinə rast gəlirik. Əfsuslar olsun ki, həmin siyasət son vaxtlar sistemli və ardıcıl xarakter alıb. Sanki onlar “ermənilərdən daha artıq erməni olmağı” qarşılarına məqsəd qoyublar. Yanvarın 17-də Fransa parlamentinin yuxarı palatası – Senat Ermənistanın ərazi bütövlüyünü dəstəkləyən qətnamə qəbul edib, həmçinin Azərbaycana qarşı sanksiyaların tətbiqinə çağırıb.

Bir neçə gündən sonra 2001-ci ildə böyük ümidlərlə daxil olduğumuz Avropa Şurasının Parlament Assambleyasındakı ermənisevərlər fransızların çağırışına qoşulublar. Assambleya Azərbaycan nümayəndə heyətinin səsvermə hüququnun bir il müddətinə alınmasına dair qətnamə qəbul edib. Həmin qətnamədə də Qarabağdan erməni sakinlər gedişinə toxunulub. O ermənilərin ki, onlar özləri bölgəni könüllü tərk ediblər və bu, avropalılara da yaxşı məlumdur.

Bir neçə gün öncə isə AŞPA-dakı qaragüruhun səsinə okeanın o tayından səs gəlib. Məlum olub ki, daha bir qətnamə ABŞ Senatında hazırlanıb. Söhbət senatorlar Ed Marki və Bill Kesedi tərəfindən hazırlanmış kağız parçasından gedir. Sənədə digər ermənipərəst senatorlar – Marko Rubio, Harri Piters, Elizabet Uorren, Şeldon Vaythaus, Robert Menendes və Piter Uelç də qoşulublar. Senatorlar Dövlət Departamentini Azərbaycana təhlükəsizlik sahəsində yardım göstərməyi dəyişdirməyə və ya dayandırmağa çağırıblar.

Maraqlıdır ki, Azərbaycanla bağlı bütün qətnamələrin mətni bir-birinə bənzəyir. Onların hamısında Qarabağdan erməni əhalinin “məcburi köçürülməsi”, “etnik təmizləmə”, bölgədəki hansısa “erməni mədəni irsinin dağıdılması” kimi fikirlər özünə yer tapır. Bu isə onların eyni mərkəzdən hazırlandığına şübhə yeri qoymur. Bu da diqqət çəkən detaldır ki, onlar azərbaycanlı əhali Qarabağdan zorla çıxarılanda, soyqırımları ilə üzləşəndə, torpaqlarımızdakı yeraltı və yerüstü sərvətlərimiz talan olunanda özlərini korluğa və karlığa vururdular.

Ancaq Qərbdəki dairələr birdəfəlik anlamalıdırlar ki, onların bir toxunuşla bütün istəkləri reallaşdıran “sehrli çubuq” kimi yanaşdıqları sanksiya aləti öz gücünü çoxdan itirib. Qərbin yeni müstəqillik qazanmış ərazi və əhalicə kiçik ölkələrə yanaşması hər zaman belə olub: Tənqid edək, təzyiq göstərək, qorxuya salaq, bundan sonra nəyi istəsək qəbul edəcəklər! Bu, uzun illər sınaqdan çıxarılmış siyasi texnologiya idi. Ancaq daha o zamanlar keçdi. Azərbaycanın ötən onilliklər ərzində edilən təzyiqlərə mərdliklə sinə gərməsi həmin siyasi texnologiyanın köhnəldiyini sübut etdi. Odur ki, Qərbdəki ermənipərəst dairələr köhnəlmiş siyasi texnologiyadan birdəfəlik əl çəkməlidirlər. Onsuz da, heç nə alınmayacaq.

***Səxavət HƏMİD***
***XQ***

### Ekspert rəyi



**Yeganə HACIYEVA, politoloq**

**– Qərb ölkələri hələ bir neçə əsr öncədən ümid edirdilər ki, bölgəmizə ermənilərin köçürülməsi ilə buradakı türk və müsəlman dövlətlərə təzyiq mexanizmi formalaşdıra biləcəklər. Ancaq Azərbaycanın işğal olunmuş bütün ərazilərini azad etməsi, o cümlədən Xankəndidə Dövlət Bayrağımızın ucaldılması ilə onların bu oyunu pozuldu. Qərblilər Vətən müharibəsindən sonra regionda yaranmış yeni reallıqları qəbul etmək istəmirlər. Çünki ölkəmizə təzyiq elementləri Qərb dairələrinin əllərindən alınıb.**

**Eyni zamanda, Qərb ölkələri Ermənistanı himayə etməklə öz nüfuzlarını qorumağa çalışırlar. Onlar “hər şeyə qadir” Qərb mifinin dağıdılmasından narahatdırlar. “Qoca qitə” digər regionlarda da oxşar situasiyalarla üzləşib. Bizim regionda baş verənlər “domino effekti” verərək, Qərbin digər bölgələrdəki mövqeyinə də ciddi ziyan vurur. Ona görə də qərblilər beynəlxalq təşkilatlarda Azərbaycan əleyhinə hansısa qətnamələri qəbul etməyə çalışırlar.**

**Söhbət ABŞ-dan gedirsə, deməliyik ki, ölkənin Konqresi çoxdan erməni lobbisinin, necə deyərlər, “işğalı altındadır”. ABŞ hazırda öz dövlətçiliyinin yaxşı mərhələsini yaşamır. Noyabrda keçirləcək prezident seçkiləri ilə bağlı proseslər ölkənin faktiki iki hissəyə bölündüyünü göstərir. Seçki ərəfəsində lobbi qrupları siyasi partiyalara, xüsusilə demokratlara diktə edə bilirlər. Lobbi qruplarının vasitəsilə il ərzində Konqresin müzakirəsinə istənilən erməniyönümlü sənəd çıxa bilər. Çünki erməni lobbisi ABŞ-da mütəşəkkil qüvvədir. Onların proseslərə birbaşa təsir aləti var. Zənnimcə, məsələ bu şəkildə dəyərləndirilə bilər.**

### KÖŞƏ

## AŞPA tribunasında Xocalı cəlladlarına göz yaşı tökülür

**Azərbaycanın Avropa Şurası Parlament Assambleyasındakı nümayəndə heyətinin mandatı təsdiq edilmədikdən və deputatlarımız xüsusi bəyanatla çıxış edərək bu təşkilatla əlaqələri kəsdikdən sonra meydan ermənilərə qalıb. Artıq Azərbaycan nümayəndələri AŞPA-da olmaması erməni deputatların əlinə fürsət verib – ağızlarına gələni danışır, hər cür yalan və iftira püskürürlər.**



**Paşa ƏMİRCANOV**
**pasha.emircanov@mail.ru**

Budur, dünən erməni KİV-ləri öz deputatlarının təşkilatın divarları arasında qaynatdıqları “qəhrəmanlıqlar” haqqında ağızdolusu söhbət açıblar. Məsələn, “panorama.am” Ermənistan Milli Assambleyasının “Mənim şərəfim” fraksiyasının rəhbəri Hayk Mamicanyanın Avropa Şurası Parlament Assambleyasının növbəti sessiyasının plenar iclasında danışdığı əsl cəfəngiyata geniş yer ayırıb. Mamicanyan, təbii ki, Azərbaycan deputatlarının olmamasından sui-istifadə edərək gözünü yumub, ağzını açıb. AŞPA-nın ermənipərəstləri isə, yəqin ki, erməni deputatın “cəsarətinə” heyran qalıblar.

İndi görək, Mamicanyan nə deyib? “İlham Əliyevin de-fakto Dağlıq Qarabağ Respublikasının keçmiş rəhbərlərini həbs etməyə nə hüququ var idi? Kim kimi, nəyə görə və nəyin naminə? Bu, cinayətdirmi? Azərbaycanın bizə qarşı açdığı müharibədə vuruşmaq cinayətdirmi? Məhz bu səbəbdən 2020-ci ildən bu günə qədər erməni hərbi əsirlər Bakıda girov kimi saxlanılır. Yoxsa öz xalqının işğalçılardan müdafiəsini təşkil etmək cinayətdir? Levon Mnatsakanyan və David Manukyan məhz bu səbəbdən indi Bakı həbsxanasındadırlar. Yoxsa, soydaşlarına ümid vermək və ya sadəcə olaraq xeyriyyəçilik etmək cinayətdir? Məhz bu səbəbdən Əliyev rejimi Ruben Vardanyanı həbs etməklə məsuliyyətə cəlb edib”.

Mamicanyan AŞPA tribunasından sual edib ki, nə vaxtdan “öz ölkəsinə şərəf və ləyaqətlə xidmət etmək” cinayətə çevrilib. Onun fikrincə, adı çəkilən erməni hərbçiləri məhz buna görə həbsə düşüblər. “Arsax prezidentləri” Arkadi Qukasyan, Bako Saakyan və Arayik Arutyunyan isə Bakı həbsxanasında ona görə saxlanılır ki, beynəlxalq təşkilatların hesabatlarına görə, “demokratiya baxımından heç də Azərbaycandan geri qalmayan bir ölkəni idarə ediblər”. Daha sonra o, Azərbaycana qarşı onsuz da qərəzli mövqe tutan, ikili standartlarla yanaşan AŞPA rəhbərliyindən soruşur: “Yaxşı, belə çıxır ki, demokratik yolla prezident seçilmək cinayətdir?”

Gülməlidir, deyilmi? Birincisi, bir Azərbaycan məsəlində deyildiyi kimi, “ev qalıbdı əyriyə, həm yeyə, həm səyriyə”. Görünür ki, azərbaycanlıların iclasda olmaması ermənilər üçün böyük meydan yaradıb, sözün həqiqi mənasında, ağızlarına gələni danışırlar. Əlbəttə, utanmasan, oynamağa nə var ki! Erməni deputatlar bizim orda olmamağımızdan sui-istifadə edərək, həqiqətən, utanmazlıq meydanı açıblar.

Əgər AŞPA rəhbərliyində bir qədər ədalət hissi olsaydı, heç olmasa, erməni deputata deyərdi ki, sus, faktları təhrif etmə, utan, ayıbdır. Bəlkə AŞPA rəhbərliyindəkilər bilmirlər ki, Azərbaycan həbs etdiyi erməni cinayətkarlarını nə üçün damlayıb? Yaxşı, bu Mamicanyan ermənidir, ağzına gələni danışır. Yoxsa AŞPA rəhbərliyi də son 30 ildə Cənubi Qafqazda baş verənlərdən xəbərsizdir? Axı onlar yaxşı bilirlər ki, problem Ermənistanın Azərbaycana qarşı ərazi iddiasından başlayıb. Müharibəni də Azərbaycan deyil, Ermənistan başlayıb. Bu illər ərzində Azərbaycanın 20 faizdən artıq ərazisi Ermənistan tərəfindən işğalda saxlanılıb. Keçmiş Dağlıq Qarabağ ərazisindən kənardakı 7 rayon da işğal olunaraq dağıdılıb, viran edilib, nəinki mədəni abidələr, sadə qəbiristanlıqlar da vandalizmə məruz qoyulub. Xarici qonaqlar Ağdamı Qafqazın Xirosiması adlandırıblar.

Mamicanyan Levon Mnatsakanyan və David Manukyan kimi canilərin nə üçün həbs edildiyini soruşur. Bunun səbəbini də AŞPA-da yaxşı bilirlər. Onlar 30 il ərzində Azərbaycanın 30 minə qədər, yəqin ki, Ermənistanın bundan da artıq sakininin əbəs yerə döyüş meydanlarında həlak olmasına baiskar olublar. Elə “Arsax prezidentləri” kimi təqdim edilən beynəlxalq hərbi cinayətkarlar da hər iki ölkədə on minlərlə gənc insanın həyatına son qoyulmasına səbəb olublar. Məhz onların rəhbərliyi və birbaşa göstərişləri ilə dinc Azərbaycan kəndlərinə gecə hücumları təşkil olunub, günahsız insanlara amansız işgəncələr verilib. 1992-ci il fevralın 25-dən 26-na keçən gecə Xocalı şəhərində dinc azərbaycanlılara qarşı amansız soyqırımı aktı həyata keçirilib. Məhz adı çəkilən canilərin separatizm fəaliyyəti nəticəsində 30 illik sülh danışıqları dövründə iki xalq arasında barışıq əldə olunmasına imkan verilməyib. Nəhayət, 2020-ci ilin 44 günlük Vətən müharibəsindən sonra da Qarabağdan erməni birləşmələrinin çıxıb getməsinə, Qarabağın erməni sakinlərinin Azərbaycana inteqrasiya olunub öz evlərində rahat yaşamasına imkan verilməyib. Son nəticədə Azərbaycan lokal xarakterli tədbir keçirməklə Qarabağdakı qeyri-qanuni hərbi birləşmələri ölkə ərazisindən çıxarıb.

Həmin separatçılar bundan sonra da erməni əhalinin Qarabağda qalmasına razılıq verməyiblər və bu əhali Ermənistana miqrasiyaya çağırılıb. Beləliklə, Azərbaycanın bütün cəhdlərinə baxmayaraq, erməni sakinlər heç bir təzyiqə məruz qalmadan Azərbaycan ərazisini tərk ediblər. Mamicanyan bunlarımı “öz ölkəsinə şərəf və ləyaqətlə xidmət” adlandırır?!

İkili standart beşiyi olan AŞPA da ermənilərə şərait yaradır. Əslində, Azərbaycanın ərazi bütövlüyünün və suverenliyinin bərpası təkcə AŞPA-dakıların deyil, Qərbdə çoxlarının yuxusuna haram qatıb. Sadəcə, məsələyə ədalətli yanaşmaq lazımdır...

# Postmüharibə mərhələsində hibrid təhdidlər

**I MƏQALƏ**

***Əgər hamı ancaq öz inamı üzrə savaşsaydı, müharibələr olmazdı.***
***Lev TOLSTOY***

Deyəsən, bir zamanlar De Mopassanın dediyi “müharibə dinc qonşuya hücum etdikdə vəhşilik, vətəni müdafiə etdikdə isə müqəddəs borcdur” deyimini “hibrid” müharibələr alt-üst edir. Bu müharibə növü üçün “təcavüzkar dövlət” anlamı ilə “vətən qoruyan dinc qonşu” anlayışları arasında elə bir fərq qalmır. Burada əsas olanı kimlərinsə öz maraqlarıdır. O maraqlar tələb etsə, dinc qonşunu da yerlə-yeksan etməyə hazırdırlar. Dünya düzəni beləcə “postinsanlaşır”...

## “Hibrid müharibə” anlayışı

“Hibrid” termini iki fərqli obyektin, prosesin, üsulun, yanaşmanın xüsusi məqsədlə birləşdirilməsini, vahid bucaq altında görülməsini ifadə edir. Bu mənada “hibrid” “süni sintez” kimi də təsəvvür edilir.

XXI əsrin gəlişi ilə hibrid tez-tez müasir müharibənin ən son növlərindən biri konktestində (“hibrid müharibə” adlanır) işlədilir. Hibrid müharibə ümumi səviyyədə müharibənin klassik üsulları ilə müasir informasiya-kommunikasiya texnologiyalarının xüsusi planda, konsepsiyada və praktiki savaşda birləşdirilməsi əsasında aparılmasını ehtiva edir. Bu ifadənin başlıca mənası müharibəni müxtəlif təbiətli əməliyyatları uzlaşdıraraq düşməni məhv etməkdən ibarətdir. Bu zaman gizli hərbi əməliyyatların, təxribatların, kibermüharibənin və eyni zamanda, rəqibin ərazisində müxtəlif dağıdıcı fəaliyyətlərin bir–biri ilə əlaqələndirilməsi özünü göstərir.

Beləliklə, hibrid müharibə ümumi halda siyasi, iqtisadi, informasiya və digər hərbi olmayan faktorların hərbi gücə dayanaraq kompleks tətbiqinə əsaslanır. Bu üsullara “hibrid” metodlar da deyirlər. Buradan hibrid müharibənin iki xarakterik xüsusiyyətini müəyyən etmək olar.

Birincisi, hibrid müharibə fərqli mahiyyətə, xüsusiyyətlərə və funksiyalara malik olan sferaların konkret hədəf uğrunda birləşdirilməsini nəzərdə tutur. Burada maddi, mənəvi, əxlaqi, ideoloji, informasiya, iqtisadi, energetik, aksioloji, coğrafi və digər faktorların qarşılıqlı əlaqəsini təşkil etmək lazım gəlir. Özlüyündə bu proses mürəkkəb olduğundan ona nail olmaq asan deyildir.

Eyni zamanda, görünür ki, “hibrid yanaşma”da klassik anlamda müharibənin sərhədləri mövcud olmur – o, sarmaşıq kimi hədəf seçilmiş cəmiyyətin, hakimiyyətin, qrupların, sosial kəsimlərin hər birini əhatə edir, onların “içindən keçir”. Bu səbəbdən, hibrid müharibəni tam müəyyənləşdirmək və onun qaynaqlarını aydınlaşdırmaq çox çətinliklər törədir. Üstəlik, hibrid savaşda, adətən, müasir gəlişigözəl terminlərdən (insan haqları, demokratiya, liberalizm, sabitliyin təmini, vətəndaş cəmiyyəti, milli təhlükəsizliyin təmini, başəriyyətə sülh gətirilməsi və s.) istifadə olunur, onların məzmunlarının “arxasında” əsl niyyətlər gizlədilir.

Bundan başqa, hibrid savaşları elan etmirlər. Onları müxtəlif ad altında həyata keçirirlər. Onu deyək ki, həmin prosesdə müasir cəmiyyətlərə xas olan bir sıra “sosial-psixoloji naqisliklərdən” də yararlanırlar.

Məsələn, cinsi pozğunluqlardan, gender məsələlərindən, fərdin tam olması üçün istədiyini etmək haqqına sahib olmasından, informasiya əlçatanlığının konkret dövlətin və cəmiyyətin əleyhinə olan aspektlərdə istifadədən və s.

Bunun üçün, deyək ki, cinsi azlıqların aksiyalarını təşkil edirlər, bir cəmiyyətdə qadınların özünü aparması və evlənməsi normalarını aşan uyğunsuz hərəkətləri reklam edirlər, feministlərin sərhədsiz radikal və ictimai psixologiyaya zərərverici aspektdə davranışlarına haqq qazandırmağa çalışırlar. Bu zaman, bir sıra Qərb cəmiyyətlərində özünü göstərən ailə qurmanın pozğun formasını reklam edirlər. Lakin öz cəmiyyətlərində buna qarşı mübarizə aparırlar.

Digər tərəfdən, mənəvi-əxlaqi dəyərlərə üstünlük verən cəmiyyətlərdə gənclərin söyüşcül, fərdi maraqlarına görə üsyançı və dağıdıcı, ictimai yerlərdə mövcud qanunlara əməl etmək əvəzinə, saygısız və başqalarını nəzərə almayan hərəkətlərinə haqq qazandırmağa (məsələn, siqareti yerə atır və deyir ki, “mən azad adamam, istədiyimi edə bilərəm”, irad tutulanda isə “hüquqlarımı pozursunuz” kimi həyasızlıq edirlər) çalışırlar. Sonra onlardan öncə “haqsızlıq qurbanı”, sonra isə “qəhrəman demokrat” obrazı düzəldirlər. Bu kimi hallarda, bütövlükdə, cəmiyyət və dövlət üçün daha təhlükəli olan bir məqamı da aktuallaşdırırlar. Bu, cəmiyyətə hakimiyyət arasında uçurum yaratmaqla, bütövlükdə, legitimsizlik mühiti formalaşdırmaq və toplumu parçalamaqla bağlıdır. Onun reallaşma üsullarından biri dövlətə rəhbərlik edən və onun komandasına daxil olan şəxslər haqqında yalan, böhtançı, şərləyici informasiyaları xüsusi media kanallar vasitəsilə yaymaq ayrıca yer tutur. Bu barədə biz konkret nümunələr üzrə irəlidə bəhs edəcəyik.

Bu fikirlərdən hibrid metodların tətbiqinin ikinci xarakterik xüsusiyyətini müəyyən etmək olar. Bu, istənilən variantda hibrid fəaliyyət müharibə məqsədlidir, qarşı tərəfi maddi, hərbi, mənəvi, əxlaqi, informasiya, mədəni aspektlərdə məhv etməyi nəzərdə tutur.

Yeni söhbət faktiki olaraq müasir dövrdə müharibənin tarixdə görünməmiş miqyas və səviyyədə müxtəlif üsulların uyğunlaşdırılması əsasında aparılmasından gedir. Bu da hibrid müharibənin, əslində, bəşəri miqyaslı olduğunu və onun hər yerdə hər bir ölkəyə qarşı gizli aparmaq imkanının mövcudluğunu təsdiq edir. Məhz bunları nəzərdə tutaraq hərbi mütəxəssislər yazırlar ki, beynəlxalq təhlükəsizliyin və münaqişələrin xarakteri əvvəlki kimi qalır, dövlətlər öncəki dövrlərdə olduğu kimi müharibələrə cəlb edilirlər və “təhlükəsizlik dilemmaları” meydana gəlir. Lakin indi “modus operandi” (fəaliyyət üsulu) fərqlidir, çünki radikal surətdə əvvəlki üsullardan fərqli metodlarla savaş aparılır.

Hibrid müharibənin detallarına baş vurmaq bu məqalənin məqsədi deyildir. Lakin, bütövlükdə, dünya dövlətlərinə təsir edən bir neçə məqamı vurğulayaq. Hazırda ABŞ, Rusiya, Çin kimi dövlətlər, NATO hibrid müharibə kontekstində kibertəhlükəsizliyi təmin etmək üçün konsepsiyalar yaradır, onu, bütövlükdə, ölkənin təhlükəsizlik sisteminə daxil edirlər. Bu bağlılıqda Dr Tim Stevens və Dr Joe Burton 2023-cü ildə yazdıqları məqalələrində maraqlı faktlar gətirirlər. Yaranmış vəziyyəti, bütövlükdə, “kibernəkanda strateji rəqabət” kimi təqdim edirlər. Onu “informasiya texnologiyaları və məlumatların qaşılıqlı əlaqələrinin qlobal sahəsi” kimi xarakterizə edirlər. Nəticədə böyük dövlətlərin xüsusi xidmət orqanlarının, dövlət başçılarının, diplomatik korpuslarin “kibernəkanda genişmiqyaslı rəqabəti” meydana gəlmişdir. Bura, təəssüf ki, cinayətkar qruplar, şirkətlər, hakerlər, hərbçilər və müxtəlif şantajçılar da daxildirlər. Onları ümumi halda “kiberkampaniyanın komponentləri” adlandırmaq olar.

Nümunə kimi, Rusiyanın Krımı ilhaq etməsi zamanı istifadə etdiyi hibrid metodlarını, hazırda Rusiya–Ukrayna müharibəsində Moskvanın tətbiq etdiyi mübarizə üsullarını göstərirlər.

Bunlardan məqalə müəllifləri belə nəticə çıxarırlar ki, strateji kibernəkanda NATO rəqabət aparmaq istəyirsə, ilk növbədə “kibersabitliyi saxlamağın ilk sırasında olmalıdır”. Bu, nə anlama gəlir? Hər şeydən öncə, Qərb, Rusiya və Çin aktiv surətdə bir-birinə qarşı hibrid metodlardan istifadə edirlər. Bu da dünya miqyasında müxtəlif yan fəsadlar törədir. Həmin bağlılıqda mütəxəssislərin “boz zona” adlandırdıqları fenomen hər bir region üçün (məsələn, Cənubi Qafqaz) sabitlik və sülh baxımından ciddi əhəmiyyət daşıyır.

## Bzejinskinin “boz zonaları”

Keçən əsrin sonlarında Z.Bzejinski bir xəritə tərtib etmişdi. Orada “sabitsizlik zonası”, “Avrasiya Balkanları” və “qaynar nöqtələr” cızılmışdı. Sabitsizlik zonası, demək olar ki, bütün Avrasiyanı əhatə edir. “Avrasiya Balkanları” Z.Bzejinskinin təsəvvüründə sabitsizliyə məruz qalmalı olan regionları ifadə edir (o cümlədən, Cənubi Qafqazı və Uzaq Şərqi), qaynar nöqtələr isə konkret münaqişələrin yaradılmalı olduğu yerlərdir. Z.Bzejinskinin



bu bölgüsü, demək olar ki, praktikada reallaşmaqdadır. Hətta yeni münaqişə zonaları da meydana gəlməkdədir. Bu sırada İraq, Suriya, Türkiyə, Yunanıstan, bütövlükdə, Aralıq dənizi, Cənubi Çin dənizi və digərləri seçilirlər. Rusiya-Ukrayna müharibəsi isə Şərqi Avropaya aiddir.

Bütün bu münaqişələrin hər birində böyük dövlətlər həm öz aralarında, həm də qurban kimi seçilmiş ölkələrə qarşı hibrid müharibənin qaydalarını tətbiq edirlər. Cənubi Qafqaz bunun bariz nümunələrindən biridir. Bu regionda geosiyasi mənzərəni kiberüsullarla elə qarışdırırlar ki, təhlükəsizlik çox həssas bir vəziyyətə gəlib çıxır. Özü də bu prosesdə dünyanın əsas böyük güclərinin hamısı, demək olar ki, iştirak edirlər.

## Cənubi Qafqaz – “boz zona”

Bu əsasda deyə bilərik ki, Cənubi Qafqaz “boz zona”nın mərkəzi məkanlarından biridir. Bəs əsas məqsəd nədir? Niyə Cənubi Qafqaz “boz zona” adlandırılır? Məsələnin mahiyyəti, ümumiyyətlə, “boz zona”ya verilən anlamla bağlıdır. Bu termin müasir dünyanın elə məkanlarını əhatə edir ki, orada Qərb “yeni dünya nizamı” çərçivəsində müəyyən etdikləri “yeni qaydalara” uyğun mənzərə formalaşdırsınlar. “Yeni qaydalar” isə ABŞ-ın müəyyənləşdirdiyi “məcburetmə üsulları” ilə (bir zamanlar ermənilərin də işlətdiyi “Azərbaycanı sülhə məcbur etmək” ifadəsini və ya Rusiyanın müxtəlif kontekstlərdə, “məsələn, Gürcüstanı sülhə məcbur etmək” kimi tezislərini xatırlayaq).

Belə çıxır ki, ABŞ-ın müəyyən etdiyi “boz zona” termininin məzmununda iki aspekt yer almışdır. Birincisi, dünyanın konkret bir geosiyasi məkanında özünü lider sayanları qane etməyən düzən vardır. İkincisi, bu vəziyyəti “düzəltmək” üçün hətta “məcburetmə” üsulundan istifadə oluna bilər.

“Məcburetmə” isə əsasən hibrid metodlarla ya rəqibi çəkindirməyi, ya onu durdurmağı ya da tamamilə zərərsizləşdirməyi nəzərdə tutur.

Cənubi Qafqaza tətbiqdə bu məqamlar onu ifadə edir ki, həmin regionda Qərbin arzuladığı və birbaşa onun şəxsi maraqlarına uyğun olan geosiyasi mənzərə yaratmaq uğrunda mübarizə aparırlar. Onu adını “yeni dünya düzəni” ya da “yeni regional geosiyasi nizam” qoy, və ya başqa bir təntənəli ad seç fərq etməz: söhbət reallıqda amansız, güzəştsiz, ədalətsiz və hər bir tərəfin maraqlarının tam təmin edildiyi açıq və gizli üsulların hibridi olan müharibədən gedir. Bu anlamda Cənubi Qafqaz artıq çoxdandır ki, hibrid müharibənin əsas hədəflərindən biridir!

Bizim region “boz zona” kimi bir sıra geosiyasi və hərbi özəlliklərə malikdir. Həmin özəlliklər Azərbaycanın II Qarabağ savaşında əldə etdiyi böyük Qələbədən sonra yeni məzmun almışdır. “Yeni dünya nizamı” yaradanların heç gözləmədiyi bir situasiya meydana gəlmişdir. Regionda Azərbaycan-Türkiyə birliyi geosiyasi gedişatın mahiyyətini tamamilə dəyişmişdir. Onun əsas əlamətlərindən biri də kənardan olan hibrid təhdidlərin cilovlanmasıdır. Məhz bu reallıq Cənubi Qafqazın postmüharibə mərhələsində geosiyasi mənzərəsinin aparıcı faktorunu təşkil edir və eyni zamanda, onu hibrid təhdidlərin yeni səviyyədə hədəfinə çevirir. Həmin təhdidlər, təbii ki, ilk növbədə bu yeni geosiyasi mənzərəni yaradan Azərbaycana qarşı yönəlmişdir. Həm daha təhlükəli və həssas formada!

***Füzuli QURBANOV,***
***XQ-nin analitiki,***
***fəlsəfə elmləri doktoru***

# Kahramanmaraşda “Azərbaycan” yaşayış məhəlləsi

*(əvvəli 1-ci səhifədə)*

Türkiyənin Kahramanmaraş vilayətində inşa olunan “Azərbaycan” yaşayış məhəlləsinin ümumi sahəsi 32 hektar təşkil edəcək. Layihəyə əsasən məhəllə yaşayış binaları, ibtidai məktəb və uşaq bağçası, mədəniyyət mərkəzindən ibarətdir. Yaşayış məhəlləsində 71 yaşayış binası inşa olunacaq. Bu binalarda ikiotaqlı, üçotaqlı və dördotaqlı 1323 mənzil olacaq. Eyni zamanda, həmin ərazidə məskunlaşacaq sakinlərin iş yerləri ilə təmin olunması məqsədilə yaşayış binalarında 799 qeyri-yaşayış (ticarət) obyekti istifadəyə veriləcək. Layihənin 100 milyon ABŞ dolları məbləğində his-







səsi Azərbaycan Hökuməti tərəfindən inşa olunacaq. Azərbaycan Hökumətinin icraçı qurumu Mənzil İnşaatı Dövlət Agentliyidir.

Azərbaycan Hökuməti tərəfindən “Azərbaycan” yaşayış məhəlləsində yaşayış binaları, ibtidai məktəb, uşaq bağçası və mədəniyyət mərkəzi inşa olunacaq.

Yaşayış məhəlləsində yerləşən ibtidai məktəb və uşaq bağçasının, baş plan üzrə 11-ci və 12-ci kvartalların tikintisinə başlanılıb. İki kvartalda hər biri dördmərtəbəli 16 yaşayış binası inşa ediləcək. Binalarda ümumilikdə 276 mənzil və 244 qeyri-yaşayış obyekti olacaq.

20 sinif otağından ibarət 300 şagird yerlik ibtidai məktəb və 3 sinif otağından ibarət 60 yerlik uşaq bağçasında təhsilə dəstək məqsədilə əlavə otaqlar - xüsusi alətlər və tədris materiallarından ibarət emalatxana, musiqi otağı, rəsm və əmək dərslərinin keçirilməsi üçün iki emalatxana, texnologiya, riyaziyyat və mühəndislik sahəsində bacarıqların təkmilləşdirilməsi üçün emalatxana, kitabxana və idman zalları yaradılacaq.

***XQ***

# Mətbuat Şurasında seçkilərlə bağlı “qaynar xətt” fəaliyyət göstərir

**Prezident seçkiləri ilə bağlı Mətbuat Şurasında “qaynar xətt” fəaliyyət göstərir. Şuranın (012) 441 35 96 şəhər, (050) 242 09 91 və (055) 789 85 03 mobil nömrələri səsvermə başlayan andan bitənədək zəngləri qəbul edəcək.**

Jurnalistlər bu nömrələrlə əlaqə saxlayaraq, prosesin işıqlandırılması zamanı mümkün anlaşılmazlıqlar və problemlər barədə məlumat vermək imkanı əldə ediblər.



Bundan başqa, Mətbuat Şurası İdarə Heyətinin jurnalist və müşahidəçi kimi qeydiyyatdan keçmiş üzvləri paytaxtdakı və bölgələrdəki dairə və məntəqə seçki komissiyalarında jurnalistlərin peşə fəaliyyətlərini gerçəkləşdirmələri üçün yaradılmış vəziyyəti müşahidə edirlər.

Qeyd edək ki, Mətbuat Şurası jurnalistlərin Prezident seçkilərinin işıqlandırılması ilə bağlı sərbəst fəaliyyətlərinə dəstək məqsədilə müvafiq instansiyalarla əlaqəli şəkildə işləyir.

# Romada soydaşlarımız səfirliyimizdə səs verirlər

**Fevralın 7-nə təyin olunmuş növbədənkənar prezident seçkiləri ilə əlaqədar Azərbaycanın İtaliyadakı səfirliyində yaradılan seçki məntəqəsi səsvermə üçün tam hazırdır.**

Seçki Məcəlləsinə uyğun yaradılan məntəqədə seçki komissiyasının sədri, katibi və üzvləri seçilib, səsvermə üçün bütün hazırlıqlar görülüb. İtaliya, Malta və San-Marinoda yaşayan və ya uzunmüddətli xarici ezamiyyətlərdə olan vətəndaşlarımız fevralın 7-də yerli vaxtla saat 08:00-dan 19:00-dək səsvermədə iştirak edəcəklər.



Qeyd edək ki, prezident seçkilərində ölkə hüdudlarından kənarda yaşayan və ya uzunmüddətli xarici ezamiyyətlərdə olan Azərbaycan vətəndaşlarının səsvermə hüquqlarının təmin olunması məqsədilə 37 ölkədə 49 seçki məntəqəsi yaradılıb.

***XQ***

# Müstəqil Azərbaycanın ilk ümumölkə seçkisi

## Konstitusiya Məhkəməsində beynəlxalq müşahidəçilərlə görüş



**Fevralın 6-da Azərbaycan Respublikası Konstitusiya Məhkəməsində Müstəqil Dövlətlər Birliyi Parlamentlərarası Assambleyanın beynəlxalq müşahidəçiləri ilə görüş keçirilib.**

Görüş zamanı sədr Fərhad Abdullayev ölkəmizdə seçki prosesinin ildən-ilə müasirləşdiyini qeyd edib. O, Konstitusiya Məhkəməsinin Azərbaycan Respublikası Prezidentinin seçkiləri ilə bağlı Konstitusiyada və qanunlarda təsbit edilmiş səlahiyyət və funksiyaları barədə ətraflı məlumat verib.

Qeyd edilib ki, MDB Parlamentlərarası Assambleyanın beynəlxalq müşahidəçilərinin rəyləri və təklifləri seçki prosesi üçün əhəmiyyətlidir.

MDB PA-nın beynəlxalq müşahidəçiləri təqdim olunan məlumata görə təşəkkürünü ifadə edərək, öz fəaliyyəti və məqsədləri barədə danışıblar. Beynəlxalq müşahidəçilər bildiriblər ki, seçkilər ərəfəsində ümumi prosesi daha dərindən öyrənmək üçün Konstitusiya Məhkəməsindəki bu görüş onlar üçün xüsusi əhəmiyyət kəsb edir. Söhbət zamanı Azərbaycanda qarşıdakı növbədənkənar prezident seçkiləri ilə bağlı məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

F.Abdullayev seçkilərin demokratik, seçki qanunvericiliyinə uyğun şəkildə keçiriləcəyinə, ədalətli və şəffaf olacağına əminliyini bildirib.

Görüş zamanı seçki prosesi ilə bağlı hüquqi məsələlər müzakirə olunub.

Görüşdə, həmçinin Konstitusiya Məhkəməsinin hakimləri və Aparatın məsul əməkdaşları iştirak ediblər.

## Ölkəmiz daha bir seçki təntənəsi yaşayır



**Mərkəzi Seçki Komissiyasının sədri Məzahir Pənahov fevralın 6-da Türk Dövlətləri Parlament Assambleyasının (TÜRKPA) nümayəndə heyəti ilə görüşüb.**

MSK sədri ilk dəfə olaraq seçkilərin azad edilmiş ərazilərimizdə də keçiriləcəyini diqqətə çatdırıb. O qeyd edib ki, seçicilər həmin ərazilərdə yaradılmış 26 məntəqədə səs verəcəklər.

"Biz bu seçkiləri Zəfər seçkiləri adlandırırıq", - deyən M.Pənahov seçkilərdə mübarizə aparacaq namizədlər, həmçinin ölkəmizdə seçicilərin və yaradılmış məntəqələrin sayı, seçicilər və müşahidəçilər üçün yaradılmış şərait barədə məlumat verib.

Türk Dövlətləri Parlament Assambleyasının nümayəndə heyətinin rəhbəri, qurumun Beynəlxalq münasibətlər və hüquq komissiyasının sədri Osman Mesten TÜRKPA-nın seçkiləri fəal şəkildə müşahidə edəcəyini diqqətə çatdırıb. O, həmçinin bildirib ki, TÜRKPA həmişə Azərbaycanın yanındadır və bu, hər zaman belə olacaq: "İlk dəfə olaraq seçkiləri bütöv Azərbaycan torpaqlarında müşahidə etmək bizim üçün də xüsusi əhəmiyyət daşıyır. Səsvermə günü seçkiləri işğaldan azad olunmuş torpaqlarda müşahidə edəcəyik. Demokratik ölkə olan Azərbaycanda seçkilərin ölkə qanunvericiliyinin tələblərinə uyğun şəkildə keçiriləcəyinə inanırıq. Fevralın 8-də mətbuat konfransı keçirəcəyik və ilkin nəticələrimizi açıqlayacağıq".

## Belarus və Rusiya İttifaqı Parlament Assambleyasının üzvləri MSK-da

**Dünən Mərkəzi Seçki Komissiyasının sədri Məzahir Pənahov Belarus və Rusiya İttifaqının Parlament Assambleyasının sədri Viktor Seliverstovun rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.**



M.Pənahov ölkəmizdə 6,5 milyona qədər seçicinin qeydə alındığını, onların 6537 məntəqədə səs verəcəyini bildirib. O, həmçinin 1000 məntəqədə veb-kameraların quraşdırıldığını və bunun bütün ölkə ərazisini əhatə etdiyini vurğulayıb.

İşğaldan azad edilmiş ərazilərdə ilk dəfə seçkilərin keçiriləcəyini qonaqların diqqətinə çatdıran M.Pənahov qeyd edib ki, seçicilər həmin ərazilərdə yaradılmış 26 məntəqədə səs verəcəklər. Bildirib ki, Xocalı, Xankəndi, Şuşa və digər ərazilərdə səsvermə üçün bütün imkanlar yaradılıb.

Belarus və Rusiya İttifaqının Parlament Assambleyasının sədri Viktor Seliverstov prezident seçkilərinin ciddi və məsuliyyətli proses olduğunu diqqətə çatdıraraq deyib: "Mən Moldovada, Qazaxıstanda, Qırğızıstanda seçkiləri müşahidə etmişəm. Bizim məqsədimiz seçkilərin şəffaf keçirilməsində ölkənizə dəstək olmaqdır", – deyə o qeyd edib.

## Azərbaycanda prezident seçkiləri dünya mediasında

**Dünya mediası Azərbaycanda fevralın 7-də keçiriləcək növbədənkənar prezident seçkiləri ərəfəsində dünyanın aparıcı mediasında geniş analitik məqalələr dərc edib.**




Malayziyanın geniş oxucu kütləsinə malik "New Straits Time" nəşrində dərc olunmuş məqalədə 2020-ci il Vətən müharibəsi və ötən il aparılan antiterror tədbirlərindən sonra ərazi bütövlüyü və suverenliyini tam bərpa edən Azərbaycan xalqının ölkənin müasir tarixinin yeni mərhələsinə başlamaq ərəfəsində olduğu qeyd edilib. "Azərbaycanın yeni regional reallıq yaratması, öz ərazilərində suverenliyini, hüququn aliliyini bərpa etməsi bəzi beynəlxalq gücləri çox narahat edib. Bu kontekstdə AŞPA-nın Bakıya təzyiqini misal çəkmək olar. Qələbədən sonra gələcəyə daha inamla baxan Azərbaycan xalqı iqtisadi, sosial sahələrdə əldə olunmuş müvəffəqiyyətləri möhkəmləndirmək, Silahlı Qüvvələrin qüdrətini artırmaq üçün dövlətçiliyə olan sədaqətini bir daha nümayiş etdirəcək".

Estoniyanın "Riigikogu" nəşrində dərc olunmuş məqalədə bu ölkənin ATƏT DTİHB-nin müşahidə missiyasının tərkibinə daxil olan nümayəndəsi Heljo Pikhofun Azərbaycanda növbədənkənar prezident seçkilərinə hazırlıqla bağlı ilk təəssüratı, Türkiyənin Anadolu agentliyinin saytında dərc edilmiş məqalədə Azərbaycanda növbədənkənar prezident seçkilərinə hazırlıq prosesinin yüksək səviyyədə aparıldığı, Rusiyanın TASS agentliyi, Birinci telekanalı və "Mir" telekanalının saytlarında da Azərbaycanda keçiriləcək növbədənkənar prezident seçkiləri ərəfəsində geniş analitik məqalələr yer alıb.

İordaniyanın "The Jordan Times" qəzetində və "Assasuana" portalında Azərbaycanda keçiriləcək növbədənkənar prezident seçkiləri ilə bağlı dərc olunmuş məqalələrdə bu ölkənin parlamentinin aşağı palatası və Senatının nümayəndələrinin seçkilərdə müşahidəçi qismində iştirak etdikləri vurğulanıb. Qazaxıstanın "Kazinform" agentliyinin saytında da prezident seçkiləri ilə bağlı analitik məqalə dərc edilib.

## Bu gün Azərbaycan xalqı növbəti seçimini gerçəkləşdirir

**Hazırda seçici siyahılarında 6 milyon 478 min 623 seçicinin adı var. Onlar 6 min 537 seçki məntəqəsində səs verəcəklər.**



Azərbaycanda ilk dəfə olaraq seçkilər işğaldan azad edilmiş ərazilərimizdə də keçirilir. Həmin ərazilərdə 26 seçki məntəqəsi yaradıb. 22 mindən çox seçici həmin ərazilərdə yaradılmış məntəqələrdə səs verəcək. Seçkilərdə şəffaflığın təmin edilməsi ilə bağlı 119 dairə üzrə 1 000 seçki məntəqəsində veb-kamera quraşdırılıb. Saat 07:30-dan gün ərzində bütün prosesləri başa çatana qədər veb-kameralar işləyəcək.

Prezident seçkilərini izləmək üçün 90 min 372 müşahidəçi qeydiyyatdan keçib. Onlardan 5405-i MSK, qalanı isə dairə seçki komissiyalarında qeydiyyatdan keçib. Seçki prosesini akkreditasiyadan keçən 89 ölkədən 790 beynəlxalq müşahidəçi izləyəcək. Onlar 72 beynəlxalq təşkilatı təmsil edir.

Prezident seçkiləri ilə əlaqədar 37 ölkədə 49 məntəqə səsvermə üçün hazır vəziyyətdədir. Məntəqələr səfirliklərdə və konsulluqlarda yaradılıb. Bu məntəqələrdə artıq 23 minə yaxın seçici siyahıya alınıb. Müşahidəçilərdən siyasi partiyaların nümayəndələri də var. 14 siyasi partiya namizədi olmamasına baxmayaraq, müşahidəçi kimi özlərinin tərəfdarlarını prosesə cəlb ediblər.

Ümumi müşahidəçilərin 50 mindən çoxu məhz 19 siyasi partiyanın nümayəndələridir. Bundan əlavə, Azərbaycanda fəaliyyət göstərən təxminən 83 qeyri-hökumət təşkilatı da müşahidələr aparacaq.

Dünyanın aparıcı media qurumları "Associated Press", "BBC", "Al Jazeera", "Kyodo" kimi agentliklər də daxil olmaqla, seçkilərdə ümumilikdə 109 beynəlxalq media qurumu iştirak edir. Onların 216 təmsilçisi beynəlxalq müşahidəçi kimi qeydə alınıb.

## TDT missiyası Qarabağ və Şərqi Zəngəzurdadır

**Türk Dövlətləri Təşkilatının (TDT) Beynəlxalq Seçki Müşahidə Missiyası fevralın 7-nə təyin edilmiş prezident seçkilərini izləmək üçün Azərbaycanda fəaliyyətə başlayıb.**



TDT-nin Baş katibi, səfir Kubanıçbek Ömuralıyevin rəhbərlik etdiyi missiyaya qurumun katibliyinin rəsmiləri, üzv dövlətlərin Mərkəzi Seçki komissiyalarının nümayəndələri və TDT ölkələrinin mütəxəssisləri daxildir. Nümayəndə heyətinin Azərbaycan Xarici İşlər Nazirliyində və Mərkəzi Seçki Komissiyasında görüşləri nəzərdə tutulub.

TDT-nin müşahidəçiləri Azərbaycanın işğaldan azad edilmiş ərazilərində də seçkiləri izləyəcəklər.

## 22 min seçici doğma yurdunda səs verir

**Mərkəzi Seçki Komissiyasının sədri Məzahir Pənahov bu fikirləri növbədənkənar prezident seçkilərini izləmək üçün ölkəmizdə səfərdə olan Şanxay Əməkdaşlıq Təşkilatının Baş Katibi Can Minin rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşdə səsləndirib.**



MSK sədri seçkilərdə mübarizə aparacaq namizədlər, həmçinin ölkəmizdə seçicilərin və yaradılmış məntəqələrin sayı, seçicilər və müşahidəçilər üçün yaradılmış şərait barədə qonaqlara geniş məlumat verib.

M. Pənahov ilk dəfə olaraq seçkilərin azad edilmiş ərazilərimizdə də keçiriləcəyini diqqətə çatdırıb. O qeyd edib ki, 22 mindən çox seçici həmin ərazilərdə yaradılmış 26 məntəqədə səs verəcəklər. Həmçinin 3 təşkilat seçkilərdə "exit-poll" keçirmək üçün müraciət edib, onlardan biri ABŞ-ın "Oracle Advisory Group" təşkilatıdır.

O bildirib ki, seçicilər üçün bütün imkanlar yaradılıb, 1000 məntəqədə veb-kameralar quraşdırılıb. Seçki günü həmin məntəqələrdəki prosesi onlayn rejimdə izləmək mümkün olacaq.

Şanxay Əməkdaşlıq Təşkilatının Baş Katibi Can Min Azərbaycanda seçki prosesini müşahidə etməkdən məmnun olduqlarını bildirib. Baş katib seçkiləri izləmək üçün onlara yaradılan imkana görə təşəkkürünü ifadə edib. O, seçki prosesində qanunvericiliyin tələblərinə riayət edilməsinin, şəffaflığın təmin olunmasının vacibliyini diqqətə çatdırıb.

## Naxçıvanda 310 məntəqə 278 mindən çox seçicinin üzünə açıqdır

**Fevralın 7-də növbədənkənar prezident seçkilərində səsvermə üçün Naxçıvan Muxtar Respublikasında fəaliyyət göstərən 6 seçki dairəsi üzrə, ümumilikdə, 278 mindən çox seçici qeydə alınıb.**



Muxtar respublikada seçki dairələri üzrə ən çox seçici sayı 2 saylı Şərur-Kəngərli Seçki Dairəsi üzrə (47 min 224 nəfər) qeydə alınıb.

2020-ci il 10 fevral tarixindən 2024-cü il 7 fevral tarixinə qədər ilk dəfə səs verəcək şəxslərin sayı 17 min 514 nəfər təşkil edir. Həmçinin səsvermə günü daxil olmaqla bu il yanvarın 1-dən fevralın 7-dək yaşı 18-i tamamlamış şəxslərin sayı 525 nəfərdir.

Yaşı 100-dən artıq olan seçicilərin sayı 5 nəfərdir. Naxçıvanda 278 mindən çox seçici qeydiyyata alınıb. Secki-2024.az saytı xəbər verir ki, muxtar respublikada seçkiqabağı hazırlıq işləri yekunlaşıb. Məntəqələrin hər birində bütün lazımi hazırlıq işləri başa çatdırılıb. Naxçıvan Muxtar Respublikasında, ümumilikdə, 6 Dairə Seçki Komissiyası üzrə 310 seçki məntəqəsi mövcuddur. Onlardan 16-sı qapalı məntəqə kimi fəaliyyət göstərəcək. Bütün seçki məntəqələrində seçicilərin rahat, sərbəst, şəffaf şəraitdə səs vermələri, müşahidələrin aparılması üçün hər cür şərait yaradılıb. Məntəqələrdə müşahidə kameraları yerləşdirilib ki, bu kameralar vasitəsilə seçki prosesini canlı izləmək mümkündür.

*Səhifəni hazırladı:*
*Əliqismət BƏDƏLOV*
*XQ*

# İnvestisiya təşviqi – sahibkarlığa “yaşıl işıq”



**2024-cü il 1 fevral tarixli “İnvestisiya təşviqi sənədinin verilməsi nəzərdə tutulan strateji investisiya layihələrinin istiqamətləri” haqqında fərmanda neft-qaz, kimya, tikinti materialları və pambıq sahələri, habelə bərpaolunan enerji mənbələrinin istehsalı ilə bağlı layihələr də yer alıb. Sənəddə tullantıların idarə olunması və təkrar emalı, dəniz suyunun duzsuzlaşdırılması, özəl sənaye məhəllələrinin yaradılması, COP29 beynəlxalq tədbiri çərçivəsində qonaqların qarşılanması və digər təşəbbüslərlə əlaqədar layihələrə də investisiya təşviqi sənədinin verilməsi nəzərdə tutulub.**

Xatırladaq ki, Baş nazir Əli Əsədov 18 iyul 2023-cü il tarixli qərarla “İnvestisiya təşviqi sənədini alan hüquqi şəxslərə və fərdi sahibkarlara texnikanın, texnoloji avadanlıq və qurğuların idxalı üçün təsdiqedici sənədin verilməsi nəzərdə tutulan mal mövqelərinin siyahısı”nı təsdiq edib. Həmin siyahıda istehsal vasitələri, qızdırıcı sobalar, dəzgahlar üçün məsrəf materialları, mühərriklər, buxar qazanları, sənaye sobaları, avtoyükləyicilər, kənd təsərrüfatı avadanlıqları, generatorlar, qida məhsullarının daşınması üçün avtomobillər və s. qeyd olunub.

Göründüyü kimi, investisiya təşviqi sənədi investisiya fəaliyyətinin genişləndirilməsi, biznes mühitinin yaxşılaşdırılması və yeni sənaye müəssisələrinin yaradılmasının dəstəklənməsi məqsədilə müvafiq qanunları ilə müəyyənləşdirilən güzəştləri əldə etməyə əsas verən sənəddir. Bu sənəd əsasında Vergi Məcəlləsi və “Gömrük tarifi haqqında” Qanuna əsaslanmaqla müəyyənləşdirilən bir sıra güzəştlər nəzərdə tutulur.

Onu da deyək ki, investisiya təşviqi sənədlərinin verilməsi ölkəmizdə indiyədək mövcud olmayan yeni avadanlıqların, texnikaların respublikamıza gətirilməsinə, yeni iş yerlərinin yaradılmasına eyni zamanda, müasir istehsal sahələrinin qurulmasına səbəb olub.

İnvestisiya təşviqi sənədlərinin tətbiqi ilə sənaye zonalarının sürətli inkişafı təmin edilib. Bu zonalarda buraxılan məhsullar 50-dən artıq ölkəyə ixrac olunub. Sahibkarların biznes fəaliyyətini stimullaşdıran, onların vergi və gömrük güzəştləri əldə etməsi üçün əlverişli şərait yaradan və 2016-cı ildən tətbiqinə başlanan investisiya təşviqi mexanizmi çərçivəsində 7 ildən artıq müddət ərzində 700-ə yaxın layihə təşviq edilib. Layihələrin icrası nəticəsində iqtisadiyyata 6 milyard manatdan artıq investisiya yatırılması, 40 minə yaxın iş yerinin yaradılması nəzərdə tutulub.

20 dekabr 2022-ci il tarixli fərmanla əvvəlki illərin təcrübəsi nəzərə alınmaqla investisiya təşviqi mexanizmi təkmilləşdirilib. İnvestisiya təşviqi sənədi 2023-cü ilin 1 yanvar tarixindən 3 il müddətində sənaye məhəllələri, aqroparklar, turizm və rekreasiya zonaları və müvafiq ərazilərdə həyata keçirilən layihələrə, eləcə də dövlət başçısı tərəfindən müəyyənəşdirilən istiqamətlər üzrə strateji layihələrə verilməsi nəzərdə tutulub. Yeni meyarlara ekoloji nöqteyi-nəzərdən əhəmiyyətli olan tullantıların təkrar emalı sahəsi əlavə olunub, turizm istiqamətli fəaliyyət sahələri genişləndirilib. Mexanizm çərçivəsində layihələr üzrə idxal olunan texnika, texnoloji avadanlıq və qurğuların əhatə dairəsinin dəqiqləşdirilməsi məqsədilə mal mövqelərinin siyahısı təsdiq edilib.

Qeyd edək ki, Azərbaycan Respublikası ərazisində fəaliyyət göstərən hər bir hüquqi şəxs və fərdi sahibkar əvvəlcədən müəyyənləşdirilən tələblərə uyğun investisiya layihələri üzrə investisiya təşviqi sənədi ala bilər. İnvestisiya təşviqi sənədi İqtisadiyyat Nazirliyi tərəfindən aşağıdakı 3 əsas meyara cavab verən investisiya layihələrinə verilir:

**– investisiyanın həyata keçirildiyi iqtisadi fəaliyyət sahəsi;**

**– investisiya layihəsinin həcmi ilə bağlı minimal məbləğ;**

**– investisiya layihəsinin həyata keçiriləcəyi inzibati ərazi vahidləri.**

Xatırladaq ki, son illərdə respublikada özəl sektorun dinamik inkişafı diqqətdə saxlanılıb, bu istiqamətdə bir sıra tədbirlər həyata keçirilib, iş adamlarına güzəştli kreditlərin verilməsi, investisiya təşviqi mexanizminin tətbiqinin davam etdirilməsi, xarici ölkələrdə ticarət evlərinin açılması və sahibkarların bu prosesə yaxından cəlb olunmasına xüsusi önəm verilib. Eyni zamanda sahibkarlıq sahəsində yoxlamaların, lisenziyaların sayının minimuma endirilməsi, lisenziya verilməsi qaydalarının sadələşdirilməsi və şəffaflığın təmin olunması, bütün bunlarla bağlı dövlət dəstəyinin daha da artırılması sahibkarların xərclərinin azaldılmasına təsir göstərməklə onların büdcəyə vergi ödənişlərinin həcmini də artırıb.

Sahibkarlığın inkişafına mane olan inhisarçılıq, sahibkarlıq fəaliyyəti subyektlərinin dövlət qurumları tərəfindən qanunsuz yoxlanılması və çoxsaylı əsassız lisenziyaların verilməsi, sahibkarlar qarşısında qanunazidd tələblər irəli sürülməsi kimi neqativ halların aradan qaldırılması istiqamətində daha ciddi mübarizənin aparılması vacib şərtlərdir. Ona görə də reallaşdırılan layihələr davamlı xarakter daşıyır, dövlət strukturları, ayrı-ayrı nazirliklər tərəfindən bu məqama mühüm önəm verilir.

Azərbaycanın dünya miqyasında sabit iqtisadiyyata malik dövlət kimi tanınması, beynəlxalq birliyin etibarlı tərəfdaşı olması ölkəmizə investisiya axınını şərtləndirib. Bu məsələdə hökumət tərəfindən “açıq qapı” siyasətinin reallaşdırılması da stimullaşdırıcı rol oynayıb. Bu, öz ifadəsini investorların hüquq və mənafelərinin qorunmasında, mülkiyyətin toxunulmazlığında, yerli və xarici sahibkarlara bərabər şəraitin yaradılmasında daha qabarıq büruzə verib.

Ölkədə davamlı investisiya artımını bir sıra amillər şərtləndirib. Belə ki, son illər ərzində Azərbaycan iqtisadiyyatı struktur və məzmunca xeyli dəyişib, yeni çağırışlar fonunda yeni tənzimləmələr aktuallaşıb. Dövlətimizin başçısının rəhbərliyi ilə həyata keçirilən inkişaf strategiyasının mühüm istiqamətlərindən biri olan Azərbaycan iqtisadiyyatının biznes və investisiya mühitinin daha da yaxşılaşdırılması diqqət mərkəzində saxlanılıb.

22 iyun 2022-ci il tarixli “İnvestisiya fəaliyyəti haqqında” Azərbaycan Respublikasının Qanunu da bu sahənin yeni mərhələyə daxil olmasını şərtləndirib. Qeyd edək ki, ölkədə yerli və xarici investisiyaların cəlb edilməsi baxımından mühüm əhəmiyyətə malik adı çəkilən qanun 2021-ci il 2 fevral tarixli sərəncamla təsdiqlənən “Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər”inə uyğun hazırlanıb.

Azərbaycana investisiya qoyuluşunu sürətləndirmək üçün son illər bir sıra layihələr gerçəkləşdirilib. Məsələn, investisiya mühitinin daha da yaxşılaşdırılması məqsədilə vergi və gömrük islahatları davam etdirilib, onlayn vahid ixrac ərizəsi, “Yaşıl dəhliz”, elektron məhkəmə, elektron satınalma, tikintidə “bir pəncərə”, biznesə başlama, elektrik enerjisinə çıxış, kreditlərə əlçatanlıq, müqavilələrin icrası və əmlakın qeydiyyatı sahələrində mühüm tədbirlər həyata keçirilib.

***Vaqif BAYRAMOV***
***XQ***

# Əkin subsidiyası bolluğa meydan açır

**Kənd təsərrüfatı sahəsində məhsul bolluğunu təmin etmək üçün payızlıq əkinlər genişləndirilib. Bununla paralel olaraq, mövsümün əvvəllərindən etibarən dövlətin dəstək mexanizmi də işə düşüb. Məlum olduğu kimi, uzun illərdir ki, aqrar sektorda bir sıra stimullaşdırıcı tədbirlər həyata keçirilir. Bu baxımdan əkin sahələrinin subsidiyalaşdırılması xüsusi əhəmiyyət kəsb edir.**

Artıq ölkədə fermerlərə payızlıq əkinlərə görə subsidiyaların ödənişinə başlanılıb. Xatırladaq ki, subsidiyalar Kənd Təsərrüfatı Nazirliyi yanında Aqrar Kredit və İnkişaf Agentliyi tərəfindən dövlət büdcəsinin vəsaiti hesabına ödənilir. İlkin mərhələdə 2023–2024-cü təsərrüfat ili üzrə 536 min 702 əkin bəyanı əsasında 263 min 992 fermerə, ümumilikdə, 109 milyon 517 min manat əkin subsidiyası ödənilib. Subsidiya ödənişləri payızlıq əkinlər və çoxillik əkmələrə görə bəyan edilmiş 543 min 298 hektar sahəni əhatə edir.



Yeri gəlmişkən, ötən il fevralın əvvəllərində ölkə üzrə 189 min 946 əkin bəyanı üzrə 93 min 904 fermerə 48 milyon 636 min manat ilkin əkin subsidiyası ödənilmişdi. Ümumi ödənişlər isə 258 min 349 hektar əkin sahəsini əhatə etmişdi. Göründüyü kimi, bu il ilkin mərhələdə subsidiya ödənişi alan fermerlərin sayı ötən ilin müvafiq dövrü ilə müqayisədə 2,8 dəfə, subsidiya vəsaitinin miqdarı 2,3 dəfə, əkin sahəsinin həcmi 2,1 dəfə, ödəniş edilən bəyanların sayı isə 2,8 dəfə artıb.

Aqrar Kredit və İnkişaf Agentliyindən bildirilib ki, subsidiya ödənişlərinin sürətli köçürülməsinə müsbət təsir edən amillərdən biri də fermerlərin çıxarış sənədlərini əldə etməsidir. “Torpaq münasibətlərinin tənzimlənməsi ilə bağlı bəzi məsələlər haqqında” Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 7 oktyabr tarixli 1455 nömrəli Fərmanının 2.1-ci bəndinə uyğun olaraq 2025-ci il yanvarın 1-dən başlayaraq subsidiyaların torpaq sahəsi üzərində mülkiyyət, icarə və ya istifadə hüquqlarına dair daşınmaz əmlakın dövlət reyestrindən çıxarış sənədi əsasında verilməsi nəzərdə tutulub. Bununla əlaqədar Kənd Təsərrüfatı Nazirliyi tərəfindən bu sahədə fermerlərin maarifləndirilməsi, vətəndaşların torpaqdan istifadə hüququna dair sənədlərində mövcud çatışmazlıqların aradan qaldırılması və pay torpaqları üzərində mülkiyyət hüquqlarının rəsmiləşdirilməsinin başa çatdırılması ilə bağlı işlərin sürətləndirilməsi üçün aidiyyəti qurumlarla birlikdə müvafiq addımlar atılır. Bunun nəticəsində torpaq sənədlərinin əksəriyyəti hazırda çıxarış sənədləri ilə əvəzlənib və 2023–2024-cü təsərrüfat ilində Elektron Kənd Təsərrüfatı İnformasiya Sisteminə inteqrasiya edilib.

Qeyd edək ki, Elektron Kənd Təsərrüfatı İnformasiya Sistemi Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyinin əsas fəaliyyət prinsiplərini (fermerlərə yaxınlığı, şəffaf və səmərəli idarəetməni və innovasiyanın tətbiqini) özündə ehtiva edən, daxili və xarici sistemlər ilə inteqrasiya imkanlarını geniş əhatə edən və kənd təsərrüfatı zəncirinin qurulmasına zəmin yaradan vahid bir sistemdir. Burada şəffaflıq və operativlik baxımından fermerlərin və kənd təsərrüfatı məhsullarının ilkin mərhələsindən son mərhələsinə qədər bütün biznes prosesləri əhatə edən modulların formalaşdırılmasını özündə ehtiva edir. Sözügedən sistem kənd təsərrüfatının zamanla bütün sahələrini əhatə etməklə yanaşı, daxili və xarici sistemləri ilə inteqrasiya imkanlarının genişləndirilməsinə, həmçinin kənd təsərrüfatı ilə bağlı bütün proseslərin məntiqi əlaqəliliyinin qurulmasına, proseslərin tamamlanmasına, analizlərin aparılmasına, müasir texniki həllərin tətbiqinə, dəqiq məlumatlara əsaslanan proqnozların verilməsinə imkan yaradır.

Aqrar Kredit və İnkişaf Agentliyinin məlumatında o da bildirilib ki, qurum əkin bəyanlarının monitorinqini başa çatdırdıqca ödənişləri həyata keçirir. Monitorinqlərin müddəti və mərhələləri bəyanların uyğunluğundan, fermer sahələrindən, əkilmiş bitkinin növündən asılıdır. Torpaq sənədlərinin sistemdə müqayisəli yoxlanması, peyk vasitəsilə monitorinq və yerüstü yoxlamalar dövlətin aqrar sahəyə ödədiyi vəsaitin fermerlərə ədalətli çatdırılmasını təmin etməyə imkan verir.

Qanunvericiliyə uyğun olaraq fermerlər karta köçürülmüş vəsaitin 25 faizini nağdlaşdıra, 75 faizini isə qeyri-nağd qaydada mineral gübrə, biohumus, sertifikatlı toxum, ting və pestisid ala bilər, habelə torpaqların aqrokimyəvi analizinin aparılmasına, çoxillik əkmələrdə müasir suvarma sistemlərinin və dirəklərin alınmasına və qurulmasına sərf edə bilərlər.

Hazırda payızlıq əkinləri Elektron Kənd Təsərrüfatı İnformasiya Sistemində bəyan etmiş fermerlərin əkin məlumatları və torpaq sənədlərinin monitorinqi davam edir. Əkinləri üzrə monitorinqləri başa çatmış, torpağın aqrokimyəvi analizinin nəticələrini Elektron Kənd Təsərrüfatı İnformasiya Sisteminə daxil etmiş və sığortaya dair məlumatları sözügedən sistemə inteqrasiya edilmiş fermerlərin siyahısı hazırlanır. Hər həftə həmin siyahılar üzrə subsidiyaların ödənilməsi elektron qaydada həyata keçirilir.

Aqrar Kredit və İnkişaf Agentliyindən bildirilib ki, payızlıq əkinlərə və çoxillik əkmələrə görə subsidiya ödənişlərinin mümkün qısa müddətdə başa çatdırılması nəzərdə tutulur.

***Mirbağır YAQUBZADƏ***
***XQ***

# “AzerGold”un humanitar layihələri

**“AzerGold” Qapalı Səhmdar Cəmiyyəti (QSC) 2023-cü ildə korporativ sosial məsuliyyət (KSM) sahəsində fəaliyyətini uğurla davam etdirib.**

QSC-dən bildirildiyinə görə, ötən il qurum tərəfindən təhsil, sağlamlıq, mikro sahibkarlıq, aqrar inkişaf, ekologiya, qadınların məşğulluğu, tarixi-mədəni irsə töhfə və digər istiqamətlər üzrə layihələr həyata keçirilib.

2023-cü il aprelin 11-də Heydər Əliyev Fondu ilə tərəfdaşlıq şəraitində Gəncə şəhərində regional Autizm Mərkəzinin rəsmi açılışı olub. Ötən ilin aprel ayında Akademik Zərifə Əliyeva adına Milli Oftalmologiya Mərkəzi ilə birgə Daşkəsən rayonunda səyyar göz müayinəsi aksiyası keçirilib.

Bütün bunlarla bərabər, hesabat ilində Heydər Əliyev Fondunun “Regional İnkişaf” İctimai Birliyi və Bakı Sağlamlıq Mərkəzi ilə birgə Daşkəsən rayonunda səyyar tibbi müayinə aksiyası təşkil edilib. Eyni zamanda, Kiçik və Orta Biznesin İnkişafı Agentliyi ilə birgə “Daşkəsən rayonunda arıçılıq təsərrüfatının inkişafına dəstək”, Kənd Təsərrüfatı Nazirliyi yanında Aqrar Xidmətlər Agentliyi ilə birgə “Daşkəsən və Göygöl rayonlarında aqrar inkişafa dəstək”, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tabeliyində Dövlət Məşğulluq Agentliyi ilə birgə “Daşkəsən rayonunda qadınların məşğulluğunun artırılması” və digər layihələr uğurla icra olunub.

QSC-nin KSM sahəsində həyata keçirdiyi layihələr ictimaiyyət tərəfindən də yüksək qiymətləndirilib. Belə ki, ölkəmizdə autizm spektr pozuntulu uşaqların fərdi inkişafı istiqamətində 2022-ci ildən reallaşdırılan səmərəli fəaliyyətə görə, “AzerGold” QSC-yə növbəti dəfə “Milli KSM Mükafatı” və ilk dəfə “Autizm dostu” mükafatı təqdim edilib.



***XQ***

# AÇG və “Şahdəniz” 1 ayda 433 milyon dollar qazanıb

**Azərbaycan Dövlət Neft Fondu (ARDNF) cari ilin yanvar ayında “Azəri-Çıraq-Günəşli” (AÇG) və “Şahdəniz” layihələrindən əldə olunmuş gəlirlərlə bağlı açıqlama yayıb.**



Fondun məlumatına əsasən, ötən ay Xəzər dənizinin Azərbaycan sektorunda yerləşən “Azəri-Çıraq-Günəşli” yataqlar blokundan 387 milyon 645 min ABŞ dolları məbləğində gəlir əldə edilib. Bu da 2023-cü ilin eyni dövrü ilə müqayisədə 237 milyon 429 min dollar və ya 38 faiz azdır.

Hesabat dövründə fondun “Şahdəniz” yatağından əldə etdiyi gəlir isə 45 milyon 389 min dollar təşkil edib. İlin ilk ayında Dövlət Neft Fondu “Şahdəniz” yatağından çıxarılmış kondensatın satışından 15 milyon 748 min dollar qazanc əldə edib. Yeri gəlmişkən, 2023-cü ilin yanvar ayında ARDNF “Şahdəniz” yatağı üzrə gəlir əldə etməyib.

***XQ***

# Qazaxıstan neftinin Transxəzər nəqli artır

**Qazaxıstan iki il ərzində Transxəzər marşrutu üzrə neft tədarükünün həcmini 3 milyon tona çatdırmaq niyyətindədir. Bu barədə Qazaxıstan hökumətinin mətbuat xidməti xəbər verib.**



Bildirilib ki, 2023-cü ildə bu marşrutla 1 milyon ton neft nəql edilib. 2024-cü il üçün isə plan 1,5 milyon tona qədər neftin tədarük edilməsidir.

Xatırladaq ki, 2022-ci ildə Qazaxıstan Prezidenti Kasım-Jomart Tokayev Transxəzər dəhlizi ilə neft nəqlinin artırılması barədə göstəriş verib. Həmin göstərişə uyğun olaraq “Tengiz” yatağından hasil edilən illik neftin 1,5 milyon tonunun Bakı–Tbilisi–Ceyhan kəməri istiqamətində nəqli ilə bağlı “KazMunayQaz” və Azərbaycan Dövlət Neft Şirkəti arasında saziş imzalanıb.

***XQ***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

№ 63 Bakı şəhəri, 31 yanvar 2024-cü il

***“Malların risk qruplarının təyin edilməsi meyarları”nın təsdiq edilməsi haqqında***

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, “Texniki tənzimləmə haqqında” Azərbaycan Respublikasının 2019-cu il 30 sentyabr tarixli 1669-VQ nömrəli Qanununun icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

**1.** “Malların risk qruplarının təyin edilməsi meyarları” təsdiq edilsin (əlavə olunur).

**2.** Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi bu Qərardan irəli gələn məsələləri həll etsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

№ 67 Bakı şəhəri, 5 fevral 2024-cü il

***Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1995-ci il 18 iyul tarixli 168 nömrəli Qərarı ilə təsdiq edilmiş “Azərbaycan Respublikası nəzarət-kassa aparatları üzrə sahələrarası ekspert Komissiyası haqqında Əsasnamə”də dəyişiklik edilməsi barədə***

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1995-ci il 18 iyul tarixli 168 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001, № 9, maddə 625 (Cild I)) ilə təsdiq edilmiş “Azərbaycan Respublikası nəzarət-kassa aparatları üzrə sahələrarası ekspert Komissiyası haqqında Əsasnamə”yə aşağıdakı məzmunda 3.1.9-cu yarımbənd əlavə edilsin:

“3.1.9. Nəzarət-kassa aparatlarının operatorlarına dair funksional tələblər və fəaliyyətinin təşkili üzrə təlimatın təsdiq edilməsi.”.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

№ 69 Bakı şəhəri, 5 fevral 2024-cü il

***“Mikro, kiçik və orta sahibkarlıq subyektlərinə əlavə dəstək göstərilməsi nəzərdə tutulan iqtisadiyyatın prioritet sahələrinin siyahısı”nın təsdiq edilməsi haqqında***

“Mikro, kiçik və orta sahibkarlığın inkişafı haqqında” Azərbaycan Respublikasının 2022-ci il 2 dekabr tarixli 661-VIQ nömrəli Qanununun tətbiqi və Azərbaycan Respublikası Prezidentinin “Azərbaycan Respublikasının Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin fəaliyyətinin təmin edilməsi haqqında” 2018-ci il 26 iyun tarixli 148 nömrəli Fərmanında dəyişiklik edilməsi, “Kiçik sahibkarlığa dövlət köməyi haqqında” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə” 1999-cu il 4 avqust tarixli 171 nömrəli Fərmanının ləğv edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 26 yanvar tarixli 2001 nömrəli Fərmanının 2.2.2-ci yarımbəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

**1.** “Mikro, kiçik və orta sahibkarlıq subyektlərinə əlavə dəstək göstərilməsi nəzərdə tutulan iqtisadiyyatın prioritet sahələrinin siyahısı” təsdiq edilsin (əlavə olunur).

**2.** Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi qeyd olunan sahələrin inkişafının stimullaşdırılması istiqamətində əlavə yeni dəstək mexanizmlərinin yaradılması ilə bağlı təkliflərini altı ay müddətində Azərbaycan Respublikasının Nazirlər Kabinetinə təqdim etsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

№ 70 Bakı şəhəri, 5 fevral 2024-cü il

***“Dövlət qulluqçusu olmayan yoxlayıcıların fəaliyyətinin qiymətləndirilməsi Qaydaları”nın təsdiq edilməsi haqqında***

“Sahibkarlıq sahəsində aparılan yoxlamaların tənzimlənməsi və sahibkarların maraqlarının müdafiəsi haqqında” Azərbaycan Respub-likasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2023-cü il 9 iyun tarixli 903-VIQD nömrəli Qanununun tətbiqi və Azərbaycan Respublikası Prezidentinin “Sahibkarlıq sahəsində aparılan yoxlamaların vahid məlumat reyestrinin forması və aparılması qaydası haqqında Əsasnamə”nin təsdiq edilməsi barədə” 2011-ci il 15 fevral tarixli 383 nömrəli, “Sahibkarlıq sahəsində aparılan yoxlamaların tənzimlənməsi və sahibkarların maraqlarının müdafiəsi haqqında” Azərbaycan Respublikasının 2013-cü il 2 iyul tarixli 714-IVQ nömrəli Qanununun tətbiqi barədə” 2013-cü il 28 avqust tarixli 955 nömrəli fərmanlarında dəyişiklik edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 7 iyul tarixli 2201 nömrəli Fərmanının 2.1-ci bəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

“Dövlət qulluqçusu olmayan yoxlayıcıların fəaliyyətinin qiymətləndirilməsi Qaydaları” təsdiq edilsin (əlavə olunur).

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

**Qeyd: Qərarlara edilmiş əlavələrin tam mətni ilə www.nk.gov.az və www.xalqqazeti.com saytlarında tanış ola bilərsiniz.**

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

№ 72 Bakı şəhəri, 5 fevral 2024-cü il

***Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2013-cü il 10 iyun tarixli 111 nömrəli Qərarı ilə təsdiq edilmiş “Çətin həyat şəraitində hesab edilmənin əsasları üzrə şəxsin (ailənin) çətin həyat şəraitində olmasını təsdiq edən sənədlərin Siyahısı”nda dəyişiklik edilməsi haqqında***

“Sosial xidmət haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2023-cü il 24 oktyabr tarixli 1014-VIQD nömrəli Qanununun icrası ilə əlaqədar Azərbaycan Respublikası Prezidentinin bəzi fərmanlarında və sərəncamlarında dəyişiklik edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 18 noyabr tarixli 2358 nömrəli Fərmanının 8-ci hissəsinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2013-cü il 10 iyun tarixli 111 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2013, № 6, maddə 725 (Cild I)) ilə təsdiq edilmiş “Çətin həyat şəraitində hesab edilmənin əsasları üzrə şəxsin (ailənin) çətin həyat şəraitində olmasını təsdiq edən sənədlərin Siyahısı”nda aşağıdakı dəyişikliklər edilsin:

**1.** 10-cu hissənin adına və 10.1-ci bəndə “müəssisələrində” sözündən sonra “, habelə ümumi təyinatlı internat tipli və internat tipli xüsusi ümumtəhsil məktəblərində” sözləri əlavə edilsin.

**2.** 10.1.1-ci yarımbənd aşağıdakı redaksiyada verilsin:

“10.1.1. şəxsin sosial xidmət müəssisələrini, habelə ümumi təyinatlı internat tipli və internat tipli xüsusi ümumtəhsil məktəblərini tərk etməsi ilə bağlı həmin müəssisələrin arayışı;”.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

№ 68 Bakı şəhəri, 5 fevral 2024-cü il

**Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu il 1 avqust tarixli 338 nömrəli Qərarı ilə təsdiq edilmiş “Nəzarət-kassa aparatlarının istismarı Qaydaları”nda dəyişiklik edilməsi haqqında**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

**1.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu il 1 avqust tarixli 338 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019, № 8, maddə 1445 (Cild I)) ilə təsdiq edilmiş “Nəzarət-kassa aparatlarının istismarı Qaydaları”nda aşağıdakı dəyişikliklər edilsin:

1.1. 1.4-cü bənd üzrə:

1.1.1. 1.4.5-ci yarımbənddən “qeydiyyat və” sözləri çıxarılsın;

1.1.2. 1.4.8-ci yarımbənddə “NKA və” sözləri “NKA-nın zavod nömrəsi və ya seriya nömrəsi, modeli,” sözləri ilə, “, VÖEN, obyektin kodu” sözləri “və qeydiyyat nömrəsi, VÖEN, vergi ödəyicisinin adı, təsərrüfat subyektinin (obyektinin) uçot kodu, təsərrüfat subyektinin (obyektinin) adı” sözləri ilə əvəz edilsin;

1.2. 2-ci hissə üzrə:

1.2.1. 2.1-ci bənddə “modellərinin tətbiqinə icazə verilir” sözləri “modellərindən istifadə olunur” sözləri ilə əvəz edilsin;

1.2.2. 2.9-cu bənd üzrə:

1.2.2.1. “istifadəsi mümkün deyildir” sözləri “istifadəsinə icazə verilmir” sözləri ilə əvəz edilsin;

1.2.2.2. 2.9.8-ci yarımbəndin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz olunsun və aşağıdakı məzmunda 2.9.9-cu və 2.9.10-cu yarımbəndlər əlavə edilsin:

“2.9.9. nəzarət mexanizmi qurğusu olmadıqda və ya onun məlumat saxlama imkanı tükəndikdə;

2.9.10. Komissiya tərəfindən müəyyən edilmiş NKA ilə bağlı texniki tələblər pozulduqda.”;

1.2.3. aşağıdakı məzmunda 2.10-cu bənd əlavə edilsin:

“2.10. Bu Qaydaların 2.9-cu bəndində nəzərdə tutulan hallar aradan qaldırıldıqdan sonra NKA-nın istismarına icazə verilir.”;

1.3. 3-cü hissə üzrə:

1.3.1. 3.1-ci bənd üzrə:

1.3.1.1. 3.1-ci bənd aşağıdakı redaksiyada verilsin:

“3.1. Aşağıdakı tələblərə cavab verən hüquqi şəxs operator kimi qeydiyyatdan keçmək üçün müraciət edə bilər:”;

1.3.1.2. 3.1.2-ci yarımbənddə “1” rəqəmi “12” rəqəmləri ilə əvəz edilsin;

1.3.1.3. 3.1.3-cü yarımbənddə “zəruri avadanlıqlarla təchiz edilmiş ən azı 1 texniki filial və ya məntəqəsi olmalı” sözləri “Bakı şəhərində və digər regionlarda zəruri avadanlıqlarla təchiz edilmiş ümumi sayı ən azı 6 olan servis-texniki filial və ya məntəqəsi olmalı (5 servis-texniki filial və ya məntəqənin Bakı şəhəri istisna olmaqla Azərbaycan Respublikasının müxtəlif regionlarında olması şərtilə)” sözləri ilə əvəz edilsin;

1.3.1.4. 3.1.4-cü yarımbənddə “sənəd” sözü “sənədlər (o cümlədən gömrük bəyannaməsi)” sözləri ilə əvəz edilsin;

1.3.1.5. 3.1.5-ci yarımbəndin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilsin və aşağıdakı məzmunda 3.1.6–3.1.10-cu yarımbəndlər əlavə edilsin:

“3.1.6. fasiləsiz (24/7) fəaliyyət göstərən çağrı mərkəzi olmalı;

3.1.7. proqram təminatlı avadanlıqlara servis-texniki xidmətin göstərilməsi və proqram təminatının işlənib hazırlanması sahəsində 3 (üç) ildən çox təcrübəyə malik olmalı;

3.1.8. son 5 (beş) il ərzində fəaliyyəti olmalı;

3.1.9. ən azı 2000 NKA ilə təmin olunacağı barədə NKA istehsalçısı tərəfindən təqdim olunan sənədi olmalı;

3.1.10. NKA-da istifadəsi nəzərdə tutulan proqram təminatına sahiblik hüququnu və mənbə kodlarının mövcudluğunu təsdiq edən sənədlərə malik olmalı.”;

1.3.2. 3.2-ci bənd üzrə:

1.3.2.1. 3.2-ci bəndin ikinci cümləsində “aşağıdakı sənədləri əlavə edir” sözləri “müvafiq olaraq aşağıdakı sənədlər əlavə edilir” sözləri ilə əvəz edilsin;

1.3.2.2. 3.2.1-ci yarımbənddə “3.1.2-ci və 3.1.4-cü” sözləri “3.1.2-ci, 3.1.4-cü, 3.1.9-cu və 3.1.10-cu” sözləri ilə əvəz edilsin;

1.3.3. 3.3-cü bənddə “2 gün” sözləri “5 iş günü” sözləri ilə əvəz edilsin və “nümunəsinin” sözündən sonra “, NKA-nın texniki sənədlərinin əslinin (sənədlərin əsli xarici dildə olduqda onların Azərbaycan dilinə tərcümə edilmiş və notarial qaydada təsdiqlənmiş surəti), NKA-ya qanunsuz müdaxilələrin qarşısını almaq üçün istifadə edəcəyi nömrələnmiş stiker, plomb və möhür nümunələrinin, eləcə də NKA-ya xidmət edən texniki heyətin imza nümunələri və istifadə etdiyi ştampların nümunələrinin” sözləri əlavə edilsin;

1.3.4. 3.4-cü bəndin birinci cümləsində “15” rəqəmləri “60” rəqəmləri ilə, üçüncü cümləsində “15” rəqəmləri “30” rəqəmləri ilə əvəz edilsin;

1.3.5. 3.7-ci bənd üzrə:

1.3.5.1. 3.7.5-ci yarımbəndə “bəndində” sözündən sonra “və Komissiya tərəfindən müəyyən edilmiş nəzarət-kassa aparatlarının operatorlarına dair funksional tələblər və fəaliyyətinin təşkili üzrə təlimatda” sözləri əlavə edilsin;

1.3.5.2. aşağıdakı məzmunda 3.7.6-1-ci və 3.7.6-2-ci yarımbəndlər əlavə edilsin:

“3.7.6-1. NKA-nın istehsalçıdan əldə edilməməsi, həmçinin NKA-ların ölkəyə gətirilməsini təsdiq edən sənədin olmaması və ya qanunla müəyyən edilmiş qaydada tərtib edilməməsi aşkar edildikdə;

3.7.6-2. Operator tərəfindən dövlət reyestrinə daxil edilən NKA modelləri son 2 il müddətində vergi orqanında heç bir istifadəçinin adına uçota alınmadıqda;”;

1.3.6. 3.9-cu bənddə “3.7.6-cı” sözləri “3.7.6-2-ci” sözləri ilə əvəz edilsin;

1.4. aşağıdakı məzmunda 4.8-ci bənd əlavə edilsin:

“4.8. NKA tətbiq edilməklə aparılan əməliyyatlar üzrə vergi orqanının informasiya sistemlərinə daxil edilən və vergi ödəyicisinin kommersiya sirrini təşkil edən məlumatlar və (və ya) vergi sirri vergi orqanları, onların vəzifəli şəxsləri tərəfindən qanunda nəzərdə tutulmuş hallar istisna olmaqla açıqlanmamalıdır.”;

1.5. 7-ci hissə üzrə:

1.5.1. 7.2.12-ci yarımbənddə “və eyni zamanda” sözləri vergül işarəsi ilə əvəz edilsin;

1.5.2. 7.2.23-cü yarımbənddə “10” rəqəmləri “20” rəqəmləri ilə əvəz edilsin;

1.6. aşağıdakı məzmunda 8.3.16-1-ci yarımbənd əlavə edilsin:

“8.3.16-1. təsərrüfat subyektlərində (obyektlərində) əhali ilə pul hesablaşmalarında, o cümlədən sifarişlərin idarə edilməsi, müştərilərin ödəməli olduğu yekun məbləğin hesablanmasında istifadə edilən və proqram təminatı və ya əməliyyat sistemi ilə təchiz edilmiş istənilən avadanlıq və qurğuların, o cümlədən istənilən xarakterli çap avadanlıqlarının NKA-ya tam inteqrasiya edilməsini təmin etmək;”;

1.7. 9-cu hissə üzrə:

1.7.1. 9.1.1-ci yarımbənddə “müəyyən edir” sözləri “və nəzarət-kassa aparatlarının operatorlarına dair funksional tələblər və fəaliyyətinin təşkili üzrə təlimatı müəyyən edir və onların təkmilləşdirilməsi barədə təkliflərə baxır” sözləri ilə əvəz edilsin;

1.7.2. 9.1.3-cü yarımbəndə “sertifikatlaşdırılmasını” sözündən sonra “, həmçinin müdaxilə nəticəsində NKA modellərinin bu Qaydalarla müəyyən edilmiş meyarlara və Komissiyanın müəyyən etdiyi texniki tələblərə uyğun olmadığı aşkar edildiyi hallarda onların təkrar texniki sınağını” sözləri əlavə edilsin;

1.7.3. 9.1.6-cı yarımbənd aşağıdakı redaksiyada verilsin:

“9.1.6. Operatorun və NKA-nın bu Qaydalar və Komissiya tərəfindən müəyyən edilmiş tələblərə uyğun olub-olmadıqlarının qiymətləndirilməsini həyata keçirir;”;

1.8. 10-cu hissə üzrə:

1.8.1. 10.1.7-ci yarımbəndə “sınağını” sözündən sonra “, həmçinin müdaxilə nəticəsində NKA modellərinin bu Qaydalarla müəyyən edilmiş meyarlara və Komissiyanın müəyyən etdiyi texniki tələblərə uyğun olmadığı aşkar edildiyi hallarda onların təkrar texniki sınağını” sözləri əlavə edilsin;

1.8.2. 10.1.9-cu yarımbənddə “NKA-nın” sözləri “operatorların” sözü ilə əvəz edilsin;

1.8.3. aşağıdakı məzmunda 10.1.14-1-ci və 10.1.14-2-ci yarımbəndlər əlavə edilsin:

“10.1.14-1. Komissiya tərəfindən müəyyən edilmiş nəzarət-kassa aparatlarının operatorlarına dair funksional tələblər və fəaliyyətinin təşkili üzrə təlimatın yerinə yetirilməsini yoxlayır;

10.1.14-2. Operator qismində qeydiyyatdan keçmiş hüquqi şəxsin Operator kimi fəaliyyətini dövri olaraq təhlil edir və bu Qaydalarla müəyyən edilmiş tələblərə uyğunluğunu yoxlayır;”;

1.9. 11.2.1-ci yarımbəndə “15” rəqəmləri “30” rəqəmləri ilə əvəz edilsin.

**2.** Bu Qərarla Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu il 1 avqust tarixli 338 nömrəli Qərarı ilə təsdiq edilmiş “Nəzarət-kassa aparatlarının istismarı Qaydaları”nın 3-cü hissəsində edilmiş dəyişikliklər bu Qərar qüvvəyə mindiyi tarixədək qeydiyyatdan keçmiş operatorlara şamil edilmir.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

№ 71 Bakı şəhəri, 5 fevral 2024-cü il

**“Azərbaycan Respublikası Müdafiə Nazirliyinin hərbi və mülki işçilərinin aylıq vəzifə (tarif) maaşlarının və hərbi qulluqçularının hərbi rütbəyə görə maaşlarının məbləğlərinin təsdiq edilməsi, Azərbaycan Respublikası Nazirlər Kabinetinin “Azərbaycan Respublikası Müdafiə Nazirliyinin hərbi qulluqçularının və mülki işçilərinin vəzifə (tarif) maaşlarının artırılması haqqında” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2004-cü il 21 avqust tarixli 115-12 nömrəli qərarına əlavə edilməsi haqqında” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2006-cı il 14 mart tarixli 73-3 nömrəli qərarına və “Azərbaycan Respublikası Müdafiə Nazirliyinin hərbi qulluqçularının (müddətli həqiqi hərbi xidmət hərbi qulluqçuları istisna olmaqla) və mülki işçilərinin aylıq vəzifə (tarif) maaşlarının məbləğlərinin təsdiq edilməsi haqqında” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2006-cı il 12 sentyabr tarixli 199-20 nömrəli qərarına dəyişikliklər edilməsi haqqında” 2008-ci il 26 yanvar tarixli 16-2 nömrəli, “Azərbaycan Respublikası Müdafiə Nazirliyinin hərbi qulluqçularının və dövlət qulluqçusu olmayan mülki işçilərinin aylıq vəzifə (tarif) maaşlarının məbləğlərinin təsdiq edilməsi və “Azərbaycan Respublikasının Müdafiə Nazirliyinin hərbi qulluqçularının və dövlət qulluqçusu olmayan mülki işçilərinin aylıq vəzifə (tarif) maaşlarının məbləğlərinin təsdiq edilməsi haqqında” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2016-cı il 4 mart tarixli 115-5 nömrəli qərarında dəyişikliklər edilməsi haqqında” 2018-ci il 13 aprel tarixli 148-10 nömrəli qərarlarında dəyişikliklər edilməsi və “Azərbaycan Respublikası Müdafiə Nazirliyinin hərbi qulluq-çularının və dövlət qulluqçusu olmayan mülki işçilərinin aylıq vəzifə (tarif) maaşlarının məbləğlərinin təsdiq edilməsi və “Azərbaycan Respublikası Müdafiə Nazirliyinin hərbi qulluqçularının və dövlət qulluqçusu olmayan mülki işçilərinin aylıq vəzifə (tarif) maaşlarının məbləğlərinin təsdiq edilməsi haqqında” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2016-cı il 4 mart tarixli 115-5 nömrəli qərarında dəyişikliklər edilməsi haqqında” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2018-ci il 13 aprel tarixli 148-10 nömrəli Qərarında dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu il 11 aprel tarixli 154-4 nömrəli Qərarının ləğv edilməsi haqqında” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu il 6 sentyabr tarixli 394 nömrəli Qərarında dəyişiklik edilməsi barədə**

“Azərbaycan Respublikası Müdafiə Nazirliyinin həqiqi hərbi xidmət hərbi qulluqçularının aylıq vəzifə maaşlarının artırılması haqqında” Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 7 noyabr tarixli 2341 nömrəli Fərmanının 2-ci hissəsinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

**1.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu il 6 sentyabr tarixli 394 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019, № 9, maddə 1548 (Cild I); Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2022-ci il 28 yanvar tarixli 32 nömrəli, 15 mart tarixli 86 nömrəli və 8 iyul tarixli 262 nömrəli, 2023-cü il 28 dekabr tarixli 486 nömrəli qərarları) ilə təsdiq edilmiş 1 nömrəli əlavə - “Azərbaycan Respublikası Müdafiə Nazirliyinin hərbi qulluqçularının aylıq vəzifə (tarif) maaşlarının məbləğləri” yeni redaksiyada verilsin (əlavə olunur, məxfi).

**2.** Azərbaycan Respublikasının Maliyyə Nazirliyinə tapşırılsın ki, bu Qərarın icrası ilə əlaqədar tələb olunan əlavə vəsaitin maliyyələşdirilməsini Azərbaycan Respublikasının 2024-cü il dövlət büdcəsində müvafiq məqsədlər üçün nəzərdə tutulmuş vəsaitlər hesabına həyata keçirsin.

**3.** Bu Qərar 2024-cü il yanvarın 1-dən tətbiq edilir.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

Ölkəmizi dünyaya tanıdanlar

# Kosmosun azərbaycanlı əfsanəsi

## Yaxud "Tamamilə məxfi general"

**34 il əvvəlin həmin günlərdə uçan laboratoriyaya çevrilən "Mİ-8" həm də "Naxçıvan-90" aerokosmik eksperimentində iştirak edən jurnalistlərinin müxbir məntəqəsi olmuşdu. Muxtar respublikanın paytaxtından qalxan vertolyotda gizli bir şöhrət zirvəsinə yüksəlmiş soydaşımız – görkəmli alim-konustruktor, sovet kosmik proqramının banilərindən biri, general-leytenant Kərim Kərimov da var idi.**



O, Kərim Kərimov ki, SSRİ Kosmik Uçuşlar üzrə Dövlət Komissiyasının sədri kimi Baykonur kosmodromunda özü foto, kino və videoçəkilişlərə düşməsə də kosmik səfər barədə ona məruzə edirdilər. Uzun illər kosmik gəmilərin ekipajlarını yola salan və qarşılayan, amma şəxsi həyatı gizlində saxlanılan, KİV üçün qapalı persona olan məşhur azərbaycanlı ilə üzbəüz idik. "Azərinform"un (indki AZƏRTAC) şöbə müdiri Natan Barski və "Molodyoj Azerbaydjana" qəzetinin müxbiri Salatın Əsgərovanın addımbaşı verdikləri sualları özü və Kosmik Tədqiqatlar Elm-İstehsal Birliyinin baş direktoru Tofiq İsmayılov (sonra Azərbaycan Respublikasının Dövlət katibi oldu) cavablandırırdı.

İndi mərhum həmkarım "Azərinform"un fotomüxbiri Oktay Bayramovun çəkdiyi fotolar qalsa da, təəssüf ki, haqqında danışdığım o insanların heç biri həyatda yoxdur. SSRİ-nin süqutundan sonra bu dövlətin Kosmik Uçuşlar üzrə Dövlət Komissiyasının sədri olmuş Kərim Kərimovun gizli həyatına da işıq düşdü, onun parlaq bioqrafiyası "azadlığa çıxdı".

1917-ci il noyabrın 14-də Bakıda doğulan Kərim Kərimov Azərbaycan Sənaye İnstitutunda (indiki ADNSU) ali təhsii alıb, sonra Silahların Dövlət Qəbulu Baş İdarəsində xidmətə göndərilib. Sovet – alman müharibəsi illərində "Katyuşa" tipli qurğuların qəbulu ilə məşğul olub. Sonra 20 il SSRİ Müdafiə Nazirliyinin aparatında xidmət edib. Dünyada ilk dəfə insanın kosmosa göndərilməsində xidmətlərinə görə və ilk kosmonavt Yuri Qaqarinin tarixi uçuşu uğurla başa çatdığına görə SSRİ-nin ən yüksək ordeni – "Lenin" ordeni ilə təltif olunub.

1966-cı ildə o, məşhur konstruktor-alim Sergey Korolyovun təkidi ilə Kosmik Uçuşlar üzrə Dövlət Komissiyasının sədri təyin olunub və 25 il bu vəzifədə çalışıb. 1967-ci ilin oktyabrında general-leytenant rütbəsi alıb. Sonra "Soyuz–Apollon" Sovet – Amerika birgə uçuşunun hazırlanmasına rəhbərlik edib və buna görə SSRİ Dövlət mükafatına layiq görülüb.

1987-ci ildə "Mir" orbital kompleksinin işə salınması kimi məsuliyyətli işin öhdəsindən bacarıqla gələn Kərim Kərimova Sosialist Əməyi Qəhrəmanı adı verilib və 2-ci Lenin ordeni ilə təltif edilib. Sonrakı mükafatları sırasında iki "Qırmızı Əmək Bayrağı" ordeni və çoxsaylı medallar da var.

"Naxçıvan-90" aerokosmik eksperimentindən bir il sonra – 1991-ci ildə, 74 yaşında təqaüdə çıxsa da, kosmonavtika ilə əlaqələri kəsilməyib və Uçuşların İdarəetmə Mərkəzində məsləhətçi vəzifəsində çalışıb. Rus kosmonavtikası və raketqayırma sənayesinin inkişafındakı xidmətlərinə görə 2001-ci ildə Prezident Vladimir Putinin fərmanı ilə "Vətən qarşısında xidmətlərə görə" ordeni ilə mükafatlandırılıb.

Uzun illər həyatı və fəaliyyəti cəmiyyətdən gizlədilən generalın Azərbaycanla əlaqələri haqqında ətraflı məlumat olmasa da, bu, onun doğma vətənindən uzaq olması kimi dəyərləndirilmir. Əksinə, bir çox azərbaycanlı alimin kosmik sahədə fəaliyyəti, Azərbaycanda Kosmik Tədqiqatlar İnstitutunun yaradılması və "Naxçıvan-90" aerokosmik eksperimentinin onun rəhbərliyi ilə ölkəmizdə keçirilməsi bu böyük insanın öz Vətəninə bağlılığının kiçik bir göstəricisidir.



– İdeya müəllifi akademik Arif Paşayev olan bu film Kərim Kərimovun ictimaiyyətə təqdimatında böyük rol oynadı, onun uzun illər gizli saxlanılan həyat və fəaliyyətini cəmiyyətə təqdim etdi. Filmin çox gərgin keçən çəkiliş proseslərini uğurla tamamladıq. Biz o dövrdə təkcə Bakı çəkilişləri ilə kifayətlənmədik. Filmin bəzi səhnələri Moskvada, Baykonurda çəkildi. Bu, Kərim müəllimin həyatının önəmli səhnələrinin cərəyan etdiyi məkanlar idi.

Açığını deym, filmin təqdimatları gözlədiyimizdən də möhtəşəm oldu. Bakıda "Nizami" Kino Mərkəzində təşkil edilən, Mədəniyyət və Turizm Nazirliyinin Azərbaycanın Rusiyadakı səfirliyi ilə birgə Moskvada Kosmonavtika Müzeyində keçirdiyi təqdimatlar filmə böyük uğur gətirdi, sənət bayramı oldu. Mərasimlərdə SSRİ kosmonavtikasının banisi Sergey Korolyovun qızı – professor, SSRİ Dövlət mükafatı laureatı Natalya Korolyovanın



Kərim Kərimov Azərbaycan Respublikasının "Şöhrət" ordeni ilə təltif edilib, AMEA-nın fəxri üzvü seçilib. Azərbaycanda onun haqqında rus dilində "Kosmosa gedən yol" avtobioqrafik kitabı nəşr edilib. Ona həsr olunmuş "Tamamilə məxfi general" kitabı da işıq üzü görüb, adına poçt markası buraxılıb. Şöhrəti kosmik ucalıqda dolaşan soydaşımızın həyatı barədə "Yüksəliş" adlı tammetrajlı sənədli film çəkilib.

Xalq artisti, 40-a yaxın sənədli filmin müəllifi və rejissoru olan Vasif Babayevin SSRİ Kosmik Uçuşlar üzrə Dövlət Komissiyasının sədri, general-leytenant Kərim Kərimovdan bəhs edən həmin tammetrajlı filmi onun həyatının çanlı səlnaməsidir. Bu barədə danışan qocaman rejissor deyir:

Kərim Kərimov haqqında xatirələri hədsiz maraqla qarşılandı. Filmin Bakı təqdimatında Rusiyadan gəlmiş kosmonavtlar da iştirak etdilər.

Kosmik aparatların yaradılmasında və SSRİ adlı bir imperiyanın kosmosun fəthi uğrunda həyata keçirdiyi qlobal layihələrə rəhbərlik edən iki məsul şəxsdən biri Sergey Korolyov, digəri isə həmyerlimiz Kərim Kərimov olmuşdur. Film kosmonavtikanın inkişafında əvəzsiz xidmətləri olmuş alim-konstruktor, general-leytenant Kərim Kərimovun xatirəsinə həsr olunan sənət nümunəsidir. Sovet kosmonavtikasının əfsanəsi Kərim Kərimov 2003-cü ildə Moskvada vəfat edib.

***Hazırladı:***
***Namiq QƏDİMOĞLU***
***XQ***

# Ermənistan 1918-ci ildə işğal üzərində qurulub

## İrəvanda bu niyyətlə min bir saxtakarlığa əl atılıb

**II YAZI**

**(Əvvəli qəzetin 6 fevral tarixli nömrəsində)**

Hörmətli oxucular. Ötən yazıda Paşinyanın sülh danışıqlarına Azərbaycanın 86,6 və Ermənistanın 29,8 min kvadratkilometrlik ərazi ilə gedilməsi ilə bağlı bəyan etdiyi fikrin əsassız olduğunu bildirmişdik. Qeyd etmişdik ki, Ermənistanın 1918-1920-ci illərdə mövcud olmuş dövlətinin ərazisi 9 min kvadratkilometr olub və bunu o vaxtkı dövlət adamları yazdıqları əsərlərdə də təsdiq etmişlər.

O dövrə aid xəritələrdə bu dövlətin sərhədləri indiki Ermənistanın sərhədləri deyildir, içi Paşinyan qarışıq bu ölkədə yaxşı bilirlər ki, 20 min kvadratkilometrlik ərazi Ermənistana sonradan verilib. Qoy ermənilər Birinci Ermənistan Respublikasının baş naziri və xarici işlər naziri olmuş Aleksandr Hatisyanın "Ermənistan Respublikasının yaranması və inkişafı" adlı əsərini, o dövrün digər sənədlərini açıb baxsınlar.

Ermənilər bu ərazini genişləndirmək üçün dünyanın müxtəlif mərkəzlərinə baş vurmuşlar, o cümlədən Türkiyənin dövlət adamları ilə əlaqə qurub görüşmüşlər, amma heç bir nəticə əldə olunmayıb. Həmin dövrdə nəşr olunan ermənicə mətbuatda da bu məsələ müzakirə olunub. İrəvanda nəşr olunan "Zang" ("Zəng") qəzetinin 7 avqust 1918 tarixli nömrəsində Ermənistanın İstanbul konfransına gedən nümayəndə heyətinin görüşləri ilə bağlı yazı dərc olunub. Həmin yazını olduğu kimi təqdim edirik:

"İyunun 13-də [1918] Ermənistan Respublikasının sülh nümayəndə heyəti Vehib Paşanın dəvəti ilə tələsik gəmi ilə İstanbula getdi, orada artıq bəzi dövlətlərin nümayəndələri konfransın açılışını gözləyirdilər. Alman gəmisi "General" iyunun 19-da nümayəndələri Konstansa vasitəsilə İstanbula apardı. Osmanlı hökuməti Tokatlıyan otelində erməni heyəti üçün otaqlar hazırlamışdı. Keçmiş Afina səfiri Muxtar bəy nümayəndələri qarşılamağa gəlmişdi. İstanbuldakı erməni nümayəndələr türklərin onlara qarşı münasibətinin əvvəlkindən daha diqqətli və mehriban olduğunu gördülər.

Ermənistan nümayəndə heyətinə aşağıdakı şəxslər daxil edilmişdi: Avetis Aharonyan - sədr, Aleksandr Hatisyan və Mikael Papacanyan - nümayəndələr, Korqanyan - hərbi məsləhətçi, Gevorq Hatisyan - coğrafi - statistik müşaviri və başqaları. Az sonra İstanbula bizim və gürcü nümayəndələrindən başqa azərbaycanlılar və Qafqaz dağlılarından ibarət nümayəndə heyətləri gəldilər. Bu Qafqaz nümayəndələrinin bir-biri ilə nəzakətli və şəxsi səfərlərdən başqa heç bir əlaqəsi və münasibəti yox idi. İstanbulda bir neçə gün qaldıqdan sonra Gegeçkori Berlinə getdi və iyulun 20-də geri dönməli idi.

Nümayəndələrimiz əvvəlcə Tələt Paşanı ziyarət etdilər. Avetis Aharonyan bu fikrin vurğulandığı Batumda (1918-ci il iyun) tez-tez fransızca bəyannaməni oxuyaraq Ermənistanın sərhədlərinin çox dar olduğunu, Qafqazda dinc həyatı və inkişafı təmin edə bilməyəcəyini, ona görə də onların dəyişdirilməsinin zəruri olduğunu deyirdi. Cavabında Tələt Paşa bu fikirlə razılaşdığını bildirdi və dedi ki, heç vaxt ümidsizliyə qapılmaq olmaz.

Tələt Paşadan sonra nümayəndələr Ənvər Paşanı ziyarət etdilər. Ənvər açıq şəkildə qeyd etdi ki, türk nazirlər uzun müddət Ermənistan yaratmaq ideyası üzərində düşünüblər, lakin sonda belə bir qərara gəliblər, çünki bu həm ermənilərə, həm də Türkiyəyə daha



sərfəlidir. Ənvər istəyirdi ki, insanlar Türkiyənin Ermənistanın varlığını təmin etmək üçün səmimi şəkildə fəaliyyət göstərdiyinə inansınlar.

Papanın nümayəndəsi də daxil olmaqla, bütün digər nazirlərə, səfirlərə və neytral dövlətlərin nümayəndələrinə səfərlər edilib, Qarşılıqlı səfərlər də olub". ("ZANG" ("Zəng") qəzeti, 7 avqust 1918-ci il).

Ermənicə mətbuat orqanlarında A.Aharonyanın başçılıq etdiyi erməni nümayəndə heyətinin İstanbulda 3 aydan artıq bir müddətdə qalaraq burada çox sayda görüşlər keçirdiyi barədə də yazılar vardır. Heyət Ermənistanın Batum anlaşması ilə müəyyən olunan 9 min kvadratkilometrlik ərazisini genişləndirməyə çalışırdı.

Osmanlı dövlət böyükləri buna imkan vermədilər. Lakin ermənilərin ərazi iddiaları bitmədi. Osmanlı dövlətinin Birinci Dünya müharibəsində məğlubiyyətini fürsət bilən Ermənistan Batum müqaviləsini pozdu, Qars da daxil olmaqla, bir sıra Şərqi Anadolu ərazilərini Ermənistana birləşdirməyə cəhd etdi. Lakin Mustafa Kamal Atatürkün başçılıq etdiyi Türkiyə Ordusu 1920-ci ildə Ərzurumu, Sarıqamışı, Qarsı azad edərək Gümrü şəhərini də tutdu. Ermənistan kapitulayasiya aktına imza atdı. 1920-ci il dekabrın 2 dən 3-nə keçən gecə Türkiyə ilə Ermənistan arasında sülh müqaviləsi imzalandı. Bu, Ermənistanın ilk kapitulyasiyası idi.

Sanki, tarix təkrar olunur. Düz 100 il sonra Ermənistan yeni bir kapitulyasiya aktına imza atdı. Bu gün hansısa müqavilədən söhbət gedəcəksə, Ermənistana, bu gözlə, yəni məğlub edilmiş bir dövlət gözü ilə baxılmalıdır.

***Qfi ɑ ÇAXMAQLI,***
***Türkiyənin Ərciyəs Universitetinin professoru***

# Füzuli: köçkünlük ağrıları arxada qalıb

**Füzuli rayonunda həyat yenidən canlanır. Yaşayış məntəqələri abadlaşdırılır, bu torpaqların əzəli sahibləri sülh şəraitində əbədi yaşamaq üçün doğma yurdlarına qayıdırlar. Onların mənzil-məişət şəraitinin yaxşılaşdırılması istiqamətində genişmiqyaslı tədbirlər həyata keçirilir. İndiyədək Füzuli şəhərində 527 ailə olmaqla, 1969 nəfərin daimi məskunlaşması təmin edilib.**

Hazırda sakinlərin yaşadıqları mənzillərdə hər cür şərait yaradılıb. Binaların daxili quruluşu, mənzillərin daxili dizaynı, mərtəbəlilik prinsipi, həmçinin binaların bir-birindən aralı olması kimi amillər diqqətdə saxlanılıb. Yəni rahat yaşamaq üçün bütün infrastruktur, şərait var.

Təhsil, səhiyyə, istirahət və digər məsələlərlə bağlı problemlər də həll edilir. Bundan başqa, ərazinin ekoloji tarazlığının bərpasına xüsusi önəm verilir. Məhz bu işlər çərçivəsində Füzuli şəhərində 22,4 hektar sahədə Mərkəzi Parkın salınması ərazidə ekoloji tarazlığın bərpasına ciddi töhfə verməklə yanaşı, Füzuli sakinlərinin, şəhərin qonaqlarının istirahəti üçün ən gözəl məkanlardan birinə çevriləcək. Ekoloji turizmin stimullaşdırılması ilə yanaşı, bioloji müxtəlifliyin qorunub saxlanılmasında mühüm rol oynayacaq.

Hazırda Qarabağ Dirçəliş Fondunun sifarişi əsasında Füzuli şəhərində salınacaq Mərkəzi Parkın ərazisinin tikili qalıqlarından və digər tullantılardan təmizlənməsi və ərazinin müvəqqəti hasara alınması işləri davam etdirilir. Görülən işlər zamanı ərazidə mövcud olan ağacların qorunmasına da xüsusi diqqət yetirilir. Belə ki, "Yaşıllıqların mühafizəsi haqqında" qanunun tələblərinə uyğun olaraq Ekologiya və Təbii Sərvətlər Nazirliyi tərəfindən parkın salınacağı ərazidə monitorinq keçirilib. Monitorinqin nəticəsi ilə bağlı verilən müvafiq rəyə uyğun olaraq Qarabağ Dirçəliş Fondunun təşəbbüsü ilə qurumun əməkdaşlarının, parkın tikintisi üçün layihə-smeta sənədlərini hazırlayan "By Medgalchi" şirkətinin cəlb etdiyi ekspertlərin və təmizlik işlərinin icraçısı olan "RAMCO" QSC şirkətinin müvafiq nümayəndələrinin iştirakı ilə ərazidə aparılan növbəti monitorinqlər zamanı saxlanılması tələb olunan 80-dən çox ağac müəyyənləşdirilib və onların qorunması üçün müvafiq işlər görülüb. Ərazidə olan dağdağan, göyrüş, zoğal, fındıq, sofora, ağcaqayın, qoz, o cümlədən Azərbaycan Respublikasının "Qırmızı Kitab"ına düşmüş Şərq çinarı, əncir və nar ağacları xüsusi nəzarətə götürülərək işarələndikdən



sonra ətrafı hasara alınıb və onlara zəruri aqrotexniki qulluğun göstərilməsi qərara alınıb. Eyni zamanda, parkda ərazinin relyefinə və ekoloji mühitinə uyğun olaraq eldar şamı, şərq çinarı, leylandi, italyan şamı, ağcaqayın, söyüd, zeytun və s. kimi ağac növlərinin, həmçinin müxtəlif dekorativ kolların və çiçəklərin əkilməsi nəzərdə tutulur.

Park şəhər sakinlərinin asudə vaxtlarının səmərəli keçirilməsinə imkan yaradan məkana çevrilməklə yanaşı, sağlam və təbii ekoloji mühitin yaranmasına və qorunub saxlanmasına da şərait yaradacaq. Bu barədə Qarabağ Dirçəliş Fondunun İdarə Heyətinin sədri Rəhman Hacıyev bildirib ki, Füzuli Mərkəzi Parkının konsept-layihəsi Prezident İlham Əliyevin və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın tapşırıq və tövsiyələri nəzərə alınmaqla hazırlanıb. Parkın salınması ərazidə ekoloji tarazlığın bərpasına ciddi töhfə verməklə yanaşı, həm Füzuli sakinlərinin, həm də şəhərin qonaqlarının istirahəti üçün ən gözəl məkanlardan birinə çevriləcək.

Parkın salınması zamanı nəzərə alınacaq müasirliyin və milli-mədəni irsin vəhdəti Füzuli şəhərinin daha da gözəlləşməsinə xidmət etməklə yanaşı, bölgənin ekoloji tarazlığının bərpasına da böyük töhfə verəcək. Burada istirahət zonaları, multifunksional açıq yaşıllıq sahələri, iaşə zonaları, piknik və idman məqsədilə istifadə ediləcək zonalar, qaçış üçün cığırlar, velosiped yolları, amfiteatr, kafe-restoranlar və digər obyektlərin yaradılması nəzərdə tutulub. Fiziki imkanları məhdud olan insanlar, uşaqlar və yaşlı insanlar üçün rahat şəraitin yaradılması nəzərdə tutulub. Qeyd olunan məsələ ilə bağlı beynəlxalq qabaqcıl təcrübədən istifadə olunub.

Parkın ərazisindəki giriş və çıxışlarda məlumat lövhələrinin quraşdırılması, pandusların düzgün nəzərə alınması, sanitar qovşaqlarının əlçatan olması, uşaqlar üçün qum meydançalarının yaradılması, Füzuli rayonunun və Qarabağın tarixini əks etdirən məlumat lövhələri və qapalı əyləncə məkanlarının tikintisi də nəzərdə tutulur.

Qeyd edək ki, Böyük Qayıdış Proqramımızın birinci mərhələsinin sonunda – 2026-cı ildə 22 min insan Füzuli rayonunda yaşayacaq. 2040-ci ilədək Füzuli şəhərində 50 min vətəndaşımızın məskunlaşacağı gözlənilir. Əhali sayı 1993-cü il ilə müqayisədə 2.5 dəfə artacaq. Mərkəzi parkın yaradılması şəhər sakinlərinin asudə vaxtlarının səmərəli keçirilməsinə imkan yaradan məkana çevrilməklə yanaşı, sağlam və təbii ekoloji mühitin yaranmasına və qorunub saxlanmasına da şərait yaradacaqdır.

***Pünhan ƏFƏNDİYEV***
***XQ***

**Füzuli**

Dünya ədəbiyyatının şah əsərləri

# “Qara kitab”da düşüncə zəlzələsi

## *Türk insanının modern dastanı*

**Bütün yaxşı yazıçılar kimi, Nobel mükafatı laureatı Orxan Pamukun da uğuru sadə bir hekayə anlatdığını zənn etdiyiniz zaman qəfildən oxucunu mürəkkəb, xaotik situasiyalara çəkməsindədir. “Qara kitab” romanı məhz belə əsərlərdəndir.**

Bu əsər, sanki, bir-birilə daban-dabana zidd düşüncədə olan iki fərqli oxucu üçün yazılıb. Üst qatdakı sadəliyi tutub gedən oxucu ilə alt qatları fəhm edən oxucu bir müstəvidə qarşılaşır; romanın strukturu istənilən situasiyada hər iki oxucunu məmnun etmək üçün qurulmuş bir oyuna bənzəyir.

Romanın qəhrəmanı Qalib bir qış günü itkin düşmüş həyat yoldaşı Röyanı İstanbulun qaranlıq, qarlı küçələrində axtarmağa başlayır. Bütün səyləri nəticəsiz qalır. Bir müddət sonra ona yardım edəcək əsl işarələrin qohumu Cəlal Salikin köşə yazılarında gizləndiyini zənn edir və izləri burada axtarır. Bu yazılarda Röyanın izi-tozu belə yoxdur. Bəs Qalib bu yazıların hansı köşəsində Röyanın nəfəsini sezir? Pamukun bənzərsiz üslubu oxucunu da tələyə salır, o da bu axtarışa qoşulur. Cəlal Salikin təsvir etdiyi gecəqonduların, siyasi cinayətlər, çevrilişlərlə kölgələnmiş ölkənin hansı bucağındadır Röya?

Beləcə, Orxan Pamukun özünün də zövq aldığı bu oyuna oxucunu da qoşur. İşin qəribə tərəfi isə budur ki, Cəlal da Röya itən gün ortalıqdan qeyb olub. Qalibin yol işarələri təkcə Cəlalın köşə yazılarından ibarət deyil. Yaddaş – bir zamanlar dərinlərə gömülmüş hafizə də Qalibin köməyinə gəlir. Bu axtarış macərası təsiredici cümlələrlə davam edir:

“Birlikdə getdiyimiz bir qonaqlıqda, ağır havası siqaret dumanıyla maviləşmiş otaqda səndən üç addım o yanda oturan bir nəqledicinin hekayəsini diqqətlə dinləyərkən gecənin bir yarısı o “mən burada deyiləm” ifadəsi ağır-ağır üzündən oxunanda səni sevirdim. ...Siqaret kötükləri ilə dolub-daşan külqabıya, qara başlarını ümidsizcəsinə yana bükmüş kibrit çöplərinə baxarkən kədərli düşüncələrin məni özümdən alıb, kim bilir, haralara apardığı zaman səni sevirdim”.

Buna bənzər müdhiş lirik ayrıntılarla nəql olunan itkin sevgili mövzusu, əlbəttə, yeni söhbət deyil. Ədəbiyyat tarixində bunun saysız örnəkləri var. Amma Pamukun bu mövzunu özündən əvvəlki yazıçılardan daha fərqli bir niyyətlə, dərində gizlənən başqa bir mətləb üçün istifadə etdiyini anlayırıq. Bir köşə yazısı ilə Qalibin axtarış macərası paralel şəkildə irəliləyir və əsərin üzdə görünən strukturu beləcə tamamlanmış olur. Ancaq bir müddət sonra vəziyyət getdikcə mürəkkəbləşir. “Qara kitab” tədricən axtarış və yol romanı çərçivəsindən çıxaraq bambaşqa bir mövzuya fokuslanır. Pamukun qeyri-adi manevrləri bir anlıq oxucunu çaşdırır. Cümlələri oxuyarkən qəfildən fərqinə varırsan ki, əslində, Qalibin öz arvadını axtarması artıq şəxsi məsələlikdən çıxır və bir xalqın özünü axtarması prosesi başlayır.

“Qara kitab”ın bir roman olaraq gücü məhz bu məqamda üzə çıxır. Bilmirəm, oxucu bu sirrə hansı məqamda vaqif olur, mən bunu bədii sənət ustasının düzəltdiyi manekenlərin vitrinə çıxmaq üçün dəhlizlərə düzüldüyü səhnədə fəhm etdim. Usta düzəltdiyi manekenlərin bir gün vitrinə çıxacağına inanır. Lakin onun gözləntiləri heç zaman reallaşmır. Oğlu




düşünür ki, “atam bir gün insanlarımızın bir-birini təqlid etməyəcək qədər xoşbəxt ola biləcəyinə ümidini kəsmədi”. İnsanlar özü ola bilmir, sanki hamısı yapma firuqlardır. Bəs, özümüzü necə, nə zaman tapacağıq? Orxan Pamuk oxucunu upuzun bir yola çıxarır – İstanbulun qaranlıq, kimsəsiz küçələrindən keçirib bu sirli mətnin içində dolaşdırır. Tap özünü görüm, necə tapırsan!

Üzünü hansı səmtə (Qərbə, yoxsa Şərqə) döndərməyə qərar verə bilməyən insanın – toplumun mənəvi böhranı... Əslində, yazıçının bütün əsərlərində ideoloji seçim qarşısında qalmış insanların taleləri təsvir edilir. “Qara kitab” isə insan düşüncəsində daha dərin özüllər atır. Oxucunun zehnində sual işarələri çoxalır, cavablar isə alt qatdadır. Bunun üçün bir düşüncə zəlzələsi lazımdır. “Qara kitab” oxucunun beynində o “zəlzələ”ni yarada bilir. Orxan Pamuk dünya ədəbiyyatının müxtəlif əsərlərinə göndərmələr edərək, bu böhranı daha geniş bir məkanda göstərməyi bacarır. “Məsnəvi”dən “Məntiqüt-teyr”ə, “Hüsnü-eşq”dən “Min bir gecə nağılları”na, Dostoyevskidən Prusta, Coysa qədər mənəvi əraziləri dolaşıb sonda türk insanının özünü tapması üçün yol işarələri yaradır. “Qara kitab” türk insanının modern dastanıdır.

***Kənan HACI,***
***yazıçı-publisist***

İnanclarımız

# Dağdağan – qadaboğan

**Ona hər yerdə rast gəlmək olur: yolların kənarında, çayların qırağında, dərələrdə, yamaclarda da, hətta qayanın qaşında. Hətta sal daşı yarıb çıxdığı da olur. Adından da göründüyü kimi, dağdağan, əsasən, dağlıq bölgələrdə bitir.**

Sağlam və bərk gövdəsi, cod yarpaqları, nazik qabıqlı meyvələri olur. Ağacın qol-budağı qırılanda tez qaynayıb bitişir. Dağdağanın kökləri çox dərinə getdiyindən quraq yerlərdə uzun müddət susuz yaşaya bilir. Yarpaqları ağzı daladığından heyvanlar onu yemir. Dağdağan qədimdən el arasında müqəddəs sayılır, onu kəsmək, yaralamaq günah hesab edilir. Dağdağana xalq arasında qadaboğan da deyilir.

Qədim bir rəvayətdə deyilir ki, kənddə bədnəzərliyi ilə ad çıxaran bir kişi varmış. Onun nəzərindən hələm-hələm heç nə yayınmazmış, gözü sataşdığı daş da çatlarmış. Bir gün kişi kənddə cütə qoşulan kök öküzə “nəzər salır” və güman edir ki, öküz partlamaya düşüb canını tapşıracaq. Oğlunu öküz sahibinin evinə göndərir ki, tələf olan heyvanın ətindən onlara da alıb gətirsin. Uşaq evə əliboş qayıdır. Atası oğlundan nə üçün ət almadığını soruşanda deyir: öküzün boyunduruğu dağdağandan imiş...

Bu əhvalatdan da göründüyü kimi, dağdağan bəd nəzər, yaman göz və sədəmədən qoruyan ən sınanmış bitki hesab olunur. Onu tez-tez göz dəyən uşağın beləyindən, kənd yerlərində heyvanın boğazından və həyət darvazasının girişindən asırlar. İllərin sınağından çıxmış inama görə, dağdağanda bəd nəzərdən qoruma xüsusiyyəti var. Hətta bəzi yerlərdə onu ocaq, pir kimi qəbul edərək budaqlarına müxtəlif parça və kəndir bağlayıb niyyət edərlər. Kənd yerlərində dağdağanın iri qanadlarından beşik asar, budaqlarından təsbeh və uşaqların boğazından asmaq üçün muncuq düzəldirlər. Qədim zamanlarda öküzü cütə qoşmaq üşün boyunduruğunu dağdağandan düzəldərdilər. Belə istifadə üçün ağacın kəsilməsi günah sayılmazdı.

Dağdağan ağacının qəribə xüsusiyyəti var, yaş vaxtı kövrək olduğundan onun budaqlarından səbət və cəvəran toxuyurlar. Çox vaxt üzüm tingini də dağdağan ağacının üstünə çıxarırlar. Ağacın sıx yarpaqları olduğuna görə kölgəsi qalın olur və günəş şüalarını buraxmır. Görünür, elə bu keyfiyyətinə görə mal-qara



çox isti havalarda dağdağan ağacının kölgəsinə sığınır.

Ağzının dadını bilən kəs payıza dönəndə dağdağanın üstü qabıqla örtülü kiçik, amma çox dadlı meyvəsindən doymaz. Kənd uşaqları onu yığıb ciblərinə doldurar və tum kimi ağızlarına atıb yeyərlər. Meyvələri hətta üstünə qar düşənədək ağacda qalır. Yerə töküləndə toyuq-cücə onunla yem kimi qidalanır. Dağdağanın budaq, yarpaq və meyvələri müalicəvi əhəmiyyətə malikdir. Ayaq tərləməsi, yaraların sağalması, böyrək qumlarının tökülməsi, mədə ağrıları və öskürəyin kəsilməsi üçün dağdağandan istifadə edilir.

Bütün bunlardan üstünü isə onun müqəddəs sayılması, insanı bəd nəzərdən qoruması, dərman bitkisi kimi azar-bezara əlac olmasıdır.

***Süleyman HACIYEV***

Vida sözü

# BİR ULDUZ DA SÖNDÜ...

## Tanınmış baletmeyster, Xalq artisti Rəfiqə Axundova xatirələrə köçdü

**...8 il öncə “Nizami” Kino Mərkəzində Xalq artistləri – Rəfiqə Axundova ilə həyat yoldaşı Maqsud Məmmədovun həyat və yaradıcılığına həsr olunmuş “Balet mənim həyatımdır” sənədli filminin təqdimatı idi. Ekran işi böyük marağa səbəb oldu. Azərbaycanın və Rusiyanın ünlü mədəniyyət və incəsənət xadimlərinin yaşı 75-dən yuxarı olan Rəfiqə xanımla Maqsud bəy haqqında fikirlərini bölüşdükləri film əsl sənədli salnamə idi. Hər ikisinin təbəssümlü baxlışları üzlərindəki qırışları silib aparmışdı.**

Filmdə müsahibəsi yer alan tanınmış rus baletmeysteri, xoreoqraf, teatr rejissoru, aktyor və rəssam, SSRİ Xalq artisti Vladimir Vasilyev də premyeraya görə Bakıya gəlmişdi. Möhtərəm qonaq leytmotivini həyatda və yaradıcılıqdakı məhəbbət mövzusu təşkil edən filmə baxdıqdan sonra təəssüratı ilə bağlı suala razılıqla: “Həqiqətən də, incəsənət adamları hər bir dövlətin milli sərvətidir”, – deyə cavab vermişdi.



Həmin vaxt Bakıda olan daha bir məşhur xoreoqraf – Litvanın Əməkdar artisti Petras Skirmantas isə demişdi ki, Azərbaycan Qəmər Almaszadə, Leyla Vəkilova, Tamilla Şirəliyeva ilə bərabər, Rəfiqə Axundova və Maqsud Məmmədov kimi görkəmli sənətçiləri ilə fəxr etməkdə haqlıdır.

Xatırladaq ki, həmin filmdən bir neçə



il sonra hər iki sənətkar Azərbaycan mədəniyyətinin inkişafında xidmətlərinə görə “Şöhrət” ordeni ilə təltif edilib. Ümumiyyətlə, onların sevgi dolu həyatını bir növ elə “Məhəbbət əfsanəsi” də adlandıra bilərik. Çünki Nazim Hikmətin eyni adlı pyesinə Arif Məlikovun yazdığı və Rəfiqə xanımın Şirin, Maqsud bəyin isə Fərhad obrazlarını canlandırdıqları bu balet əsl məhəbbətə, onun əbədiliyinə himn kimi səslənir.

Rəfiqə Axundova 1931-ci il avqustun 7-də dünyaya gəlib, 20 yaşında Bakı Xoreoqrafiya Məktəbini bitirib. Moskvada, Böyük Teatrda təkmilləşmə kursu keçdikdən sonra düz 20 il Azərbaycan Opera və Balet Teatrının solisti olub. 1971-ci ildən isə həmin teatrın baletmeysteri, ardınca baş baletmeysteri olub. Ayişə və Gözəllər gözəli, Fanni (“Yeddi gözəl”, “İldırımlı yollarla”, Q.Qarayev), Gülşən (“Gülşən”, S.Hacıbəyov), Gülyanaq (“Qız qalası”, Ə.Bədəlbəyli), Zarema (“Baxçasaray fontanı”, B.Asafyev), Jizel (“Jizel”, A.Adan) və s. obrazları özünəməxsus ustalıq və məharətlə yaradıb. Baletlərdəki performansı o qədər fərqli və təsiredici olub ki, hətta həyatda ona Şirin, Aişə, Gözəllər gözəli, Fanni deyiblər.



Ömür-gün yoldaşı Maqsud Məmmədovla birlikdə Azərbaycan Opera və Balet Teatrında “Xəzər balladası” (T.Bakıxanov), “Qobustan kölgələri” (F.Qarayev), “Yallı” və “Azərbaycan süitası” (R.Hacıyev), “İldırımlı yollarla” və “Yeddi gözəl” (Q.Qarayev), “Babək” (A.Əlizadə), “Şelkunçik” (P.Çaykovski), habelə Novosibirsk Opera və Balet Teatrında “İldırımlı yollarla” baletlərinin quruluşunu verib.

O, Əlcəzair, İsveç, Misir və Belçikada da pedaqoq-baletmeyster işləyib. Əlcəzairdə “Üç inqilab” ilk milli baletini, Malmödə “Muğam” musiqili xoreoqrafiya lövhəsini, Qahirədə “Yeddi gözəl”, Antverpendə “Kaleydoskop” baletlərini (hər ikisi Maqsud Məmmədovla birlikdə) tamaşaya qoyub. “Xəzər balladası”, “Qobustan kölgələri” və “Azərbaycan süitası” 1969-cu ildə 7-ci Beynəlxalq rəqs festivalında Paris Rəqs Akademiyasının diplomuna layiq görülüb. 1994-cü ildə yenə də Rəfiqə xanım Maqsud müəllimlə birgə “Yeddi gözəl” baletini Ankarada uğurla tamaşaya qoyub.

Rəfiqə Axundovanın balerina kimi çıxışları, xoreoqraf kimi quruluşları ən nüfuzlu teatr səhnələrini bəzəyib, onu dünyada tanıdıb və sevdirib. Onun haqqında SSRİ xalq artistləri Yuri Qriqoroviç, Vladimir Vasilyev, Mixail Lavrovski, Vyaçeslav Qordeyev, SSRİ xalq rəssamı Tahir Salahov, SSRİ xalq artisti, opera müğənnisi Fidan Qasımova, Azərbaycanın xalq yazıçısı Anar, xalq artisti, dirijor Rauf Abdullayev, əməkdar incəsənət xadimi Fərəc Qarayev və başqaları yüksək fikirlər söyləyiblər...

Xoreoqrafiyamızın sönməz ulduzu 93 yaşında fani dünyanı tərk edib əbədiyyətə qovuşdu. Amma sənətinin ucalığına şahidlik edənlərin gözündə hər zaman zirvə olaraq qalacaq.

***

Mərhum sənətçi ilə əvvəlcə Təzə Pir məscidində vida mərasimi keçirilib. Mərasimdə rəsmi şəxslər, mərhumun ailəsi, yaxınları və sənət dostları iştirak edib.Vida mərasiminin ardınca cənazə İkinci Fəxri xiyabana aparılaraq torpağa tapşırılıb.

Dəfn mərasiminə ölkə rəhbərliyi adından əklil göndərilib.

***Əli NƏCƏFXANLI***
***XQ***

# “Buta hara, erməni hara?

## *Amma butalı xalçalarımızı xarici bazarlarda erməni işbazları satırlar*

**...Qonşumuz İsagilin evində taxtın üstünə atılmış nimdaş xalçanı kəndimizə gələn erməni alıcılardan birinin gözü yaman tutmuşdu. O, bəzi yerləri sökülmüş, rəngi solmuş və elə də böyük olmayan xalçanı təzə, müxtəlif ölçülü fabrik istehsalı olan xalçalarla dəyişməyi təklif edirdi. Rədd cavabı alsa da, əl çəkmir, daha şirnikləndirici təkliflər verirdi. Sonda tərəflər nimdaş xalçanı 2 İran xalçası ilə dəyişməyə razılaşdılar.**

Əslində, bu, maddi dəyəri olan Qazax xalçaçılıq məktəbinə aid Borçalı xalçası – tariximizin, mədəniyyətimizin bir parçası idi, nənələrmiş toxumuşdular. Aydındır ki, alıcı onu divardan asmaq üçün almırdı, baha qiymətə sataraq dəfələrlə çox gəlir götürəcəyinə əmin idi.

Bu hadisə ötən əsrin 70-ci illərində Arıxlı kəndində baş vermişdi. Orada ən çox farmaş (məfrəş), xurcun, heybə, yəhərüstü, həsir, palaz, kilim toxuyardılar. Bu ən çox kənd sakinlərinin yaylaq köçü ilə bağlı idi. Bizim evdə də fərməş vardı. Dağa köç vaxtı Nigar nənəm ona yorğan-döşək yığardı. Rəngi solmuş kilimi, palazı, parlaq rəngli iki gözdən ibarət olan xurcunu indi də xatırlayıram. Kilim və palaz, adətən, dəyə qurulduqdan sonra taxtın üstünə sərilərdi. Kənddə də bunlar eyni məqsədə xidmət edirdi.

Qonşumuz Çayçı Qulunun evində hana qurulub xalça toxunmasını görmüşdüm. Gülxanım arvad öz qızları üçün cehizlik xalçalar toxuyardı. Ona qadınlar yaxından köməklik göstərirdilər. Hürü



nənəmin də yaxşı xalça toxumağı vardı. Onun dədə yurdu Kosalarda həmişə peşəkar xalçaçılar olub. Bu gün nənələrimizin uzun illər göz nuru ilə toxuduqları xalçalardan çox az sayda qalıb. Çünki ötən əsrin 90-cı illərində maddi sərvətlərimizin ucuz qiymətə alınaraq xarici bazarlara çıxarılması intensivləşmişdi.

Beləliklə, Azərbaycan, o cümlədən Qazax–Borçalı xalçaları uzun illər xarici bazarlara daşındı. Yaxşı nəyimiz vardısa, ermənilər ucuz alıb baha, həm də öz adlarından satdılar. Talançıların arasında bizim özümüzünkülər də vardı və onlar üçün maddi maraqlar milli-mənəvi dəyərlərdən irəli idi. Gec ayıldıq... Xalçalarımızın bir hissəsi xarici bazarlarda erməni işbazlarına milyonlar qazandırdı.

“Vikipediya”da erməni xalça tarixinin “qədim kökləri” olduğu göstərilib. Burada erməni xalçalarının füsunkar ornament və ilmələrindən danışılır. Şəkillərdə isə Qarabağ, Qazax–Borçalı, Naxçıvan, hətta Təbriz xalçaları erməni sənət nümunələri kimi göstərilir. Bu cür təxribatlara dünyanın müxtəlif özəl muzeylərində də rast gəlinir.

**Tez-tez xarici səfərdə olan həmkəndlim Eldar İdrisov deyir:**

– Varşavada xalça muzeyinə getmişdim. Erməni əsilli isveçrəlinin (onun həyat yoldaşı polyak olub) kolleksiyası əsasında yaradılmış muzeydə Azərbaycana məxsus xalçalar da vardı. Forma zənginliyinə, rənglərin əlvanlığına (al-qırmızı, palıdı, qızılı, sarı, çəhrayı rənglər) və yüksək fantaziyalarına görə fərqlənən Qarabağ xalçaları erməni malları kimi təqdim olunurdu. Muzey əməkdaşına Qullabı ilmə üsulu ilə toxunan iriölçülü həndəsi göllər, nəbati naxışlarla zəngin olan bu xalçaların Azərbaycanın Qarabağ xalçaçılıq məktəbinə aid olduğunu bildirəndə sözlərimi təəccüblə qarşıladı. Bildirdim ki, ermənilərin xalçaçılıq sənəti olmayıb. Onların əsas hissəsi Qarabağa, Borçalıya XIX əsrdə köçüb.

İlk dövrdə ermənilər azərbaycanlılara xalça üçün sifarişlər veriblər. Bəzən isə xalçada erməni hərflərinin, xaçların toxunmasını xahiş ediblər. Tədricən onlar azərbaycanlılardan xalça toxumağı da öyrəniblər. Bu gün erməni qadınlarının toxuduğu xalçalardakı ilmələr türk ilmələridir. Yaşları da o qədər çox deyil. Muzeydə Qazax–Borçalı, Bakı xalçaları da vardı. Qarabağ xalçalarına nisbətən ilmələri daha sıx vurulmuş Bakı xalçalarında dəvə, buta, dördbucaqlı göllər üstünlük təşkil edirdi. Qeyd etdim ki, buta Azərbaycan ornament sənətinin çox yayılmış bəzək elementlərindən biridir. Butanın ermənilərə heç bir aidiyyəti yoxdur.

Borçalı xalçasını görən kimi isə ürəyim şiddətlə döyünməyə başladı. Fikirləşdim ki, erməni malı kimi təqdim olunan bu xalça, bəlkə, elə bizim Arıxlıda toxunub, hansı yollasa xarici bazara çıxarılıb və bu gün özəl muzeydə nümayiş olunur. özü də oğurluğu man bilməyən millətin, adı ilə. Mənim üçün çox ağır idi.

**Eldar İdrisov daha sonra bildirdi ki, xalçalarla bağlı kataloqlarda kolleksiya**



**sahiblərinin əksəriyyəti ermənilərdir.** “Onlar dünyanın müxtəlif ölkələrinə səpələniblər və kolleksiyalarında, əsasən, Azərbaycan xalçaları toplanıb. Çox vaxt da bu xalçaları utanıb çəkinmədən erməni xalçaları kimi sərgiləyirlər. Dəfələrlə bunun şahidi olmuşuq. Belə neqativ halların qarşısı vaxtında alınmalıdır”.

**Bəli, vaxtında alınmalıdır. Çünki mədəniyyətimizin bir parçasıdır. Bu gün Borçalı xalçalarına xarici bazarlarda böyük maraq var; məsələn, 2011-ci il martın 22-də almaniyalı kolleksiyaçı tərəfindən “Nagel” hərracına çıxarılan 1.63x2.18 ölçülü “Qaraçöp” xalçası (XIX əsr) 56 min 650 ABŞ dollarına satılıb. Müxtəlif illərdə daha baha satılan xalçalarımız da olub. Beləcə, maddi-mədəniyyət irsimiz talan olunub.**

***P.ƏFƏNDİ***
***XQ***

Beynəlxalq həyat

# Fransanın müstəmləkəçilik marafonunun sonu çatır

**Parisin "soyuq müharibə" dövründə təxirə saldığı zəruri dəyişikliklər, nəhayət, üç onillikdən sonra öz boğazına çökməkdədir. Keçmiş Qərbi Fransa Afrikası "Köhnə qitə"dən kənarda yeni müttəfiqlər axtarır. Bu axtarışlar həm də Fransanın əsrlərlə davam edən əsarətindən qurtulmaq üçün baş verən hərbi çevrilişlərlə müşahidə edilir. Mali, Çad, Burkino-Faso, Niger, Qabon – müvafiq olaraq 2021, 2021, 2022, 2023 və 2023-cü illərdə baş verən çevrilişlər. Bu hadisələr aydın şəkildə göstərdi ki, Fransanın, bəzi Qərb dövlətləri kimi Afrikada öz mövqeyini qoruyub saxlamaq üçün nəinki hazır resepti, əslində heç zərrə qədər haqqı belə qalmayıb.**

Aparıcı Qərb ölkələrinin kolonial surətdə istismar etdikləri Afrikada düşdükləri qeyri-müəyyən vəziyyət onların inkişaf etməkdə olan ölkələrlə bağlı siyasətinin ənənəvi təsir alətlərinin tam tükəndiyini nümayiş etdirir. Fransanın bu regionda postkolonial təsir sisteminin






dərin böhran içində olduğu ortadadır. Çünki Paris başqa Qərb müstəmləkəçiləri ilə müqayisədə Afrikada çox uzun müddətə qaldı və bunun da səbəbləri aydındır.

Avropa müstəmləkə imperiyaları içərisində yeganə ölkə Fransadır ki, Afrika və Asiya xalqlarını qarət etməklə böyük sərvətlərə sahib olsa da, o məkandan ayrıldıqdan sonra belə, regionda təkcə iqtisadi məsələlərə deyil, həm də yeni suveren dövlətlərin inkişafının əsas məsələlərinə təsir imkanlarına malik siyasi infrastrukturunu yarada bilib. Regionun aparıcı beynəlxalq təşkilatları olan Qərbi Afrika Ölkələrinin İqtisadi (ECOWAS) və ya Qərbi Afrika İqtisadi və Valyuta birliklərinin müxtəlif vaxtlarda məhz Fransanın dəstəyi ilə yaradılması faktdır və bu təşkilatlar bu gün də Parisin himayəsi altında çalışırlar.

Bununla yanaşı regionun bir sıra ölkələrində, o cümlədən Seneqal, Qabon, Çad, Kot-d'İvuar və Nigerdə Fransanın mövcudluğu hərbi bazaların və heyətlərin yerləşdirilməsi ilə təsdiqlənir. Ümumiyyətlə, bölgənin son 40-50 illik tarixindən keçmiş metropolun birbaşa hərbi müdaxiləsinə dair çoxlu nümunələr gətirmək olar.

Bu işdə Paris həmişə müstəmləkəçilik "tort"unun ən ləzzətli tikəsini avropalıların əlindən almağa çalışsa belə, bəzi hallarda özünün Avropa "əlaltılarına" birbaşa zorakılığın həyata keçirilməsini həvalə edən ABŞ-ın dəstəyindən istifadə edib. Paris 1960-cı illərin ortalarından başlayaraq, bu rolu kifayət qədər uğurla oynayır və müasir iqtisadiyyat üçün çox zəruri olan təbii ehtiyatlara inhisarçılıqdan əhəmiyyətli iqtisadi faydalar əldə edir. Məsələn, ikinci Avropa nəhəngi Almaniyanın xeyli pula almalı olduğu xammalı Fransa Afrikadan, demək olar ki, qəpik-quruşa çəkib aparır.

### Fransa müstəmləkəçiliyinin monitar silahı

Çox maraqlı məqamlardan biri də budur ki, əvvəldə qeyd etdiyimiz dövlət çevrilişləri, valyuta sistemləri məhz Parisin nəzarətində olan Afrika ölkələrində – Mali, Çad, Burkina-Faso, Niger, Qabonda baş verib. Coğrafi yaxınlıqdan əlavə, bu ölkələri zəngin fransız dili, vahid müstəmləkə imperiyasının bir hissəsi kimi keçmiş və hazırkı mövcudluğunun "yadigarı" olan CFA frank pul sistemi birləşdirir. Afrika və Asiyanın başqa yerlərində belə bir şey yoxdur: müstəqil ölkələr altı onillikdir ki, öz pullarını çap etmək, lazım gələrsə, onu devalvasiya etmək imkanından məhrum olublar və öz monitar siyasətlərini həyata keçirmək üçün bilavasitə Avropa Mərkəzi Bankından asılıdır. Parisin əlində müstəmləkəçiliyin əsas silahlarından biri də məhz budur.

Necə ola bilər ki, müstəqil ölkə olduğunu elan edəsən, amma öz valyutan olmasın? Belə olan halda müstəqilliyini necə qoruyub saxlayacaqsan? Nəzəri cəhətdən bu mümkündür. Bəli, vahid pul sistemindən istifadə edən avrozona ölkələri bir-biri ilə güzəştə getməyə məcburdur. Ancaq Avropada güzəştlər varlı ölkələrin daha kasıblara yardımı ilə kompensasiya edilir, CFA frank zonalarında isə belə bir mexanizm tətbiq edilmir. 14 ölkənin valyutası avroya ciddi şəkildə bağlıdır, inflyasiya dərəcələri xaricdən göstərişlərlə müəyyən edilir və milli pul ehtiyatlarının bir hissəsi yerləşdirilmək üçün Parisdə verilib. Bunun müqabilində isə ortalıqda heç nə yoxdur.

İqtisadi nöqteyi-nəzərdən, CFA frankı ilə avro arasında sabit məzənnənin öz güclü tərəfləri var: Afrika valyutası "Köhnə qitə"nin pullarına asanlıqla dəyişdirilə bilər və onu böyük miqdarda xaricə aparmaq olar. Amma investisiya sabitliyi baxımından belə bir üstünlük dövlət üçün ciddi təhlükəyə çevrilir. Böhranın ilk əlamətləri üzə çıxan məqamda kapitalı, istifadə olunan yerli bazardan təcili çıxarmaq daha asandır.

Valyutaların bərabərsizliyi Avropa ilə müqayisədə inkişaf səviyyəsindəki uyğunsuzluğu daha da artırır. Bu gün avroya bağlanan Afrika valyutasına şişirdilmiş məzənnə miras qalıb. Nəzəri baxımdan bu, o deməkdir ki, xammalları çıxmaq şərti ilə, yerli mallar çox bahadır. Qalan hər şey xaricdən gətirilir və yerli bazarda uğurla satılaraq yerli istehsala heç bir şans vermir. Ümumi iqtisadi göstəricilərin dili ilə desək, bu disbalans kütləvi işsizliyin yaranmasına gətirib çıxarır. İllər keçdikcə özlərinə layiqli yer tapa bilməyən afrikalılar Fransaya, onun diktə etdiyi siyasətə və onunla bağlı olan elitalara qarşı getdikcə daha sərt düşmənçilik etməyə başlayırlar.

1987-ci ildə Burkina-Fasonun prezidenti Tomas Sankaranın qiyamçılar tərəfindən öldürülməsi CFA frankı ilə bağlı bəlkə də son məsum hekayə də ola bilərdi. Solçu ideyaların tərəfdarı olan Sankara hesab edirdi ki, müstəmləkəçilikdən miras qalmış pul vahidi iqtisadi tərəqqiyə mane olur və milli hissləri aşağılayır. 1980-ci illərin əvvəllərində o, ölkəsinin milli valyutasının buraxılmasını təklif etdi, lakin mövqeyi lazımınca qiymətləndirilmədi. Qəsdin sağ qalan yeganə şahidi Sankaranın son anlarını belə dilə gətirir: qiyamçılar prezident iqamətgahına soxularaq cəsarətli Sankara ilə qarşılaşdılar. O, ayağa qalxaraq atəşləri öz üzərinə götürdü: "Onlar mənim üçün gəliblər", – deyə qışqırdı və yıxıldı. Təşkilatçılar təkcə Burkinabe inqilabının lideri ilə deyil, həm də onun ideyalarını bölüşən 12 silahdaşı ilə hesablaşdılar. CFA frankı yenə "sağ" qaldı.

### XXI əsrin Fransa kolonializmi

CFA frankının arxasınca uzanan dumanlı cığır bizim dövrümüzdə onun vəziyyətini çətinləşdirməyə bilməzdi. 2015-ci ildə Çad prezidenti, sonradan üsyançılar tərəfindən öldürülən İdris Debi Fransa müstəmləkəçiliyinin XX əsrdə əsas silahına çevrilmiş CFA frankını "Afrikanı geri aparan" valyuta adlandırdı. 2019-cu ildə Benin prezidenti Patris Talon onun bu fikri ilə tam razılaşdığını ifadə etdi: "Bu modelin mövcudluğunun davam etdirməsində yaxşı heç nə yoxdur ". İndi "Qara qitə"də nəsillərin dəyişməsi ilə öz maliyyə siyasətinə nəzarət etmək istəyi daha sürətlə üstünlük təşkil etməyə başlayıb.

Müstəmləkəçiliyin etibarlı silahının əlindən çıxacağını görən Fransa buna cavab olaraq, 2019-cu ildə CFA frank zonasının – qərb cinahında öz çevik islahatını təklif etdi. Onun prinsipləri Fransanın rolunun tədricən zəifləməsini, maliyyə ehtiyatlarının Afrikaya qaytarılması hüququnu və hətta müstəmləkəçiliyə istinad edən pul vahidinin nüfuzunu itirmiş adının dəyişdirilib eko adlandırılmasını ehtiva edirdi. 2020-ci ildə islahatların əsas prinsipləri Fransa Milli Assambleyası tərəfindən təsdiqləndi: Fransa nümayəndələri Afrikanın mərkəzi banklarından çıxarılsın və maliyyə ehtiyatları yerlərə köçürülsün. Lakin pandemiyanın alovlanması islahatın gedişini ləngitdi: 3 ildən artıq vaxtın keçməsinə baxmayaraq, o, hələ də qüvvəyə minmədiyi üçün nəticələrini qiymətləndirmək, təbii ki, mümkün deyil.

Ancaq burada da Fransanın kifayət qədər düşünülmüş şəkildə seçdiyi formulaların ikili xarakterini nəzərdən qaçırmaq doğru olmazdı. Parisin müstəmləkəçilik siyasətindən zənginləşən siyasi elitası özünəməxsus hiyləgərliklə hər şeyin olduğu kimi qalmasını daha məqbul hesab edir və buna ciddi cəhdlə çalışırlar: məsələn, Afrikaya öz milli sərvətini qaytarmaq hüququ heç də bunu həyata keçirmək öhdəliyi demək deyil, çünki bu hüquq razılaşmalardan asılı vəziyyətdədir. Mərkəzi banklardakı fransız nümayəndələrini isə Fransanın razılığı ilə təyin edilmiş ekspertlər əvəz edəcəklər ki, bu da CFA frankını tənqid edənlərin nəzərində fərqli bir şey deyil.

CFA frankının gələcəyi ilə bağlı fərqli qiymətləndirmələrdən asılı olmayaraq, Paris əsas məsələdə qətiyyən güzəştə getməyə razı deyil. Bu isə o deməkdir ki, Afrika ölkələrində Fransanın monitar müstəmləkəçilik alətlərinə qarşı müqavimət bu və ya digər şəkildə davam edəcək. Üstəlik, Mərkəzi Afrikanın CFA frankı sistemi üçün islahatların, hətta cüzi yaxınlaşmasını belə, söyləmək olmaz. Belə ki, 2023-cü ildə belə dəyişikliklərə həsr olunmuş yerli liderlərin sammiti belə nəticəsiz başa çatıb.

### Hər hekayətin bir sonu var...

Bir sözlə, əgər Qərblə dünyanın əksər ölkələri arasındakı münasibətdən neokolonial hökmranlıq kimi danışırıqsa, o zaman Fransanın Afrikadakı təsiri sadə müstəmləkəçilikdən zərrə qədər də fərqlənmir. Hətta XX əsrdə ABŞ-ın dünyanın hər yerində tətbiq etdiyi formal suverenliyə əsaslanan beynəlxalq qurumlar sistemi belə bu strategiyaya maneə ola bilmədi.

Ancaq hər bir hekayətin bir sonu var. İndi Afrika cəmiyyətlərinin inkişafı, eləcə də "Qara qitə"nin sakinlərini qula çevirən fransızların ümumən zəifləməsi, onlar arasındakı münasibətləri bir növ finala doğru aparmaqdadır. Bundan sonra keçmiş fransız müstəmləkəçi ağaları bu ərazini ya tamamilə tərk etməli, ya da Afrikada öz müstəmləkə siyasətlərinin davam etdirilməsi üçün yeni yollar axtarmalı olacaqlar. O zaman Fransanın müstəmləkəçi monitar silahına çevrilən CFA frankının da sonu çatacaq.

Bunun bir əsas səbəbi odur ki, Parisin güc və resursları artıq formal suveren ölkələrin hökumətlərinə nəzarət etmək üçün kifayət etmir. Qərbin aparıcı dövlətləri arasında isə onun adekvat əvəzedicisi yoxdur. Üstəlik, Afrikaya getdikcə daha çox yeni xarici oyunçular gəlir. Rusiya orada təhlükəsizliyin qorunması sahəsində mövcudluğunu gücləndirir və dini terror qruplaşmalarına qarşı mübarizə aparır. Çin isə çox vaxt Afrika ölkələrinə Qərbdən gözlədiklərindən daha sərfəli əməkdaşlıq modelləri təklif edir və bu yolla təsirini artırır. Bu da, Avropa güclərinin heç vaxt rəqabətlə üzləşmədiyi və sosial infrastruktur məsələləri ilə özlərini əsla yükləməməyə vərdiş etdikləri yerlərdə çox həssas məsələlərdir.

Fransanın, XXI əsrdə Afrikada həyata keçirdiyi kolonial siyasət nəticəsində baş verən proseslərin məzmununu və mahiyyətini anlamadığını düşünmək yolverilməz səhv olardı. Buna baxmayaraq, Paris birbaşa nəzarətin qeyri-mümkün olduğu yerlərdə də, məsələn, Cənubi Qafqazda Ermənistandan istifadə etməklə maksimum fayda əldə etməyin yeni yollarını axtarır. Bu, kənar müşahidəçilərə belə bir fikir irəli sürməyə imkan verir ki, son vaxtlara qədər fransızların özlərini tamamilə rahat hiss etdikləri regionda Fransanın gücü son dərəcə zəifləyib. Axı onların öz mövcudluğunu qorumaq üçün hansı imkanları var və ümumiyyətlə, bu güc mövcuddurmu?

Əlbəttə, Fransa hərbi cəhətdən hələ də ayrı-ayrılıqda Afrika rejimlərinin hər birindən qat-qat güclüdür, lakin Paris artıq bu üstünlüyünü güclü siyasi təsirə çevirə bilmir. Buradan aydın görünür ki, hər bir hekayənin bir sonu olduğu kimi, Fransa müstəmləkəçiliyinin də sonu çatmaqdadır. Əlbəttə əgər Afrikadan sonra Cənubi Qafqazda müstəqilliyindən doğru-düzgün faydalanmayan Ermənistanı öz müstəmləkəsinə çevirə bilməsə...

*İlqar RÜSTƏMOV*
*XQ*

Türkiyə

## "Taxıl sazişi"nə çağırış

**Maltada həmkarı ilə birlikdə mətbuat konfransı zamanı Türkiyənin xarici işlər naziri Hakan Fidan bildirib ki, Rusiya ilə taxıl sazişinə yenidən baxılmalıdır. Bu barədə "Aandolu" agentliyi məlumat yayıb.**



Xarici işlər naziri qeyd edib ki, həm Ukrayna, həm də Rusiya taxılının dünya bazarlarına təhlükəsiz şəkildə çıxarılması lazımdır. Bu, dünyanın yoxsul ölkələri üçün xüsusilə əhəmiyyətlidir. Türkiyəli nazir, ölkəsinin Ukraynanın ərazi bütövlüyünü hər zaman dəstəkləyəcəyini də vurğulayıb.

Yeri gəlmişkən, Türkiyənin xarici işlər naziri Hakan Fidan fevralın 6-da Liviyaya gedib. Bu barədə Türkiyə Xarici İşlər Nazirliyindən bildirilib. Məlumatda bildirilir ki, H.Fidan Liviya rəsmiləri ilə ikitərəfli və regional məsələləri müzakirə edəcəyi gözlənilir.

## İstanbulda məhkəməyə hücum cəhdi

**Dünən Türkiyədə İstanbul Çağlayan Ədliyyə binasına hücum cəhdi olub.**



Hücum edən şəxslərin hər ikisi – bir kişi və bir qadın öldürülüb. Hadisə nəticəsində, 3-ü polis olmaqla, 6 nəfər yaralanıb.

DİN başçısı Ali Yerlikaya hücum edənlərin DHKP/C terror təşkilatının üzvləri olduğunu bildirib.

Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğan deyib ki, Türkiyədə İstanbul Çağlayan Ədliyyə binası qarşısında terrora cəhd edənlərin havadarları və dəktəkçiləri cəzalandırılacaqlar.

"Cümhur İttifaqı söz verir və yerinə yetirir. Ədliyyə binası qarşısında törədilən terror aktında xainlər öz mənfur məqsədlərinə nail ola bilmədilər. Türkiyə heç bir ayrı-seçkilik etmədən bütün terror təşkilatlarına və onların dəstəkçilərinə qarşı mübarizəni qətiyyətlə davam etdirəcək", – deyə Ərdoğan bildirib.

*XQ*

## Estoniyanın Ukraynaya hərbi yardımı

**Estoniya Ukraynaya yeni hərbi yardım paketi, o cümlədən tank əleyhinə "Javelin" sistemi göndərdiyini açıqlayıb. Estoniya Müdafiə Nazirliyindən verilən məlumata görə, paketə "Javelin" sistemi tank əleyhinə raketləri, həmçinin pulemyotlar, atıcı silahların sursatları, quru və amfibiya texnikası və dalğıc ləvazimatları daxildir.**



80 milyon dollar dəyərində olan bu yardım paketinin transferi ötən ilin dekabrında Estoniya hökuməti tərəfindən qəbul edilib.

Təhvil verilən silah və texnikanın dəqiq sayı, çatma vaxtı və digər çatdırılma təfərrüatları təhlükəsizlik baxımından açıqlanmayıb.

Estoniya Müdafiə Nazirliyi 2023-cü ildə Ukraynaya təxminən 500 milyon avro dəyərində hərbi yardım edib.

*XQ*

"Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi"
Qapalı Səhmdar Cəmiyyəti

balansındakı "Akademik H.Əliyev" bərə gəmisinin" MAN 6K45GFCA" baş mühərrikinin ehtiyat hissələrinin satın alınması məqsədilə

MÜSABİQƏ ELAN EDİR

Müsabiqədə iştirak etmək istəyən şəxslər www.asco.az səhifəsinə daxil olmaqla elanlar bölməsindən əlavə sənədləri və ətraflı məlumat əldə edə bilərlər. Müraciət üçün son müddət 2024-cü il 16 fevral saat 17.00-dəkdir.

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildəki tender təklifləri Azərbaycan dilinə tərcümə edilməlidir).

Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.

Əlaqə telefonu- (012) 404-37-00, daxili: 1071.

Ünvan- Bakı, Mikayıl Useynov küçəsi 2.

"Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi"
Qapalı Səhmdar Cəmiyyəti

ASCO-nun tabeliyindəki idarələrə tələb olunan alternativ enerji mənbələrinə illik texniki xidmətlərin satın alınması məqsədilə

MÜSABİQƏ ELAN EDİR

Müsabiqədə iştirak etmək istəyən şəxslər www.asco.az səhifəsinə daxil olmaqla elanlar bölməsindən əlavə sənədləri və ətraflı məlumat əldə edə bilərlər. Müraciət üçün son müddət 2024-cü il 13 fevral saat 17.00-dəkdir.

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildəki tender təklifləri Azərbaycan dilinə tərcümə edilməlidir).

Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.

Əlaqə telefonu-(012) 404-37-00, daxili: 1263.

Ünvan- Bakı şəhəri, Mikayıl Useynov küçəsi 2.

BİLDİRİŞ

"Hərbi Vətənpərvərlik və Mütəxəssis Hazırlığı Mərkəzi" Məhdud Məsuliyyətli Cəmiyyəti Azərbaycan Respublikası Prezidentinin 16 noyabr 2023-cü il tarixli, 2353 nömrəli Fərmanı ilə ləğv edilmişdir.

Kreditorlar ləğv edilən hüquqi şəxsə qarşı tələbləri ilə əlaqədar 60 gün ərzində AZ1022, Bakı şəhəri, Nəsimi rayonu, Mərdanov Qardaşları küçəsi 99 nömrəli ünvana müraciət edə bilərlər.

Xalq qəzeti
XQ
xalqqazeti.az
№ 26 (30430) 7 fevral 2024-cü il, çərşənbə

# Yel kimi keçməsin vaxt üstümüzdən

## SAAT – zaman tərəzisi...



**Gündə neçə dəfə onun əqrəblərinə baxıb vaxtı tarazlayırıq, gündə neçə dəfə gözümüzü onun rəqəmləri üzərində gəzdiririk, demək çətindir. Yanımızda, üstümüzdə olmayanda kimdənsə soruşmaqdan da çəkinmirik:**

– Saat neçədir?.. Bəs nədir bizi ona bağlayan sehr, onunla hesablaşmağımız?

Bəlkə də burda sehr axtarmağa dəyməz. Ən azı ona görə ki, hamımız ondan asılıyıq, bir az da sərt desək, hamımız onun əsiriyik. Saat günü, ayı, ili, vaxtı, zamanı göstərir. Zaman isə böyük qüvvədir. Necə ki, klassik alman filisofu Hegel deyirdi: "Hər şey vaxta baxsa da, vaxt heç nəyə baxmır".

Saat vaxtı ölçən yeganə cihazdır. Onun əqrəbləri fırlandıqca, zəngi çalındıqca, harasa tələsirik, harasa gecikirik. Amma əqrəblər hərləndikcə bizə ayrılan ömür möhləti də daralır...

Keçmişlə gələcəyi, dünənlə sabahı, olmuşlarla olacaqları qovuşduran zaman saatı… Ona boyun əyməyən varmı?

Məşhurlardan birinin vaxt haqqında maraqlı fikri var: "Dünyada ən yaxşı müəllim vaxtdır, heyf ki, o, öz tələbələrini tez öldürür".

Mərhum Xalq şairi Bəxtiyar Vahabzadənin misralarıdır:

*Saatı olmayan tez saat alır,*
*Qızıldan, gümüşdən ona bağ salır.*
*Daha düşünmür ki, ömür azalır*
*Saat fırlandıqca  hər bu dünyada...*

Heç məşhur olmayan bir şairin də misraları yadımda qalıb:

*Bir vaxt vaxt gəzirdim vaxt öldürməyə,*
*İndi vaxt tapmıram vaxtı bölməyə...*

Vaxt bu dünyada ən qiymətli sərvətdir. Əslində İslam dünyasının müqəddəslərindən sayılan imam Əlinin (ə) dediyi kimi, hər kəs ata-anasından daha çox doğulduğu zəmanın övladıdır.

Yazıçı Seyran Səxavətin "Qaçaqaç" romanında belə bir cümlə var: "Saniyələr dəqiqələri, dəqiqələr saatları, saatlar günləri, günlər həftələri, həftələr ayları, aylar illəri, illər də əsrləri doğurdu – bu, Zamanın döl kampaniyası idi..."

Bir gün filosoflardan birinin oğlu ona sual verir:

–Ata, biz hər gün xoruzun ban səsini eşidirik, məgər bu sabahın açılmağına işarədir?

Ata cavab verir ki, yox, ay oğul, biz xoruzun ban səsini səhər də, günorta da, axşam da eşidə bilərik. Xoruzun ban səsi bizə xəbərdarlıq edir ki, ayılın, ey insanlar, ömrümüzdən bir gün də keçdi...

**Süleyman QARADAĞLI**

Teatr

# "Qulliver..." Bakı səhnəsində

**Fevralın 11-də Azərbaycan Dövlət Gənc Tamaşaçılar Teatrında dünya şöhrətli ingilis satiriki, filosof və ictimai xadim Conatan Sviftin məşhur "Qulliver cırtdanlar ölkəsində" əsəri əsasında hazırlanmış eyniadlı tamaşa nümayiş etdiriləcək.**



Teatrdan XQ-yə həmçinin bildiriblər ki, uşaq və yeniyetmələrə təbliğ olunan əsas məqam darda olanlara kömək etməyin, mərhəmətli olmağın vacibliyidir. Tamaşada əsas rolları Elşən Hacıbabayev və Müşfiq Əliyev ifa edəcək.

Səhnə əsərinin quruluşçu rejissoru Elşad Rəhimzadədir. Tamaşada kukla elementlərindən istifadə olunub.

**N.AYTƏN**
**XQ**




Sözün bəxti – bəxtin sözü

# Heyran xanımın bəlalı taleyi

**Naxçıvan xanlarının nəslindən olan Heyran xanımın birinci həyat yoldaşı onu dərin məhəbbətlə sevmiş, necə deyərlər, əvvəl ürəyini ovlamış, sonra isə ona vəfasız çıxmışdır. Şairə onun dönüklüyündən belə giley- güzar etmişdir:**

*Vurdun ol qədər sən vəfadan dəm,*
*Xatirimdə nə şübhə qaldı, nə qəm.*
*Gülüşün qönçə, göz yaşın şəbnəm,*
*Məni aldatdı, bilmədin nə edəm.*
*Məni – biçarəni zəbun etdin,*
*Zar qəlbimi qərqi-xun etdin*

### "Bilmirəm, ruzigara neyləmişəm..."

Heyran xanım ikinci dəfə ailə qurur. Bu dəfə isə əri onunla tez-tez kobud rəftar edir, göz verib işıq vermir. Şairə xanım ikinci həyat yoldaşı haqqında belə yazır:

*Məni zəncirdə saxladın, bu yetər,*
*Doğrusu, sən mənə deyilsən ər.*
*Daima ac, susuz və qəlyansız,*
*Oturum bu xərabədə nə qədər?*
*Bilmirəm, ruzigarə neyləmişəm,*
*Ki, salıbdır kəməndinə bu təhər.*

### "Qara saçlarım ağardı..."

Azərbaycanda sovet hakimiyyəti qurulan zaman ailəsi ilə Təbrizə köçən Heyran xanımın həyatı orada da kədərli keçmişdir. O, həmişə zəmanədən, adamların vəfasızlığından, özünün qürbətdə tək-tənha qalmasından gileylənmiş, yaşadığı Təbriz şəhərini "guşeyi-zindan" adlandırmışdır. Ömrü iztirablar içində keçən şairənin gənclik təravəti və gözəlliyi tez solmuş, vaxtsız-vədəsiz qocalmışdır. Şeirlərinin birində Heyran xanım öz vəziyyətini belə təsvir etmişdir:

*Belim büküldü, qara saçlarım*
*ağardı mənim,*
*Qocalmışam bu cəfakar*
*çərx əlindən, aman.*

### "Bağlanıb xalq üçün nicat yolu..."

Heyran xanım yaradıcılığında daim ətrafında baş verən hadisələri işıqlandırır, dövrün qayda-qanunlarına etiraz motivli şeirlər qələmə alırdı. "Təbrizdə zəlzələ haqqında" şeirində yaşadığı şəhərdə təbii fəlakət nəticəsində baş verən faciəli hadisələrdən, "sinəsi dağlı, gözləri yaşlı" qalmış anaların acı kədərindən, onların göylərə qalxan fəqanından bəhs edib. Həcmcə kiçik olmasına baxmayaraq, bu şeir kədərli bir lövhə kimi yadda qalır:



*Oldu, ya Rəbb, həlak insanlar,*
*Suvarıb torpağı qızıl qanlar.*
*Oldu çöllər cavanlara mədfən,*
*Çoxlarına nə qüsl var, nə kəfən.*
*...Baxasan, hər yan cəsədlə dolu,*
*Bağlanıb xalq üçün nicat yolu.*

**Zərifə BƏŞİRQIZI**
**XQ**

# Azərbaycan İstanbul turizm sərgisində



**Dövlət Turizm Agentliyi və Azərbaycan Turizm Bürosunun təşkilatçılığı ilə ölkəmizin turizm imkanları İstanbul şəhərində keçirilən Şərqi Aralıq dənizi Beynəlxalq Səyahət və Turizm Sərgisində ("EMITT - 2024") nümayiş etdirilir.**

Fevralın 9-dək davam edəcək sərgi çərçivəsində milli stenddə 6 turizm şirkəti, 2 hotel qrupu və "Azərbaycan Hava Yolları" QSC təmsil olunur. Sərgidə ziyarətçilərə ölkəmizin turizm məkanları, qastroturizm, şərabçılıq, qış turizmi imkanları, dağ-xizək mərkəzləri, UNESCO-nun Ümumdünya İrs Siyahısına daxil edilmiş "Xınalıq və Köç Yolu" mədəni landşaftı daxil olmaqla maddi-mədəni irs nümunələri haqqında geniş məlumat verilir.

Qeyd edək ki, Türkiyə 2023-cü ildə Azərbaycana səfər edən xarici ölkə vətəndaşlarının sayına görə 2-ci yerdə qərarlaşıb. Ötən il Türkiyədən ölkəmizə 378 min 204 nəfər ziyarətçi gəlib.

**FİDAN**
**XQ**

Hava

# Əksər yerlər yağmursuz və dumanlı olacaq



**Ekologiya və Təbii Sərvətlər Nazirliyi Milli Hidrometeorologiya Xidmətinin verdiyi məlumata əsasən fevralın 7-də Bakıda və Abşeron yarımadasında havanın dəyişkən buludlu olacağı, arabir tutulacağı, əsasən, yağmursuz keçəcəyi gözlənilir.**

Lakin gecə bəzi şəhərətrafı ərazilərdə qısamüddətli az yağıntılı olacağı ehtimalı var. Mülayim cənub-qərb küləyi əsəcək. Gecə 3-6°, gündüz 12-16° isti olacaq. Atmosfer təzyiqi normadan yuxarı 762 mm civə sütunu, nisbi rütubət 65-75 faiz olacaq.

Azərbaycanın əksər rayonlarında hava, əsasən, yağmursuz keçəcək. Lakin gecə və səhər bəzi şimal və qərb rayonlarında havanın arabir yağıntılı olacağı, dağlıq ərazilərdə qar yağacağı gözlənilir. Arabir duman olacaq. Qərb küləyi əsəcək, ayrı-ayrı yerlərdə arabir güclənəcək. Havanın temperaturu gecə 0-5° , gündüz 13-18° isti, dağlarda gecə 2-7° şaxta, gündüz 1° şaxtadan 4°-dək isti olacaq.

**Q. QASIMOV**
**XQ**

Sağlamlıq

# Ət: hansı, necə, nə qədər?

**Ət zülal mənbəyidir, eləcə də qanın elementlərini formalaşdırır. Bir çoxları qida qəbulunda əti balıq və toyuqla əvəz edir. Həkim dietoloq Natalya Denisova bildirib ki, insanın kifayət qədər ət yeməməsi sümük, əzələ sıxlığı və çəkisinin azalmasına səbəb olur, qan azlığına gətirib çıxarır. Nəticədə, ürək-damar, dayaq-hərəkət, sidik sistemində problemlər yaranır.**



Mütəxəssislərin fikrincə, az ət yemək hətta onkoloji xəstəliklərə də səbəb olur, çünki immunitet zəifləyir.

Ət, ilk növbədə, amin turşuları, B qrup vitaminlərinin mənbəyidir. B12 və B9 vitaminləri ürək, beyin və sinirlərə vacibdir.

Həkim ətin toyuq və balıqla əvəz edilməsini səhv hesab edir. Bildirir ki, onlar əti tam əvəz etmir. Bu ət növlərində dəmir və B 12, demək olar, yoxdur. Lakin ət gündəlik qida deyil, həftədə 2–3 dəfə, hər qəbulda 100–150 qram yetərlidir. Ən faydalısı yağsız mal ətidir ki, mütləq qaynadılıb yeyilməlidir.

Gündəlik zülal tələbatını digər heyvani və bitki qidalarından da almaq lazımdır.

Amma ət və sümük bulyonları ilə ehtiyatlı olmaq lazımdır. Onlar podaqra və böyrək daşını artıra bilər.

**Z.HÜSEYNLİ**
**XQ**

BAŞ REDAKTOR
ƏFLATUN AMAŞOV

TELEFONLAR:
Reklam və elanlar: 493-82-21
Qəbul şöbəsi: 493-24-75
Məsul katib: 493-61-02
Texniki şöbə: 493-59-64
Mühasibatlıq: 498-85-29
E-mail: xalqqazeti@gmail.com
info@xalqqazeti.az
+994(51) 280-16-44

"Xalq qəzeti"nin kompüter mərkəzində yığılıb və səhifələnib, "Azərbaycan" nəşriyyatında çap olunub.

ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
Şəhadətnamə 022273

İNDEKS 0282
TİRAJ 3455
SİFARİŞ 285
QİYMƏTİ 60 qəpik

Növbətçi redaktor
Paşa ƏMİRCANOV

Çapa imzalanmışdır 00:00